www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 aprel 2015-ci il Çərşənbə axşamı № 90 (6118) Qiymәti 40 qəpik

**Xəbər**

## Ağcabədidə pivə əvəzinə benzin içən kişi öldü

yazısı səh.14-də

**Gündəm**

### Tofiq Yaqublunun ürək parçalayan söhbəti - "... çətin olacaq"



"Nərgizin həyatının ən xoş günündə də, ən faciəvi, dünyaya gözlərini yumduğu son anında da onun yanında ola bilmədim..."

yazısı səh.3-də

### İsveçrədəki Laçın qaçqınlarının heyrətamiz hekayələri - reportaj

yazısı səh.12-də

### Yadigar Sadıqov "çox kitab oxuduğu üçün" həbsdən buraxılmayıb

yazısı səh.8-də

### İqtidar-müxalifət görüşü niyə yubadılır...

yazısı səh.5-də

### Təşəkkürlər, Amerika! Thank you, Obama!..

yazısı səh.9-da

### "Nərgiz Yaqublu mükafatı" təsis oluna bilər

yazısı səh.2-də

### Hadı Rəcəblidən Azərbaycan türklərinə həqarət

yazısı səh.10-da

### Qarabağ üçün yubiley dərsləri

yazısı səh.13-də

*Novella Cəfəroğlu:*

### "Prezident İlham Əliyevlə görüşmək istəyirik, buna çalışırıq"

yazısı səh.4-də

### Razi Nurullayev Milli Şuradan çıxarıldı

yazısı səh.11-də

### "Mərkəzi Bank üçün yeni devalvasiya asan qərar deyil"

yazısı səh.4-də

## YAP bəzi dairələrdə mandatını niyə geri istəyir?

# BAŞ NAZİRİN MÜAVİNİ ƏLİ ƏHMƏDOVA QARŞI CƏBHƏ YARANIR

Bəzi oliqarxlar parlament tribunasından məhrum ediləcəklər; YAP icraçı katibinin Seçki Qərargahına Nazirlər Kabinetindən nəzarət etmək istəyinə qarşı kimlər çıxır...




yazısı səh.8-də

## Abbas Abbasovun fermer təsərrüfatının rəhbəri haqda sensasion bilgilər

Daşkəsəndən sorğumuza rəsmi cavab gəldi; "Akif Rzayev hər yerdə deyir ki, sürülər Abbas müəllimindi, ona görə də kimsədən qorxum yoxdu"; azyaşlı qıza təcavüzdə və mal-qara oğurluğunda suçlu bilinərək 14 il türmə yatmış fermeri Abbasovlar klanına nə bağlayır?

yazısı səh.6-da



*Pənah Hüseyn:*

### "Həm Ermənistan, həm də dünya erməniləri məqsədlərinə nail ola bilmədilər"

yazısı səh.5-də



*Bəxtiyar Məmmədov:*

### "Şahin Sultanov cinayətləri Səfər Əbiyevin himayəsi altında həyata keçirib"

yazısı səh.10-da



### Əli Həsənov erməniləri ifşa edən məqalə yazdı

yazısı səh.4-də



# "Nərgiz Yaqublu mükafatı" təsis oluna bilər

## Əbülfəz Sadıqbəyli: "Niyə də olmasın?"

**Aprelin 23-də dünyadan köçən müsavatçı gənc xanım, mərhum əməkdaşımız Nərgiz Yaqublunun yoxluğu günlər keçdikcə, daha çox hiss olunur. Onun həyatdakı yoxluğu hər keçən an yaxınlarını, dost-tanışlarını və ailə üzvlərini daha çox üzür. Ölümündən sonra "Nərgiz Yaqublu mükafatı"nın təsis olunacağı barədə təklif verilib. Müsavatçı gənclərin Nərgiz Yaqublunun ölümü ilə bağlı bir sıra planları var. Həftəsonu mərhumla bağlı partiyanın qərargahında tədbir keçirilməsi nəzərdə tutulur.**

Bu barədə musavat.com-a Müsavat Gənclər Təşkilatının (MGT) Təşkilat Komitəsinin üzvü Əbülfəz Sadıqbəyli məlumat verdi: "Nərgizin itkisi ilə barışmaq bizim üçün çox ağırdır. Hər saniyə ağlımızda və ürəyimizdədir. "Nərgiz mükafatı" niyə də olmasın? Adətən belə mükafatlar xalqı uğrunda mübarizə aparan, çalışan insanların şərəfinə yaradılır. Düşünürəm ki, Nərgiz bu etapların hamısını keçmişdi... Təbii ki, ailəsi ilə məsləhətləşib qərar verəcəyik. Tədbirdə Nərgizlə bağlı xatirələrdən, keçdiyi həyat yolundan danışılacaq. Videoçarx hazırlamağı düşünürük. Tədbir barədə mətbuata məlumat verəcəyik".

**MGT Təşkilat Komitəsinin sədri Səma Qabulova Nərgiz Yaqubluya veriləcək ən böyük mükafatın atasının həbsdən azad edilməsi olduğunu söylədi:** "Nərgizin özü bizə mükafat idi. Heç bir mükafat onu dəyərləndirməyə yetməz. Ona veriləcək ən böyük mükafat atası Tofiq Yaqublunun həbsdən azad olunması və xalqımızın demokratiyaya qovuşmasıdır. Nərgizlə bağlı anım tədbiri keçirməyi düşünürük. Tədbirdə onun mübariz şəxsiyyət olduğundan danışacağıq. Bilənlər bilir, bilməyənlər üçün danışacağıq ki, Nərgizi onlar da tanısınlar. Onun vəfatı sözün həqiqi mənasında bizi bitirdi. Eyni zamanda bizləri bir-birimizə daha da yaxınlaşdırdı. Onun mübarizə yolu hamımız üçün bir örnəkdir. Nərgizin həyat yolu sözlərimizə sığmayacaq qədər böyük və ağırdır. O, 26 yaşının hər anını mənalı keçirib. O qədər məsum, mərd idi ki. Onu tanıyan hər kəs xoşbəxtdir, eyni zamanda qəmlidir. Onun üçün çox darıxıram. Danışdığı hər kəlmə, hər an ağlımdadır. Artıq Nərgiz mənim sevimli gülüm olub. Onu heç vaxt unutmayacağıq".

❑ Cavanşir ABBASLI

# Müsavat Rəsulzadənin büstü ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət edəcək

**Dünən Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, iclasda öncə Nərgiz Yaqublunun xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin büstünə qarşı edilən vandalizmlə əlaqədar hüquq-mühafizə orqanlarına müraciət edilməsi barədə məlumat verilib.**

Partiya rəhbərliyinin Füzuli, Mingəçevir və Şəkiyə səfərləri barədə məlumat verilib. Suraxanı rayon təşkilatında yaranmış vəziyyət müzakirə edilib.

Ötən həftə baş tutan Çanaqqala zəfəri və qondarma "erməni soyqırımı" tədbirlərinin nəticələri barədə fikir mübadiləsi aparılıb.

Divanın iclasında Müsavat Partiyasına baş verən ağır itki ilə əlaqədar ölkədaxili və partiyadaxili digər məsələlərin növbəti iclasda müzakirə edilməsi qərara alınıb.

❑ ETİBAR


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Medianews.az saytının təsisçisi məhkəməyə cəlb edilib

**Medianews.az saytının təsisçisi məhkəməyə cəlb edilib. Bu barədə medianews.az saytının təsisçisi Ələsgər Süleymanov məlumat verib. Onun dediyinə görə, Nizami rayon Məhkəməsindən daxil olan məktubda Rzayev Qulammirzə Ağamirzə oğlunun onu xüsusi ittiham qaydasında məhkəmə verdiyi məlum olub.**




17 may 2013-cü il tarixdə ANS PRESS və bir çox digər xəbər saytlarında "Bakıda burnundan əməliyyat olunan kişi öldü" başlıqlı xəbər dərc olunub. Xəbərdə deyilir ki, 48 yaşlı Qalib Əsədullayev burnundakı çəpər əyriliyinə görə 6 ay bundan əvvəl Biləcəridəki dəmiryol xəstəxanasında həkim Rafiq Rzayev tərəfindən əməliyyat olunub. Lakin əməliyyat uğursuz keçib və həkim yenidən əməliyyat olunmağı vacib bilib. Təkrar əməliyyat isə 17 aprel tarixində yenidən dəmiryol xəstəxanasında olub. Əməliyyatdan sonra xəstədə tez-tez qanaxma baş verib. Xəstə yenidən xəstəxanaya yerləşdirilib və dünyasını dəyişib.

Qalib Əsədullayevin qardaşı Həsənağa Əsədullayevin ANS PRESS-ə dediklərinə görə, əvvəllər qardaşının heç bir xəstəliyi olmayıb. O, Həsənağa qardaşının ölümündə həkimin günahlandırılmasını istəyir və buna görə də müvafiq orqanlara şikayət edib.

Ə.Süleymanov bildirib ki, hadisədən və xəbərin saytlarda getməsindən 2 il müddət keçdikdən sonra mart ayının ortalarında özünü həkim Rafiq Rzayevin əmisi oğlu və nümayəndəsi kimi təqdim edən Rzayev Qulammirzə redaksiyaya gələrək prokurorluğun işə xitam verməsi barədə möhürsüz, adi vərəqədən ibarət bir sənəd təqdim edərək, saytdan xəbərin çıxarılmasını xahiş edib. Ona saytdan xəbər çıxarmaq kimi bir praktikanın olmadığı, lakin işə xitam verilməsi barədə xəbərin də yazıya əlavə edilə bilinəcəyi bildirilib. O isə həkimin adının axtarış sistemlərində ölüm halı ilə hallandırılmasını əsas gətirərək, xəbərin saytdan çıxarılmasını israr edib.

Həkimin nümayəndəsi danışarkən və hətta öz ərizəsində də qeyd edib ki, bütün digər saytlardan bu xəbərin çıxarılmasına nail olub. Ona bunun qanun pozuntusu olması və belə hallarda təkzib verilməsi praktikası izah edilsə də, o razılaşmayıb. İsrarlı xahişlərlə iş rejimini pozub. Qarşıdan gələn Novruz bayramını əsas gətirərək, həkimin adının xəbərdən çıxarılmasını xahiş edib. İşə yaratdığı problem nəzərə alınaraq, ona bütün xəbərin deyil, yalnız həkimin adının xəbərdən çıxarılacağı və təkzibin də yerləşdiriləcəyi bildirilib. Bu deyilən məsələ öz həllini tapmasına baxmayaraq, onun yenidən Bakı Şəhər Prokurorluğuna və Nizami Rayon Məhkəməsinə müraciət etməsi başa düşülən deyil. Digər tərəfdən, Nizami Rayon Məhkəməsinin hakimi Ramil Həsənovun bu işi xüsusi ittiham qaydasında icraata götürməsi anlaşılan deyil. Şikayətçi şəxs öz ərizəsində qeyd edir ki, xəbəri vermiş 33 saytdan 31-də bu xəbəri sildirib. Onun buna necə nail olması ciddi şübhələr doğurur və medianews.az bunu araşdırmağa çalışacaq".

# "Qanuni oğru"lar Moskvada Rövşən Lənkəranskinin taleyini həll edəcəklər

**Kriminal aləmin ən çəkili "qanuni oğru"su sayılan "Şakro Molodoy" ləqəbli Zaxari Kalaşov Rövşən Lənkəranskini öz himayəsinə götürdüyünü bəyan edib.**

APA TV-nin vesti.aza istinadən verdiyi məlumata görə, bu yaxınlarda Rusiya paytaxtında bütün "qanuni oğru"ların iştirakı ilə toplantı keçiriləcək. "Şakro Molodoy"un təşkilatçısı olduğu bu yığıncaqda azərbaycanlı Rövşən Canıyevin titulundan məhrum edilməsi ilə bağlı fətva verən "qanuni oğru"lardan bu qərarı nə üçün verdikləri soruşulacaq.

Xatırladaq ki, kriminal aləmin "Ded Xasan" ləqəbli "xaç atası" Aslan Usoyanın qətlindən sonra qoca "oğru"lar Rövşən Lənkəranskinin cəzalandırılması barədə qərar çıxarıblar. Qətldə məhz o təqsirli bilinir. Buna görə də azərbaycanlı "qanuni oğru" üçün bu toplantının çıxaracağı qərarın əhəmiyyətli olduğu bildirilir. Bundan əlavə, toplantıda ən sərt cəzanın gürcü "qanuni oğru" Gela Kardavanı gözləyir. O, bir müddətdir gizlənir. Yığıncaqda bir neçə şəxsə ad veriləcəyi də deyilir. Kardava cəzalandırılacaq sonuncu gürcü nümayəndəsi olmayacaq. Onunla bərabər Badri Koquaşvili, Tariel Oniani və Merab Canqveladzenin də adları çəkilir. "Şakro Molodoy" "qanuni oğru"ların siyahısına əl gəzdirməkdə israrlıdır. Titulun alınması isə kriminal aləmdə ölümə bərabər hesab olunur.

# Ziya Bünyadov prospektində nəqliyyatın hərəkəti məhdudlaşdırılır

**Aprelin 27-si gecədən Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC tərəfindən I Avropa Oyunlarında müəyyən edilmiş marşrut üzrə əsas yol şəbəkəsində "Oyunlar zolağı"nın işarələnməsi işlərinə start verilir.**

"Azəryolservis" ASC-dən "APA-Economics"ə verilən məlumata görə, "Oyunlar zolağı"nın çəkilişinə ilk olaraq Ziya Bünyadov prospektindən başlanılır. Bu məqsədlə prospekt axşam saat 22:00-dan etibarən səhər saatlarınadək "Böyükşor" yol qovşağından "20 Yanvar" dairəsinədək nəqliyyat vasitələrinin hərəkəti üçün müvəqqəti olaraq məhdudlaşdırılacaq.

Sürücülərdən alternativ olaraq Heydər Əliyev prospektinin əsas yolundan istifadə etmələri tövsiyə olunur.

Qeyd edək ki, eni 3,75 metr olan "Oyunlar zolağı"nın kənarlarında 25 santimetr enində sarı xətt və asfalt üzərində isə təyin ediləcək yerlərdə I Avropa Oyunlarının loqotipinin şəkli çəkiləcək.

I Avropa Oyunlarında müəyyən edilmiş marşrut üzrə əsas yol şəbəkəsində "Oyunlar zolağı"nın çəkilişi işlərinin 20 gün müddətində davam etdirilməsi nəzərdə tutulub.

Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən "Oyunlar zolağı"na nəzarət ediləcək və kənar maşınların bu zolaqla hərəkəti tamamilə məhdudlaşdırılacaq.

İdmançıları, texniki heyəti və media yayım şirkəti nümayəndələrini "Atletlər" və "Media kəndi"ndən məşqlərə və idman obyektlərinə aparmaq üçün Heydər Əliyev prospekti - Ziya Bünyadov prospekti -"20 Yanvar" dairəsi - 20 Yanvar tuneli - Bakı-Sumqayıt yolundan geriyə (Beynəlxalq Avtovağzal ərazisindən) - Bakı Dairəvi yolu - Bakı-Ələt yolunun 2-14 km hissəsini birləşdirən marşrut, bundan başqa, Ziya Bünyadov prospekti - Atatürk prospekti - Tofiq Bəhrəmov adına Respublika stadionu, həmçinin Ziya Bünyadov prospekti - Atatürk prospekti - Vaqif küçəsi - Hənifə Ələsgərov - Cəlil Məmmədquluzadə küçələri - Heydər Əliyev adına İdman Konsert Kompleksini birləşdirən marşrutlardan istifadə ediləcək.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# Nazir Qarabağ əlilini işinə bərpa etdirdi

**II qrup Qarabağ müharibəsi əlili Bayramov Elxan Adıgözəl oğlunun "Atena" MMC-də işlədiyi halda qeyri-qanuni olaraq işdən azad edilməsi ilə bağlı şikayət xarakterli müraciəti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən obyektiv şəkildə araşdırılıb.**

Bu barədə musavat.coma nazirliyin mətbuat xidmətinin rəhbəri Elman Babayev məlumat verib: "Araşdırma nəticəsində Bayramov Elxan Adıgözəl oğlu ilə bağlanmış əmək müqaviləsinə qeyri-qanuni şəkildə xitam verildiyi müəyyən olunub. Xidmət tərəfindən əmək qanunvericiliyinin tələblərinə uyğun tədbir görülməklə, II qrup Qarabağ müharibəsi əlilinin yenidən "Atena" MMC-də əvvəlki işinə bərpa olunması təmin edilib.

Qeyd edək ki, indiyə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinə bir neçə dəfə bu kateqoriyadan olan şəxslər tərəfindən işdən qeyri-qanuni çıxarılma ilə bağlı müraciətlər daxil olub və bu müraciətlərə dərhal reaksiya verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işəgötürənlərə sosial cəhətdən həssas əhali qruplarına, xüsusən də ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlıqlarını itirmiş insanlara və şəhid ailəsi üzvlərinə daim diqqət və həssaslıqla yanaşmağı tövsiyə edir".

❑ M.MAHRIZLI

# "Nurgün Motors"un salon rəhbəri həbs olundu

**Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi Bakıda avtomobil satış mərkəzləri və salonlarında gizli əməliyyat keçirib.**

Əməliyyat nəticəsində 10-dan artıq şəxs tutulub. Məlumata görə, əməliyyata səbəb salonlarda keyfiyyətsiz avtomobillərin satılması, müştərilərin aldadılması ilə bağlı çoxsaylı şikayətlərin edilməsi olub.

Şikayətlər əsasən suya düşmüş, istifadəsi təhlükəli olan avtomobillərin və işlənmiş (ikinci əl) avtomobillərin yürüşünün ("probeq") aşağı salınaraq baha qiymətə satılması ilə bağlı olub.

"Bandotdel" əməkdaşlarının əməliyyatı zamanı Babək prospektində olan bəzi avtomobil satış mərkəzlərində bu fakt təsdiqini tapıb. Məlum olub ki, avtosalonlar dələduzluq yolu ilə insanlardan xeyli pul mənimsəyirlər, onlara maddi ziyan vururlar.

Elə buna görə də "Nurgün Motors"un bəzi salonlarının, eləcə də "Avto Line", "Avto Qalareya", "Avto Murad" və digər salonların rəhbərləri, eləcə də bəzi əməkdaşları saxlanılaraq "Bandotdel"ə aparılıb (AzNews.az)

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015

**Mağarın bir küncündə üz-üzə əyləşmişik. Haradan, necə başlayacağımı bilmirəm. Övladını, ciyərparası Nərgizini yenicə torpağa tapşıran ata ilə nədən danışasan, necə danışasan?!**
**Amma qələm əhli olduğundan, hətta Qarabağ savaşlarına qatılanda savaş gündəliklərini yazmağı bir gün də dayandırmayan, bizləri hamıdan yaxşı anlayan Tofiq bəyin dözümü dadıma çatır, məni vəziyyətdən qurtarır.**



# Tofiq Yaqublunun ürək parçalayan söhbəti - "... çətin olacaq"

## "Nərgizin həyatının ən xoş günündə də, ən faciəvi, dünyaya gözlərini yumduğu son anında da onun yanında ola bilmədim..."

**Öncə o məşum xəbəri necə almasından söz açır:**

- Bu hadisədən iki gün qabaq möhkəm xəstəydim. Məndə bronxial-astma var, həm də bərk soyuqlamışdım. Elə bil dünyanı tərk eləmək ərəfəsindəydim. Odur ki, məni tibb məntəqəsinə köçürtdülər. Bir gün başımı yataqdan qaldıra bilmədim. Ertəsi gün bir az düzəldim. Balaca bir otaqda televizor qoyulmuşdu. Adam orda "Xəbərçi"yə baxmadan dura bilmir, yeganə informasiya mənbəyidir. Gördüm bir nəfər ATV-də əyləncəli verilişə baxır. Xahiş elədim ki, olar xəbərlərə çevirim? Dedi, hə, olar, pultu qoydu, getdi. Elə ANS-ə çevirmişdim ki, bu xəbəri eşitdim... Təsəvvür edin ki, özüm o vəziyyətdə və belə bir xəbər...

*- O vaxta qədər Nərgizin komada olmasından xəbər tutmamışdınız?*

- Ondan bir neçə gün qabaq adi qaydada Maya xanımın *(həyat yoldaşı-E.P.)* iş yerinə zəng eləmişdim. Dedilər işə gəlməyib. Dedim, ola bilər, tez-tez xəstələnir, ola bilsin icazə alıb. Nigara zəng etdim ki, ana işdə yoxdur, nə məsələdir, dedi, bilmirəm, ananın telefonuna zəng çatmır. Mən də Maya xanımdan narahat oldum, ancaq zəng etmək limitim bitdi deyə, daha aydınlaşdıra bilmədim. Növbəti gün tezdən Nigara zəng etdim, dedi, Nərgiz sarılığa yoluxub deyə, anam Rusiyaya gedib. Bir anlıq fikirləşdim ki, sarılığa görə getməmək də olardı, yəqin qızı doğuş ərəfəsində olduğu üçün övladını tək qoymaq istəməyib. Sən demə, bunlar vəziyyəti bilirmiş, məndən gizlədiblər.

*- Xəbəri eşitdiyiniz gecəni necə keçirdiniz?*

- Bax, o gecə mənə dəhşət oldu. Bir yandan da astma kəskinləşmişdi. Nəfəslə bağlıdır deyə, öskürək dayanmırdı. Gözlərimdən yaş axırdı, amma Nərgizə için-için ağlamağıma da mane olurdu...

### "Özünü çox xoşbəxt sayırdı... Uçurdu..."

Hətta sonra məlum oldu ki, bizim siyasi məhbuslar da vəziyyəti bilirlərmiş. Mən gəlib Əli İnsanovdan da soruşdum ki, Əli müəllim, hamilə qadının sarılıq olması bir problem yarada bilərmi? Dedi, yox, narahat olma, sarılıq tibb üçün adi şeydir, yoluna qoyulacaq. Amma o ağır xəbəri eşidəndən sonra dustaqlar gördü ki, mən xəbərdaram, yaxınlaşıb təskinlik verməyə çalışdılar.

*- Heç o günlərdə yuxularınızı qarışdırdınızmı?*

- Mən fatalist adam deyiləm, yuxuya qəti inanmıram. Amma ölüm xəbərindən bir gün qabaq illərdir görmədiyim bir nəfər yadıma düşdü. Hətta öz-özümə təəccübləndim ki, bu hardan ağlıma gəldi. Çox qəribədir, evə gəldim, maşından düşüb həyətə yaxınlaşanda ilk gördüklərimdən biri o adam oldu...

*- Son dəfə Nərgizlə nə vaxt görüşmüşdünüz? Nələr danışmışdınız?*

- Son dəfə əyani şəkildə Şəkidə görüşmüşdük. Dəqiq tarix deyə bilmirəm. Nərgiz orda mənə böyük dəstək oldu. Amma Rusiyada olanda telefonla tez-tez danışırdım. Adətən uşaqlara "ana qurban" deyirlər. Amma mən həmişə uşaqlara "ata qurban" deyirəm. Onunla danışanda o qədər "can", "ata qurban" deyərdim ki... Özünü çox xoşbəxt sayırdı... Uçurdu... Deyirdi, ata, arzuladığım qədər xoşbəxtəm.

### "Toy dəfələrlə təxirə salındı"

*- Nərgizin toyunda da iştirak edə bilmədiniz...*

- Bəzən deyirlər Nərgizin ölümündə bu hakimiyyətin günahı var. Mənim bu məsələyə baxışım bir az fərqlidir. Onlar bir-birini sevirdilər, elçilik-zad olmuşdu, amma toy məsələsində tərəddüd edirdilər. Nərgiz istəyirdi ki, mən həbsdən çıxım və toyda iştirak edim. Dəfələrlə toy təxirə salındı, ertələndi, ertələndi, aylar keçdi. Məlum olur ki, o virus Nərgizdə əvvəldən olmayıb, bəlkə də hardasa qadın salonunda manikür edəndə keçib. Yeni hamiləliyin son aylarında buna yoluxub. Həkimlər deyir ki, bu virus hamilə qadınlarda dəhşətli sürətlə inkişaf edir. Düşünürəm ki, onun toyu azad, rahat vaxtda olsaydı, sözsüz ki, proseslər belə cərəyan eləməzdi. Hətta onun hamiləlik dövrü da başqa cür olacaqdı, ayrı poliklinikada qeydiyyata duracaqdı, həkimi də fərqlənəcəkdi. Yəni Nərgiz Yaqublunun atasını içəridə saxladılar... Mən Nərgizin həyatının ən xoş günündə də, ən faciəvi, dünyaya gözlərini yumduğu son anında da onun yanında ola bilmədim... İndi buna kim cavab versin? Təsəvvür edin ki, mən onun son günlərində yanında olaydım, tumarlayaydım, alnından öpəydim... Bunlardan da məhrum oldum...



*- Tofiq bəy, Nərgiz sizə bir oğul nəvəsi əmanət edib. Göz yaşı içində də olsa, babalıq duyğularınızla baş-başa qalmaq imkanı olubmu?*

- Dünən biri soruşdu, oğlandı, qız? Yadıma sala bilmədim. Bilirəm ki, gələcəkdə belə olmayacaq. Ağılla düşünəndə Nərgizin yadigarıdır... Sadəcə, indi mənimçün çox çətindir...

*- Sizin azadlığa buraxılmağınızla bağlı ölkə başçısına bir sıra müraciətlər var. Sizcə, reaksiya necə olacaq?*

- Müraciət edənlərə diqqət və qayğıya görə təşəkkür edirəm. Özümün müraciət etmək fikrim yoxdur. Bir şey deyim, neçə dəfə əfv fərmanı imzalanıb, onda da soruşublar ki, nə gözləyirsən? Mən həmişə demişəm, bu hakimiyyətin hərəkətlərini heç kəs proqnozlaşdıra bilməz. Çox vaxt gözləntilər doğrulmur. Bu gün deyim "gözləyirəm" və əfv olunmayım, sadəlövh kimi görünüm. Əksini də qəti şəkildə deyə bilmirəm... Nə olacaqsa, olacaq.

*- Amma ailə üzvlərinizin sizin dəstəyinizə daha böyük ehtiyacı var...*

- Təbii. Ancaq adamın bir günahı olar, kiminsə ayağını tapdayar, deyər, "bağışla". Məntiq yoxdur axı. Bu siyasi məhbusların işində İlqar Məmmədovla mənim cinayət işimiz elədir ki, bütün baş verənlər ictimaiyyətin, hökumətin kameralarının gözü qarşısında olub. Məsələn, deyilir ki, Tofiq Yaqublu 24 yanvar 2013-cü ildə saat 16-17 radələrində İsmayıllıda icra hakimiyyəti yaxınlığında iğtişaş törədib. Axı bu kameralar hər tərəfdən göstərir ki, gəlmişəm, maşından məni düşürüb apardılar, yenə maşına qoyub Bakıya yola salıblar. İsmayıllı Koliforniya deyil ki. Kim istəyir gedib soruşsun, axı Tofiq Yaqublu burda neyləyib? Biz getdiyimiz gün orda heç nə olmayıb axı. Həmin hadisələr bir gün əvvəl baş verib. Mən İsmayıllıya çatanda rayon mərkəzi üzük qaşı kimi polis əhatəsindəydi, orda heç quş səkə bilməzdi. İndi Fərəc *(Quliyev-E.P.)* durub deyir hamı qanun qarşısında bərabər olmalıdır. Necə olur ingilis, fransız gəlib məhkəmədə oturur, hər şeyi olduğu kimi görür, eşidir, sən burdan-bura məhkəməyə gəlmirsən, üstəlik, qanundan danışırsan.

***

**Tofiq bəy Penitensiar Xidmətin onu müşayiət edən nümayəndələrindən razılığını dilə gətirdi:** "Sağ olsunlar, çox mədənidirlər. Nə onlar bizə, nə biz onlara heç bir problem yaratmamışıq. Sadəcə, kənardan müşahidə edirlər".

**Düzü, biz də ətrafa göz gəzdirsək də, həmin şəxsləri görə bilmədik, çalışırlar ki, diqqətdən kənarda qalsınlar. Həmsöhbətim bir dəqiqləşmə də aparır:** "Mətbuatda getmişdi ki, guya onlar mənim aeroporta getməyimə imkan verməyib. Nərgizi gətirəndə mənim vəziyyətim çox pis idi, təcili yardım gəldi. Həm xəstəlik, həm Nərgizin şoku. Hazırlaşırdım ki, mütləq aeroporta gedim. Onlar özləri gəlib israrla təklif etdilər ki, heç bir problem yoxdur, səni göz qabağında olub. Özü də gənc, ana olmağa hazırlaşan bir xanımın qəfil ölümü sözsüz ki, qəlbləri ağrıtdı. İnanın ki, minlərlə başsağlığına gələn adamın içində bir dənə saxta söz eşitmədim, kim gəldisə, onu səmimi şəkildə hüznlü gördüm. İnsanlar bura sanki mənəviyyatın diktəsi altında gəlmişdilər. Mən bunu aydın gördüm. Amma xanımımla Nigarı ovundura bilmirəm. Elə hey ağlayırlar, dayanmaq bilmirlər. Düşünürəm ki, bu, bir probleme gətirib çıxara bilər.

### "Əlimdə bir dəstə nərgiz, balaca Nərgizi düşünə-düşünə..."

Mən nərgiz gülünün dəlicəsinə vurğunuyam. Nərgiz gülü bizimçün müqəddəs güldür. Elə ona görə qızıma Nərgiz adını qoymuşdum. Müharibə gündəliklərimdə belə bir epizod var: "Kəşfiyyatdan gəlirdim. Kəpəz dağının başına çıxmışdım. Nərgiz gülləri gördüm. Demə, subalp çəmənlikləri olduğu üçün burada nərgizlər bizim yerlərdən bir ay sonra yetişir. Əlimdə bir dəstə nərgiz, balaca Nərgizi düşünə-düşünə dağdan enməyə başladım..." Yeri gəlmişkən, mən Zeynəb Xanlarovanın fanatıyam. Onun "Nərgizim" mahnısı var, gecəboyu o mahnıya qulaq asıb ağlamışıq. Uşaqlar Nərgiz haqda klip də hazırlayıb, o mahnının müşayiəti ilə. Nərgiz haqqında də, başqa getmək istəyənləri də iki maşın var, aparacağıq. Ancaq mən özümə gələ bilmədim deyə, alınmadı".

*- Tofiq bəy, Nərgizin faciəsi çoxlarını ağlatdı, insan selinə şahid olduq. Nərgiz bu sevgini necə qazanmışdı, ata olaraq bunu düşündünüzmü?*

- Burda Tofiq Yaqublunun qızı olmasından daha çox onun Nərgiz Yaqublu olması öz sözünü dedi. Həyat eşqi ilə dolu, gənc, mübariz, gözəl, çarpışan, vuruşan, az qala simvola çevrilmiş bir xanım dünyasını dəyişibsə, sözsüz ki, insanların buna biganə qalması mümkün deyildi. Nərgizin də fəaliyyəti xüsusi bir arzum yox idi. İnanın ki, Nərgizlə bərabər Azərbaycanda demokratik cəmiyyətin qurulmasını istəyirdik. Mənim Nərgizə əsas arzum bu idi ki, normal cəmiyyətdə hamı kimi biz də xoşbəxt yaşayaq. Nərgizin getdiyi ailənin heç bir qayğısı yox idi. Kim olsa, bəlkə də düşünərdi ki, daha məndən bu qədər, həyatımı yaşayım. Amma Nərgiz yenə Azərbaycanın qayğıları ilə yaşayırdı...

### "Əli İnsanov azadlığa məndən tez çıxacaq"

**Tofiq Yaqublu mayın 1-də, saat 15.00-da qayıdacağı 13 saylı cəzaçəkmə müəssisəsində vəziyyətinin normal olduğunu söylədi:** "Amma "Yeni Müsavat" və "Azadlıq" qəzetini demək olar ki, vermirlər. Həftədə bir dəfə gəlir, yaxud hansısa hissəsini kəsirlər. Beynəlxalq Qırmızı Xaç Komitəsinə də deyilib. Bizim qəzet üçün xüsusi bir otaq ayırıblar, özü də qol çəkməlisən ki, neçədən-neçəyə qədər oxudun. Baxıram mənim köşəm olan yeri kəsiblər. Xalid Kazımlı mənə ilk kitabını göndərmişdi, onu da aldılar, vermədilər".

*- Əli İnsanovla tez-tez görüşürsünüz? Hətta sizi də müalicə edir...*

- Hə. 13 saylı müəssisədə sərbəst toplaşma azadlığı "tam təmin olunub". Yəni 6 nəfər müxalifətçi bir yerdədir. Orda 950 məhbus var, ancaq balaca yerdir. Hətta xoşlamadığın adamla gündə on dəfə üz-üzə gəlirsən. Tibb məntəqəsindən şikayətim yoxdur. Amma Əli İnsanov akademikdir, təkcə öz sahəsini, ağciyər məsələlərini yox, kardiologiya, digər sahələri də yaxşı bilir. Bir mənə yox, hər kəsə diqqət göstərir. Kimin hətta qulağının dibi qaşınır, o saat gəlir ki, Əli müəllim, yaman qaşınır, bu, nədən olar? Mənə resepti o yazıb. Hətta adamlar telefonla xəstəliyini yazır, sualları yazıb göndərir, Əli müəllim onlara müalicə yazır. Elə məni bronxial-astmadan ilk dəfə 1993-cü ilin yayında Əli İnsanov müalicə eləmişdi. İndi xəstəlik yenə şiddətlənib və yenə Əli müəllim müalicə edir.

*- Özünün durumu necədir? Azadlıq ümidi varmı?*

- Punktual qrafiki olan adamdır. İdman, nahar, mütaliə, xəbərə qulaq asma, gəzmək, vəkil vaxtı hamısı alman dəqiqliyi ilədir. Amma azadlığa çıxmaq ümidi, məncə, sıfırdır. Praqmatik adamdır. Əlbəttə, o da istəyər çıxsın. Hər halda, o, günəgün hesabla azadlığa məndən tez çıxacaq. 1 il 7 ayı qalıb...

**Tofiq bəy qayıdacağı müəssisədə yayı çətin keçirəcəyini etiraf etdi, həm Nərgiz itkisinə görə, həm də qızmar yayın gəlişi ilə bağlı:** "40 dərəcə şaxta olsun, mənimçün fərqi yoxdur. Yayda isə orda daldalanmağa bir yer yoxdur, bilirəm ki, məni dəhşətli günlər gözləyir. Baraklarda kondinsioner yox... Şəxsən mənə çox çətin olacaq. Üstəlik də Nərgizin itkisi... Getdikcə bu itkinin nə dərəcədə ağır olduğunu daha çox dərk eləyəcəyəm... Bəzən özümü çimdikləyirəm ki, görüm bu yuxudu, ya yox? Bəzən deyirəm necə yəni Nərgiz həyatda yoxdur...

*Söhbətin sonunda oğlu Rəhim gəlib atasının yanında əyləşir. Atasından sonra evin yeganə başıpapaqlısı...*

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015

# Əli Həsənov ermənilərin ifşa edən məqalə yazdı

## "Belə getsə, Avropa Parlamenti ilə də bütün əlaqələrə yenidən baxmalı olacağıq"

**Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov "Ermənistanın Azərbaycana təcavüzü, saxta "erməni soyqırımı" və Qərbin ikili standartlar siyasəti" adlı məqalə yazıb. "AzərTAc"da dərc edilən məqalədə XX əsrin 80-ci illərinin ikinci yarısında Sovet İttifaqında yenidənqurma adı altında baş verən bir sıra dəyişikliklərdən sonra baş verənlər qeyd edilir.**

"Belə bir şəraitdə ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Türkiyəyə və Azərbaycana qarşı genişmiqyaslı kampaniyaya başladılar" - deyə məqalədə qeyd olunur.

Ə.Həsənovun məqaləsində ermənilərin işğala necə hazırlaşdıqları, bunu həyata keçirmək üçün hansı yollara əl atdıqları ardıcıl olaraq sadalanır, keçmiş SSRİ-nin və Qərbin, Avropanın davranışları çılpaqlığı ilə əks olunur və tənqid edilir.

"Qərb ölkələrində Azərbaycan əleyhinə olan mərkəzlərdən biri də məhz Fransadakı erməni icmasıdır" - deyə məqalədə vurğulanır.

**Yazıda son illərdə Ermənistanın və Qərbdəki bəzi qurumların saxta "erməni soyqırımı" haqqında uydurmalarına da toxunulur:** "Bu iddia subyektiv mülahizələrə söykənməklə yanaşı, islamofob, anti-azərbaycan və anti-türk meyillərin son dövrlərdə güclənməsinin təzahürüdür. 2015-cü il mart ayının 12-də Avropa Parlamenti "Dünyada insan haqları və demokratiya" adlı sənəddə Avropa İttifaqına daxil olan 28 ölkəyə qondarma "erməni soyqırımı"nın tanınması ilə əlaqədar müraciət etmişdir. Bu günlərdə isə Avropa Parlamenti bunun davamı olaraq növbəti addımı atmaqla anti-azərbaycan və anti-türk mövqeyini bir daha ortaya qoydu. Həmin sənədin mahiyyəti ondan ibarətdir ki, Avropa İttifaqına daxil olan ölkələr 24 apreli tarixini "erməni soyqırımı günü" kimi qeyd etsinlər... Bu qətnamə Avropa Parlamentinin birinci belə subyektiv, anti-İslam, antitürk və anti-Azərbaycan mahiyyəti kəsb edən qərarı deyil və çox güman ki, gələcəkdə də biz bu cür "qərarların" şahidi olacağıq. Həm Azərbaycan, həm də Türkiyə anti-Qərb mövqeyində deyil, Qərblə bütün sahələrdə ədalətli, bərabərhüquqlu əməkdaşlığa və tərəfdaşlığa hazırdırlar. Amma təəssüf ki, son zamanlar həm ABŞ-da, həm də Avropada müsəlman və türk xalqlarına qarşı bir ovqat hökm sürməkdədir. Bu siyasətin Qərbə nə verəcəyini tarix özü göstərəcək. Amma Azərbaycan dövləti imkan verə bilməz ki, onların bu kimi ədalətsiz qərarları dünya ictimaiyyətinə təlqin olunsun və real həqiqət kimi zorla insanların şüuruna yeridilsin. Bu qərardan sonda Azərbaycan Avropa Parlamenti ilə münasibətlərinə yenidən baxmalı olacaq və artıq Azərbaycan Avropa Parlamentinin "Avronest" qrupunda fəaliyyətini dayandırmışdır. Belə getsə, Avropa Parlamenti ilə də bütün əlaqələrə yenidən baxmalı olacağıq..."


Əli Həsənov

**Yazıda həmçinin vurğulanır ki, müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir:** "Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avroatlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı cənab İlham Əliyev qeyd etdiyi kimi, "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz". Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar da məhz ölkəmizin uğuru olmaqla yanaşı, Azərbaycanın dünyada artan nüfuzunun, geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir. Bu baxımdan Azərbaycanın müasir geosiyasi şəraitdə inkişaf etmiş dövlət kimi özünü təqdim etməsini heç şübhəsiz ki, bəzi qüvvələr qəbul edə bilmirlər. Azərbaycan bu kimi tədbirlərdə özünü, mədəniyyətini, xalqının adət-ənənələrini, keçdiyi yolu, tarixini, bir sözlə sivil dünyanın dövlətin dəyərləndirməsində istifadə elədiyi digər dəyərlərini dünyaya təqdim edir. Bununla yanaşı, Azərbaycan bu gün İsveçrə, Norveç, Fransa, İngiltərə kimi inkişaf etmiş Avropa dövlətləri ilə bir sırada durur və yüksək səviyyəli tədbirləri həyata keçirir. Azərbaycan bu cür dünya səviyyəli tədbirlərin ən yüksək standartını ortaya qoyursa, o zaman anti-müsəlman siyasəti, ovqatı, hansı ki, bu gün Avropada, Qərbdə hökm sürür bütün bunlar heç də bəzi qüvvələri razı salmır. Məhz erməni lobbisi də bunun arxasında dayanır və istəmir ki, bu gün Azərbaycan sivil dünyaya olduğu kimi təqdim olunsun. Çünki onlar illərlə Azərbaycan haqqında özlərinin düşündüyü mənfi rəyi formalaşdırmağa çalışmışlar və bu gün də bu anti-Azərbaycan siyasəti davam edir. Erməni lobbisinin təsiri altında olan bəzi Avropa və Qərbin hüquq müdafiə, mətbuatla, insan hüquqları vətəndaş cəmiyyətləri ilə bağlı təşkilatlar da erməni lobbisinin təsiri altında anti-Azərbaycan fəaliyyətinə qoşulurlar. Bunların sırasında bəzi hökümətlərarası təşkilatlar və qurumlar "fəallıq" göstərirlər. Bu səbəbdən, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, bizim iradəmizə heç vaxt təsir edə bilməz. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür o da haqlıdır. Ona gə də güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət".

# "Mərkəzi Bank üçün yeni devalvasiya asan qərar deyil"

## Vüqar Bayramov: "Devalvasiya yalnız vətəndaşlara mənfi təsir göstərməyəcək"

**İqtisadi və Sosial İnkişaf Mərkəzinin ötən həftə valyuta bazarında apardığı monitorinqlərin nəticələrinə görə, vətəndaşların dollara tələbatı azalsa da, biznesin xarici valyuta tələbi kəskin dəyişməyib. Bildirilir ki, vətəndaşlar daha çox dollar satsalar da, biznes subyektləri hələlik xarici valyutalar üzrə ciddi təklif formalaşdırmırlar. Ekspert Vüqar Bayramovun sözlərinə görə, bununla yanaşı, bütövlükdə, dollar təklifinin artdığı müşahidə edilir: "Bu isə o deməkdir ki, aprelin əvvəllərində dollar intervensiyasını artıran Mərkəz Bankı ayın digər günlərində valyuta müdaxiləsini azalda bilib. Dollara tələbin azalması vətəndaşların əvvəlki aylarda dəyişdirdikləri xarici valyutaları cari xərclər üçün yenidən milli valyutaya çevirməsi ilə bağlıdır. Doğrudur, riskləri sığortalamaq üçün vətəndaşlar yenə də yalnız cari xərclər üçün az məbləğdə valyuta dəyişməyə imkan verirlər. Eyni zamanda milli valyutanın rəsmi məzənnəsində son 2 həftədə müşahidə edilən müqayisəli artım dollara psixoloji tələbi azaldıb".**


Vüqar Bayramov

Ekspert qeyd edib ki, Azərbaycan neftinin dünya bazar qiymətinin son zamanlar stabilləşməsi də Mərkəzi Banka müəyyən nəfəs verə bilib: "Digər tərəfdən, əsas ticarət tərəfdaşlarımızda milli valyutaların stabilləşməsi də manata təzyiqi azaldıb. Eləcə də, kommersiya banklarının kreditləri, demək olar, yalnız dollar ilə təklif etməsi də bu xidmətdən yararlanan vətəndaşların xarici valyuta təklifini artırıb.

Milli valyutanın rəsmi məzənnəsi həftəyə möhkəmlənmə ilə başladı. Təbii ki, əsas sual manatın məzənnəsinin növbəti dövrdə necə dəyişməsi ilə bağlıdır. Sözsüz, manatın məzənnəsi inzibati yolla tənzimləndiyi üçün, prosesdə bazarın rolu olmadığı üçün proqnoz vermək çox çətindir. Amma milli valyutanın məzənnəsi neftin dünya bazar qiymətindən asılı olmaqla yanaşı, yeni devalvasiya yalnız vətəndaşlara deyil, eyni zamanda kommersiya banklarına və biznesə mənfi təsir göstərə bilər. Bu, xarici valyuta ilə öhdəliyi olan bankların ödənişləri yerinə yetirməkdə ciddi çətinliklə üzləşməsinə, vətəndaşların isə dollar ilə götürülən kreditlərin qaytarılmasında ciddi problemlərə səbəb ola bilər. Buna görə də Mərkəzi Bank üçün yeni devalvasiya heç də asan qərar deyil. Digər tərəfdən, əgər neftin dünya bazar qiyməti hər barel üçün 70 dollarlıq psixoloji həddi keçib stabilləşərsə, o zaman tədiyyə balansındakı profsit pul dövriyyəsində dollar kütləsini artıracaq. Bu da manat təklifini azaldacaq. Başqa tərəfdən, Mərkəzi Bank və eləcə də hökumət dolayı vasitələrlə dollara olan tələbi azaltmağa çalışmalıdır. Qiymətli kağızlar bazarının ölkəmizdə zəif inkişaf etməsi əhalinin qeyri-valyuta yığım imkanlarını xeyli məhdudlaşdırır ki, bu da bütövlükdə dollara tələbin yüksəlməsini şərtləndirir".

Qeyd edək ki, ekspertlər manatın 21 fevral devalvasiyasından narahatdırlar. Bir müddət əvvəl yeni devalvasiya ehtimalları artsa da, bir neçə gündür məsələ səngiyib. Ekspertlər bildirirlər ki, Mərkəzi Bank hələ də manatı saxlamaq üçün xərc çəkir. Bildirilir ki, son 6 ayda devalvasiyaya 5,7 milyard manatdan çox vəsait xərclənib. Həmçinin qeyd edilir ki, milli valyutaya və bank sektoruna inamın yenidən bərpa olunması çox vaxt aparacaq.

❑ RÖYA

# Tofiq Yaqublunun əfvi üçün prezidentə müraciət edənlər ümidlidir...

## Novella Cəfəroğlu: "Prezident İlham Əliyevlə görüşmək istəyirik, buna çalışırıq"

**Müsavat Partiyası başqanının həbsdəki müavini Tofiq Yaqublunun azadlığa buraxılması üçün dövlət başçısına ard-arda bir neçə müraciət edilib. Müraciət edənlər ümid edirlər ki, dövlət başçısı İlham Əliyev müraciətləri cavabsız qoymayacaq.**


Novella Cəfəroğlu

İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü, hüquq müdafiəçisi **Novella Cəfəroğlu** məsələ ilə bağlı musavat.com-a bildirib ki, T.Yaqublunun tezliklə əfvə düşəcəyinə inanır: "Ümidimiz var ki, Tofiq Yaqubluya işıq yolu açılacaq. Ümidimiz böyükdür. Baxaq görək mayın 10-da, ya 28-də əfv olacaq. Onu da əfvə salacaqlarına inanırıq. Biz prezident İlham Əliyevlə görüşmək istəyirik, buna çalışırıq. Görüş baş tutsa, biz Tofiq Yaqublunun məsələsini ayrıca çatdıracağıq".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı da qeyd edib ki, T.Yaqublunun azadlığa buraxılacağına ümid edir:** "Müraciətimizə cavab gözləyirik. Cavab olacağına da əminik. Ümid edirik ki, prezident bu qədər müraciətə biganə qalmayacaq. Tofiq Yaqublunun böyük faciədən sonra həbsdə qalması arzuolunmazdır".

**Bütöv Azərbaycan Ocaqları (BAO) Mərkəzi Şurasının üzvü Zəka Sahib də etdikləri müraciətin nəzərə alınacağına əminliyini vurğulayıb:** "Əfv ifadəsi yerinə düşmür. Biz Tofiq bəyi günahkar saymırıq. Azadlıqda yaşamaq ən çox onun haqqıdır. Ümid edirik ki, hakimiyyətin bu yöndə atacağı addım ədalətli olacaq. Çünki Tofiq Yaqubluya ailəsinin indiki zamanda daha çox ehtiyaci var. Cavab versələr də, verməsələr də, biz vicdan borcumuzu yerinə yetiririk və ədalətin yanındayıq. Tofiq bəy bu ölkəni azad edənlərdəndir. O, həm siyasi meydanda, həm də səngərdə ölkəmizin azadlığı üçün mübarizə aparıb. Azadlıqda gəzmək ən çox Tofiq bəyin haqqıdır".

Qeyd edək ki, siyasi məhbus Tofiq Yaqublunun azadlığa buraxılması üçün son bir neçə gündə İ.Əliyevə ona yaxın müraciət edilib. İnsan Hüquqları üzrə Birgə İşçi Qrupu onun əfv olunması üçün dövlət başçısına müraciət edib. "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da T.Yaqublunun əfv olunması üçün iki dəfə ölkə prezidentinə müraciət edib. Eyni zamanda Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BXCP) da eyni məzmunda İlham Əliyevə müraciət ünvanlayıb. Bütöv Azərbaycan Ocaqları (BAO) da müraciət edənlər sırasındadır.

Xatırladaq ki, Tofiq Yaqublu 2013-cü il yanvarın 23-də İsmayıllı şəhərində baş vermiş hadisələrlə bağlı 5 il müddətinə azadlıqdan məhrum edilib. O, 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkir.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015

# Ermənilərin "4T" planı suya düşdü - 100 illik məğlubiyyətin göz yaşları...

## Pənah Hüseyn: "Həm Ermənistan, həm də dünya ermənilərı məqsədlərinə nail ola bilmədilər"

**24 aprel, saxta "soyqırım" tədbirləri arxada qaldı. Ermənilərin uzun zamandan bəri hazırlıq gördükləri saxta "soyqırım" iddialarının 100 illiyi adı altında dünyadan dəstək almaq ümidləri demək olar ki, puç oldu. İrəvana yalnız bir neçə ölkənin lideri qatıldı. Üstəlik, "soyqırım" mövzusunda Ermənistanın əsas havadarı rolunu oynayan qüvvələr də gözlənildiyi qədər fəallıq nümayiş etdirmədilər. ABŞ prezidenti "soyqırım" ifadəsi işlətmədi, Fransa prezidenti isə İrəvandakı tədbirdən dərhal sonra Bakıya gəldi.**



**AXP sədri Pənah Hüseynin** fikrincə, 24 apreldə ermənilər bütövlükdə qarşılarına qoyduqları hədəflərinə nail ola bilmədilər. Saxta "soyqırım" iddialarının 100 illiyi tədbirlərinə ermənilərin hələ uzun illər əvvəldən hazırlaşdıqlarını xatırladan həmsöhbətimiz deyir ki, ermənilərin planlaşdırdığı böyük aksiya baş tutmadı: "Həm Ermənistan, həm də dünya erməniləri məqsədlərinə nail ola bilmədilər. Türkiyə mətbuatında ermənilərin "4 T", yəni tanıma, tanıtma, təzminat və torpaq hədəflərinin olduğu haqda yazılırdı. Tanıtma, yəni "soyqırımın" Türkiyə tərəfindən tanınması istiqamətində hər hansı bir uğur qazana bilmədilər. Əksinə, son illərdə Türkiyənin mövqeyindəki yumşalma sərtləşmə ilə əvəz olundu. Torpaq məsələsi, ümumiyyətlə, gündəmə gətirilmədi. Təzminatın olması üçün isə BMT-nin ayrıca qətnaməsinin qəbul edilməsi hədəfi qoyulmuşdu. Ümumiyyətlə, bunun müzakirəsi belə baş vermədi. Hətta İrəvanda 24 aprel tədbirində BMT-dən xüsusi heyət olmadı. Yalnız 24 aprel ərəfəsində Vatikanın, Avropa Parlamentinin və digər ölkə və təşkilatların tanıması, yaxud da təkrar tanıması bəyanatları oldu. Ancaq nəzərə almaq lazımdır ki, bu bir "yüzillik" tədbiri idi, bundan sonra kampaniyada müəyyən bir eniş olacaq. Doğrusu, növbəti kampaniya dalğasını ən azı qarşıdakı 10 ildə gözləmək çətindir. Bu baxımdan mən hesab edirəm ki, strateji olaraq öz mövcudluğunu "erməni soyqırımı" siyasəti üzərində quran dairələr iflasa uğradılar. Əlbəttə ki, bu da Türkiyənin və bu məsələdə ona dəstək olan, xüsusən də Azərbaycanın yardımı nəticəsində mümkün oldu. Ümumiyyətlə, "bir millət-iki dövlət" şüarı müəyyən diskussiya mövzusu olsa da, bəzi məsələlərdə biz bir millət, iki dövlət deyil, bir millət bir dövlət olaraq hərəkət etməliyik. Düşünürəm ki, bu prosesdə strateji əməkdaşlıq öz bəhrəsini verdi. O cümlədən Fransa prezidentinin elə həmin gün Bakıya gəlməsi, Rusiya prezidentinin genosid barədə mülahizələrlə yanaşı, bunu kompensasiya edən fikirlər səsləndirməsi və bugünlərdə Türkiyə-Rusiya iqtisadi əməkdaşlıq toplantısının keçirilməsi yuxarıda qeyd etdiyimiz prosesin əhəmiyyətini göstərir".

> **"Bu gün İstanbul dünya siyasətində Qüds kimi rolu olan bir şəhərdir. Söhbət dərin siyasətdən gedir; neçə əsrdir ki, İstanbulun yenidən xristian mərkəzinə çevrilməsi üçün iş aparan qüvvələr var"**

**Lakin P.Hüseyn deyir ki, 24 aprel arxada qalsa da, bu vəziyyət arxayınçılıq yaratmamalıdır. Çünki "erməni məsələsi" yalnız ermənilərin deyil, dünyanın bir çox güclərinin Türkiyəyə qarşı planlarının alətidir:** "Bu məsələdə Türkiyə və Azərbaycanın fəaliyyətində müəyyən çatışmazlıqlar da oldu. "Erməni soyqırımı" məsələsi yalnız bir tarix məsələsi deyil. O mənada ki, bu kartdan Türkiyəyə qarşı ideoloji silah kimi istifadə olunur. Bu hadisə bir dövlətə qarşı kütləvi qırğın silahı olaraq ortaya qoyulub, siyasi təzyiqdən ciddi məsələdir. Bu səbəbdən də bu istiqamətdə fəaliyyətə daim ehtiyac var. Lakin panikaya düşməyə də gərək yoxdur.

Burda daha bir mühüm nüans erməni məsələsinin, göründüyü kimi, yəni yalnız dövlətlərarası bir məsələ olmamasıdır. Mən konspirologiyaya xüsusi əhəmiyyət verən adamlardan deyiləm, ancaq anlamaq lazımdır ki, bu gün İstanbul dünya siyasətində Qüds kimi rolu olan bir şəhərdir. Söhbət dərin siyasətdən gedir. Neçə əsrdir ki, İstanbulun yenidən xristian mərkəzinə çevrilməsi üçün iş aparan qüvvələr var. Nə qədər cəfəng görünsə də, bu cür qüvvələr bəzən dünya siyasətində ciddi fəsadlara səbəb olurlar. O cümlədən Türkiyənin ərazilərinə iddia edən qüvvələr var və bunlar yalnız ermənilər deyil. Türkiyənin cənub-şərqində başqa bir xəritələrdə Türkiyəyə qarşı ərazi iddiaları var. Hətta bəzi xristianlar üçün İstanbula sahiblənmək "müqəddəs dini hədəflər" kimi qoyulub. Bütün bunları nəzərə alanda, əlbəttə ki, daim işləmək lazımdır. Ancaq hesab edirəm ki, bu mərhələdə Türkiyə uduzmadı.

"Erməni soyqırımı" göstərdi ki, bu, keçmiş məsələsindən çox gələcək üçün qurulan strategiyadır. Bu məsələyə məhz indinin və keçmişin deyil, gələcəyin məsələsi kimi yanaşmaq lazımdır. Və bunu da unutmaq lazım deyil ki, bu zəmin hazırlayanlar yalnız ermənilərlə məhdudlaşmır. Daha geniş bir çevrə var və bu prosesdə ermənilərin vasitə olaraq istifadə edildiyini görürük".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# İqtidar-müxalifət görüşü niyə yubadılır?

## Mirmahmud Mirəlioğlu ləngimənin səbəbindən danışdı

**Son iqtidar-müxalifət görüşünün keçirilməsindən iki aydan çox vaxt ötür. Üçüncü görüşün aprel ayında olacağı deyilsə də, göründüyü kimi, mümkün olmadı. Sonuncu görüşdə iki aydan bir tədbirin təşkil olunması barədə qərar qəbul edilmişdi.**

Müxalifət tərəfdən görüşün təşkil edilməsində əlaqələndirici funksiyanı yerinə yetirən **KXCP sədri Mirmahmud Mirəlioğlu** tədbirin yubadılmasından danışdı: "Görüşün nə üçün keçirilməməsi ilə bağlı bir söz söyləmək çətindir. Bu, Prezident Administrasiyasının işidir. Ora ilə maraqlansanız, daha yaxşı olar. Biz görüşə hazırıq. Ola bilsin ki, sabah məlumat versinlər, bir-iki günə görüş olacaq. Əli Həsənovun özü iki aydan bir görüşün təşkil olunmasının məqsədəuyğun olması barədə məlumat vermişdi. Amma nədənsə yubadılır. Görüşün nə zaman olacağı barədə bizdə də hər hansı məlumat yoxdur. Çünki əlaqə saxlamayıblar. Ola bilər ki, Avropa Oyunları ərəfəsində hansısa bir planları olsun. Təkliflərimiz hazırdır. Mövzular üzərində işləyirik. Bu barədə indidən mətbuata məlumat vermək düzgün olmaz. Amma söz verirəm ki, görüş günü müəyyən olunan kimi, mətbuata təkliflərimiz haqda açıqlama verəcəyik. Birinci görüşdə iki partiyanın iştirakı ilə bağlı bəzi müzakirələr var idi. İkinci görüşdə bunu həll etdik. Siyasi məhbusların müzakirəsi bizim üçün daim aktual olub. Əfvlə bağlı dəqiq bir məlumat yoxdur. Gah mayın 10-da, gah da 28-də əfv olacağı deyilir. İndi görüş baş tutarsa, bu məsələlərin müzakirə olunması istisna edilmir".



Mirmahmud Mirəlioğlu

**KXCP sədri iqtidarla görüşə gedən partiya sədrlərini tənqid edənlər barədə də danışdı:** "İnsan doğru bildiyi işdə sona qədər getməlidir. İndiki şəraitdə hesab edirik ki, bu doğru addımdır. Keçirdiyimiz iki görüşün müsbət nəticələri olub. Hər iki görüşdən sonra əfv sərəncamı verilib. Az sayda olsa da, siyasi məhbuslarımızın bir qismi azad oldu. Kiminsə fikirlərinin önəmi yoxdur. Kimin doğru addım atdığını zaman göstərəcək. Əslində üçüncü iqtidar-müxalifət görüşünün baş tutmamasına səbəb də bu qüvvələrdir. Yarışlardan öncə görüşün baş tutması daha yaxşı olar. Amma yenə deyirəm ki, hər şey onlardan asılıdır. Hazırda ölkədə seçki mühiti yoxdur. Hər şey Avropa Oyunlarına yönəlib. Bu bir reallıqdır. Düşünürəm ki, seçki mühiti yarışlardan sonra start götürəcək".

**Qeyd edək ki, ilk iqtidar-müxalifət görüşü ötən il dekabrın 12-də, ikinci görüş isə fevralın 12-də baş tutub.**

❑ **Cavanşir ABBASLI**

# Ermənistan Rusiyaya lazımdırmı?



**Hüseynbala SƏLİMOV**

**Aprelin 24-nə qədər Rusiya prezidenti V.Putinin hara yollanacağı ilə bağlı müəyyən ehtimallar və gümanlar olsa da, hətta onun Çanaqqala tədbirlərində iştirak etmək üçün Türkiyəyə yollanacağı deyilsə də son anda Putin öz fransalı həmkarı F.Olland kimi Ermənistanı seçdi...**

Təbii ki, bu iki ölkənin başçılarının belə hərəkət etməsi Bakıda və Ankarada haqlı narazılıq yaratdı. Ona görə ki, onların hər ikisi hamıya bəlli olduğu kimi, Minsk Qrupunun həmsədrləridir. Yalnız ABŞ rəsmiləri özlərinin hisslərini cilovlaya bildilər - bu ölkənin prezidenti ənənəvi müraciətində "soyqırım" sözü olmadan keçindi, hansısa yüksək çinli ABŞ rəsmisi İrəvana yollanmadı...

Amma siyasətin əqrəbləri birdən-birə tamam tərsinə dönə də bilməzdi. Elə bu səbəbdən də V.Putinin Yerevana səfəri iki yüz illik imperiya siyasətinin məntiqi nəticəsi, həm də davamı idi. Başqa cür ola da bilməzdi...

Amma bir nüans var. Rusiyada Ermənistanı əvvəlkindən fərqli, başqa istiqamətdə başa düşmək meylləri də hiss olunur. Ölkə sanki Ermənistan adlı dövlətin bundan sonra ona lazım olub-olmayacağını çək-çevir etmək ərəfəsindədir...

Təbii ki, öz mülahizələrimizlə tələsik nəticələrə rəvac vermək istəməzdik. Amma siyasətdə əbədi dostlar və düşmənlər olmur. Rusiya siyasətçilərindən biri bir dəfə Yerevanda bəyan etdi ki, Ermənistan bizim Cənubi Qafqazda forpostumuzdur...

Amma gəlin düşünək. Tutaq ki, Ermənistan forpostdur. Amma kimə qarşı? Bu regionda indi Rusiyanın potensial və real rəqibi qalıbmı?

Əvvəllər Rusiya burada İranı və Türkiyəni rəqib kimi görürdü. Amma indi bu iki dövlətin hər ikisi yalnız bircə şeyin arzusundadır: Rusiya ilə normal əməkdaşlıq etmək... Ola bilsin, Türkiyənin NATO üzvü olması, onun ABŞ-a yaxınlığı Rusiyanı bir qədər çəkindirir. Amma Türkiyə dəfələrlə nümayiş etdirib ki, heç də Qərbin hərbi orkestrində passiv ifaçı olmaq niyyətində deyil, ölkə öz siyasətini özü götür-qoy edir və özü də qərar qəbul edir...

Bəlkə də Rusiya İrandakı dini rejimdən, onun öz müsəlman əhalisinə təsir edə bilməsindən ehtiyat edir. Amma İran Rusiyaya qarşı tamam neytraldır...

Düzdür, heç kim deyə bilməz ki, Rusiyanın türk və müsəlman xalqları heç bir halda Türkiyəyə və ya İrana tərəf boylanmayacaqlar. Bunu birmənalı şəkildə iddia etmək çətindir. Amma indiki reallıq budur ki, nə İran, nə də Türkiyə hər hansı formada Rusiyada etnik və dini separatizmə dəstək vermir...

Təbii ki, generalları inandırmaq elə də asan deyil. Bədbəxtlikdən də Rusiyanın milli təhlükəsizlik konsepsiyasını və hərbi doktrinasını onlar cızırlar...

Sözsüz ki, onlar bölgədə dini radikalizm tendensiyalarını da nəzərə alırlar, milli və etnik separatizm proseslərini də... Hələ mən narkotiklərin və qaçaqmalçılığın, silah alverinin müxtəlif təzahürlərini demirəm. Fəqət, bütün bunların qarşısında sədd çəkmək istəsən, gərək, dünyanın hər bir yerində özünün və müttəfiqlərinin hərbi bazalarını yerləşdirəsən... Bu günün Rusiyası buna qadirdirmi? Onun buna gücü çatarmı?...

Keçək əsas məsələyə - Azərbaycana və Ermənistana... Bəlkə də Ermənistan öz davranışı ilə Rusiyaya Azərbaycanı müəyyən çevrədə saxlamağa, onu müəyyən qədər idarə olunan hala salmağa kömək edir. Bəli, bu vaxta qədər bu, elə belə də olub - Rusiyanın Azərbaycanı "sahmanlayan" əli Ermənistandan keçib...

Amma dünya dəyişir. Heç nə öz yerində qalmır. Ona görə də düşünürsən ki, o nədir ki, onu Rusiyaya rəsmi Bakının özü yox, Ermənistan təklif edir? Dərin və ətraflı düşünəndə görürsən ki, Rusiyanı daha çox narahat edən NATO-nun və AB-nin bölgəyə potensial gəlişidir. Amma rəsmi Bakı onları bura gətirmək istəyirmi? Əsla. Ən azı indiki hakimiyyətin belə planları yoxdur...

O ki qaldı digər məsələlərə, onlar artıq əvvəlki kimi ehtiyatlandırmır - Rusiya Azərbaycanın müstəqilliyi ilə hesablaşır və onun da mövqelərini nəzərə almağa cəhd edir. Demirik ki, bu, tamam ideal şəkildə cərəyan edir. Yox, hər yerdə olduğu kimi, burada da problemlər var, özü də az deyil, amma onlar həll edilə bilinəndir...

Sadəcə, Rusiyanın siyasətində həmişə bir şey çatmayıb. O şey ki, o, müasir və inkişaf edən Qərbin siyasətinin əsasını təşkil edir. Onun adı praqmatizmdir və Cənubi Qafqazdakı Rusiya siyasətində çatışmayan əsas cəhət məhz odur...

Ona görə də məhz praqmatizm baxımından bir suala cavab verməyin deyəsən əsl vaxtıdır: Ermənistan Rusiyaya lazımdırmı?..

# Baş nazirin sabiq müavininin Daşkəsən macəralarının yeni şok detalları

**"Yeni Müsavat"ın 25 aprel, 2015-ci il tarixli sayında "Abbas Abbasovun Daşkəsəndə sürüləri tapıldı" başlıqlı manşet yazısı dərc olunmuşdu. Yazıda bildirilirdi ki, baş nazirin sabiq 1-ci müavininin minlərlə baş qoyun sürüsü var və həmin sürülər Daşkəsən rayonu ərazisindəki yaylaqlarda saxlanır. Özəl mənbələrdən redaksiyamıza daxil olmuş bu xəbəri dəqiqləşdirmək üçün Daşkəsən RİHBA-da Sosial-İqtisadi İnkişafın Təhlili və Proqnozlaşdırılması şöbəsinə sorğu ilə müraciət etmişdik.**




# Abbas Abbasovun fermer təsərrüfatının rəhbəri haqda sensasion bilgilər

## Daşkəsəndən sorğumuza rəsmi cavab gəldi; "Akif Rzayev hər yerdə deyir ki, sürülər Abbas müəllimindi, ona görə də kimsədən qorxum yoxdu"; azyaşlı qıza təcavüzdə və mal-qara oğurluğunda suçlu bilinərək 14 il türmə yatmış fermeri Abbasovlar klanına nə bağlayır?

*Şöbənin müdir müavini Şahbaz Mehdiyev sorğumuza geniş şəkildə cavab yollayıb. Məktubun girişində bildirilir:*

"Qəzetinizin 25.04.2015-ci il tarixli nömrəsində Daşkəsən rayonu ərazisində oliqarxlara məxsus heyvan sürülərinin saxlanması barədə sorğunuzla bağlı bildiririk ki, özünü fermer təsərrüfatı rəhbəri kimi qələmə verən Gəncə şəhər sakini Akif Rzayev baş nazirin sabiq birinci müavini Abbas Abbasovun çobanıdır. Respublikamıza qarşı məkrli niyyəti ilə ətrafındakı adamları özünün ideya aləti kimi istifadə edən Abbas Abbasov Daşkəsən rayonunda Akif Rzayevdən istifadə edir. Vətəndaş Akif Rzayev Gəncə şəhərində qeydiyyatdadır və orada yaşayır".

**Redaksiyamıza göndərilən sorğunun cavabında qeyd edilir ki, A.Rzayevin istifadəsində Daşkəsən rayonuna məxsus yay otlağından 375 ha torpaq sahəsi olmasına baxmayaraq, o, təsərrüfatının icarəsinə əlavə 300 hektar yay otlaq sahəsinin qanunsuz olaraq verilməsini tələb etməklə, şikayətlər edir:**

"Əslində Abbas Abbasova məxsus fermer təsərrüfatının rəhbəri Akif Rzayevin şikayətində göstərilənlər dəfələrlə rayonun aidiyyəti qurumlarının və keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin mütəxəssislərinin iştirakı ilə araşdırılmışdır. Akif Rzayev bildirir ki, bu sürülər Abbas Abbasovundur və ona heç kəs heç nə edə bilməz.

12 saylı Ərazi Vergilər Departamentinin Daşkəsən Rayon İcra Hakimiyyətinə ünvanlanmış 1412020182063000 saylı 01.12.2014-cü il tarixli və 151203002083100 nömrəli, 26.01.2015-ci il tarixli məktublarında qeyd edilmişdir ki, A.Rzayevin rəhbəri olduğu "Hacı-Tağı" kəndli fermer təsərrüfatının Dövlət Fondu yay otlağından istifadəyə görə 1058,89 manat icarə borcu vardır. Bağlanmış "Torpaq icarəsi müqaviləsi"nə əsasən göstərilən icarə haqqı üzrə vergi borcunun büdcəyə ödənilməsi tələbi ilə məhkəməyə iddia ərizələri ilə müraciət etmək üçün zəruri sənədlərin Ərazi Vergilər Departamentinə təqdim edilməsi tələb edilmişdir. A.Rzayevə xəbərdarlıq olunmuşdur ki, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 73-cü maddəsinin 7-ci abzasına əsasən torpaq vergisi və icarə haqqı üzürlü səbəb olmadan 1 il ödənilmədikdə torpaq sahəsi və ya onun bir hissəsi üzərində mülkiyyət, istifadə və icarə hüququna xitam verilir".

"Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən bütün bunların qarşısının alınması və yay otlaqlarının istifadəsində qayda-qanun yaradılması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Yay və qış otlaq sahələrinin səmərəli istifadəsinin və mühafizəsinin təmin edilməsi" məqsədilə qəbul etdiyi yuxarıda adıçəkilən qərara uyğun tədbirlər həyata keçirərək yaylaq istifadəçilərinə əvvəllər verilmiş otlaq sahələrinin ölçülərinin faktiki yaylağa gətirilən davarların baş sayına uyğunlaşdırmaqla yay otlaq sahəsinə ehtiyacı olan digər hüquqi-fiziki şəxslərin də tələbatlarının təmin edilməsi istiqamətində işlər görür" - deyə, məktubda qeyd edilir.

**Şahbaz Mehdiyevin sözlərinə görə, A.Rzayevin müraciətində rayon icra hakimiyyətinin və digər qurumların ünvanına işlətdiyi yalan və böhtan xarakterli, təhqiramiz, milli və mənəvi dəyərlərimizə uyğun olmayan, etikadan kənar ifadələr təəccüb, təəssüf və ikrah hissi doğurur:**

"Çox təəccüblüdür ki, əvvəllər vətəndaş A.Rzayev dəfələrlə müxtəlif tədbirlərdəki çıxışlarında, yuxarı dövlət orqanlarına etdiyi müraciətlərində rayon rəhbərliyi barədə olduqca yüksək fikirlər ifadə edərək, yazaraq, rayon rəhbərliyini, onun özünün ifadəsi ilə desək, hətta "peyğəmbər" adlandırmışdı".

### Abbas Abbasovun "çobanı"nın YAP üzvü olması saxta çıxıb

**Şahbaz Mehdiyev redaksiyamıza yolladığı məktubda maraqlı bir detal barədə də məlumat verir:** "Akif Rzayev müxtəlif instansiyalara ünvanladığı ərizələrində özünün guya Daşkəsən rayonunda ictimaiyyətçi, rayonun ilk fermeri, YAP-ın fəal üzvlərindən olmasını qeyd etmiş, amma bir reallıqdır ki, o, Daşkəsən rayonunda YAP sıralarına qəbul olunmamış və qeydiyyatda durmur".

### Akif Rzayevin özü və oğulları hansı cinayətləri törədiblər?

**Şahbaz Mehdiyevin daha sonra yazır:** "A.Rzayev əvvəllər böhtan və qərəzli əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilmiş, dəfələrlə həbs olunmuş, el arasında mal-qara oğrusu adı ilə tanınmışdır. Onun cinayət əməlləri bitməyərək bu gün də davam edir. A.Rzayev azyaşlı qıza cinsi təcavüzə görə həbs edilib, həmçinin mal-qara, at oğurluğuna görə də məsuliyyətə cəlb olunub. O, 14 il türmədə yatıb. Deyilənə görə, həbsxanada olarkən dustaqları türmə nəzarətçilərinə satdığı üçün ağır formada cəzalandırılıb - onun kürəyinə satqınlığını bildirən damğa vurulub.

Özünü xalq arasında böyük hörmət sahibi, fəal ictimaiyyətçi kimi təqdim edən A.Rzayev vaxtilə müxtəlif vasitələrlə oğlunun törətdiyi cinayətləri ört-basdır edərək, oğlunun günahını başqa bir şəxsin üzərinə ataraq, atası sadə bir traktorçu olan Bayramov Elvin Nasim oğlunu həbs etdirmişdir. Onun oğlu Ceyhun Rzayev dəfələrlə cinayət əməllərinə görə həbsdə olmuş, hazırda onun qrup halında oğurluqda iştirakı ilə əlaqədar Cinayət Məcəlləsinin 172.2 maddəsi üzrə Gəncə Ağır Cinayətlər üzrə Məhkəməsində işə baxılır.

Onun digər oğlu Rzayev Seymur Akif oğlu Cinayət Məcəlləsinin 177.2.1, 177.2.2, 177.2.4, 221.1 maddələri ilə məhkəmə məsuliyyətinə cəlb olunmuşdur.

Vətəndaş A.Rzayevin əsassız, qanunazidd, böhtan xarakterli yazdığı ərizələr dəfələrlə araşdırılmış, müvafiq qanunvericilik aktlarının tələbləri ona ətraflı izah edilmiş, yuxarıda qeyd olunan əsassız yazışmalara son qoyulması tövsiyə edilmişdir.

Daşkəsən Rayon İcra Hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında keçirilən son müşavirələrdə torpaqlardan təyinatı üzrə daha səmərəli istifadə olunması barədə möhtərəm prezidentimizin tapşırığını əldə rəhbər tutaraq və bu sahə üzrə edilmiş iradları nəzərə alaraq, rayon ərazisində aidiyyəti üzrə müvafiq tədbirlər həyata keçirir və həmin tədbirlərin həyata keçirilməsini daim nəzarətdə saxlayır.

Bəzən qanunvericiliyə uyğun olaraq həyata keçirilən tədbirlər qanunsuz, müxtəlif yollarla uzun müddət torpaqlardan gəlir məqsədilə istifadə edən dələduz, fırıldaqçı Akif Rzayev kimi "işbazların" mənafelərinə toxunduğu üçün onlar mətbuat səhifələrinə keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rayon şöbəsinin rəhbərliyi barədə şər, böhtan xarakterli, qərəzli müraciətlər edirlər ki, bunun da heç bir hüquqi əsası yoxdur".

**Şahbaz Mehdiyev Akif Rzayevlə bağlı başqa məsələləri də yolladığı məktubda qeyd edib:**



Akif Rzayev

"A.Rzayev qonşu rayonların fermerlərinin mal-qarasını, qoyun sürülərini öz adıyla rayon ərazisinə gətirir. Bunun üçün biz ondan arayış tələb edəndə bundan yayınır. O, qanunvericiliyə görə Daşkəsəndəki yaylaqlara gətirdiyi mal-qara haqda aşağıdakı sənədləri təqdim etməlidir:

Baytarlıq şəhadətnaməsi;

Mal-qara sahibinin istifadəyə dair icarə müqaviləsi;

Ayrılmış torpaq sahəsinin sxemi;

Rayona gətirilən mal-qara haqqında ərazinin icra nümayəndəliyi tərəfindən verilən arayış;

Şəxsiyyət vəsiqəsinin surəti;

A.Rzayev tələb olunan bu sənədləri təqdim etmir. Qanuna əsasən, icarə müqaviləsi bağlamalıdır. İstifadə etdiyi torpağa görə dövlət rüsumu ödəməlidir. Bunların heç birini etmir, üstəlik şantajla, hədə-qorxuyla danışır".

**Ş.Mehdiyev daha sonra qeyd edir:** "Kənar rayonlardan Daşkəsənə gətirilən mal-qara yerli əhalinin fərdi təsərrüfatına ziyan vurur. Camaat bundan ziyan çəkir, nəticədə narazılıq yaranır və hətta kriminal hadisələr baş verir. Yerli əhalinin ümumi istifadəsində olan örüş sahələri kənar rayonlardan gətirilən sürülər tərəfindən məhv edilir. Daşkəsənin iqlim şəraiti çox sərtdir. İlin 8 ayı burda hava soyuq keçir. Havalar isinəndə də imkanlı şəxslər, şadlıq evlərinin sahibləri və onların arxasında dayananlar qoyun sürülərini, mal-qaralarını rayon ərazisinə gətirib yerli əhaliyə ziyan vururlar." Şahbaz Mehdiyev bildirir ki, Nazirlər Kabinetinin qərarı ilə yerli icra hakimiyyəti bu məsələni qanuna uyğun şəkildə tənzimləyir. Bununla bağlı Daşkəsən Rayon İcra Hakimiyyəti bu yaxınlarda sərəncam verib. Həmin sərəncamdan irəli gələn tələblərə hansı fermer əməl etməsə, sürüləri yay otlaq sahələrinə buraxılmayacaq".

Ş.Mehdiyev bildirir ki, ətraf rayonlardakı qış yataqları öz həllini tapdığı halda Daşkəsənin yay otlaq sahəsi ətrafında problem hələ də tam həll olunmamış qalıb.

***

Gəncədəki mənbələrdən "Yeni Müsavat"a daxil olan məlumatda isə bildirilir ki, A.Rzayev parlament seçkilərində A.Abbasovun oğlu Aydın Abbasovun seçki kampaniyasına yaxından dəstək verib. Mənbə bildirir ki, o, seçicilərin Aydın Abbasova səs vermələri üçün onlara ət paylayıb, qoyun-quzu verib şirnikləndirir.

❑ **İqtisadiyyat şöbəsi**

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015

**BMT-nin Korrupsiya əleyhinə Konvensiyasında korrupsiyanın lokal deyil, bütün ölkələrin cəmiyyət və iqtisadiyyatına toxunan, transmilli olduğu vurğulanır. Təşkilatın rəsmi məlumatlarında korrupsiya "dövlət hakimiyyətindən şəxsi məqsədləri üçün sui-istifadə", dövlət məmurlarının, vənzifəli şəxslərin, eləcə də ictimai-siyasi xadimlərin "satılıb-alınması" kimi mənalandırılır. Dünya Bankı və Beynəlxalq Şəffaflıq Təşkilatı (Transparency İnternational) korrupsiyanı "verilmiş səlahiyyətlərdən şəxsi məqsədlər üçün istifadə" kimi izah edir. Braziliya alimlərinin hesablamalarına görə, neft və qaz ixrac edən ölkələrdə idarəetmə sistemi demokratik deyilsə, qanunun aliliyi təmin olunmayıbsa, hənmin ölkələrdə neft gəlirlərinin 10 faiz artması korrupsiyanın 12 faiz artmasına gətirib çıxarır.**

**Həcər ABBASLI**
**Ümid Partiyasının Gender bərabərliyi şöbəsinin müdiri**



# Korrupsiyanın aradan qaldırılmasında KİV-in rolu

## Rüşvət vətəndaşlararası "ünsiyyət" vasitəsinə çevrilib...

Korrupsiya insan əməyinin istismar edir, bununla bərabər zorakılığı, özbaşınalığı, rüşvətxorluğu, saxtakarlığı təbliğ edir. Düzdür cəmiyyəti rüşvət verənlərə və alanlara bölmək düzgün deyil. Eyni vətəndaş bir vəziyyətdə rüşvət verir, digər vəziyyətdə isə alır. Beləliklə, rüşvət vəntəndaşlararası "ünsiyyət" vasitələrindən birinə çevrilir. Maraqlıdır ki, rüşvət məmurun təkcə qeyri-qanuni hərəkətə razılığı qarşılığında deyil, qanuni hallarda da tələb edilir. Fərq rüşvətin miqdarındadır. Məmur özbaşınalığı, vəzifə saxtakarlığı, sui-istifadə halları, rüşvətxorluq, dövlət əmlakının talan edilməsi, maliyyə fırıldaqları və s. cinayət əməllərinin kökündə korrupsiya durur. Korrupsiya dövlətlərin idarəetmə sistemini kökündən zədələyir, mütəşəkkil cınayətkarlığa yol açır, cinayətkar qruplaşmaların yaranmasına səbəb olur. Hədsiz-hüdudsuz nəfsə malik insanların kütləvi şəkildə iştirak etdikləri korrupsiya əməli cəmiyyətdə "normal", korrupsiya yox, "dolanışıq" kımi qəbul edilir. Məsələn adi bir arayışın alınmasında 1 manat verən şəxs bunu "hörmət", pulu alan isə "dolanışıq yolu" adlandırır. Lakin onların heç biri bu əməlin rüşvət olduğunu dərk etmir, yaxud dərk etsələr də fərqinə varmırlar. Bir gündə 100 nəfərə arayış verən məmur bir ayda təqribən 2500 manat "çirkli pul" qazanır, sonra həmin pullar mərhələ-mərhələ yuxarı dairələrə ötürülür. KİV belə hallara qarşı barışmaz mövqedə olmalı və işıqlandırmalıdır.

Korrupsiya həmçinin cəmiyyətdə sosial bərabərsizliyə səbəb olur, əhalinin rifahı pisləşir, aztəminatlı ailələrin dolanışığı ağırlaşır, onlara verilən sosial müavinətlər bürokratik əngəllərlə müşayiət olunur, sonda vəzifəli şəxslər əhali üçün ayrılmış həmin müavinətləri bölüşdürüb mənimsəyirlər. Korrupsiya elmin inkişafını əngəlləyir, insanların mənəviyyatını pozur, ziyalıların cəmiyyətdə mövqeyini zəiflədir və xaricə "beyin axını"nın yaranmasına səbəb olur.

Qanunların işlək mexanizminin olmaması, maaşların azlığı da korrupsiyanın yayılma səbəblərinə aiddir. Ancaq əgər terminlərlə ifadə etməli olsaq sistematik korrupsiyada məmurun əmək haqqının yuxarı olması belə onu korrupsiyadan yayındırmır, amma hər halda yüksək maaş az da olsa korrupsiyanın səviyyəsini aşağı salar və korrupsiya ilə mübarizənin effektivliyi istiqamətində əhəmiyyətli töhfə verə bilər.

Digər tərəfdən isə məhkəmə orqanlarının müstəqil olmaması, icra strukturlarından və yüksək çinli dövlət məmurlarından asılılığı, hakimlərə ciddi cəza verilməməsi, qanunvericilikdə boşluq, cəmiyyətdə passivlik, mənəviyyatsızlıq, maariflənmənin zəifliyi, savadsızlıq, ictimai nəzarətin yoxluğu, cəzasızlıq, sahibkarların azad olmaması, rüşvət alanlarla verənlərin əlbirliyi, hakimiyyətin bir əldə cəmlənməsi, dövlət hakimiyyəti mexanizmlərinin səmərə verməməsi və s. korrupsiyanın şaxələnməsinə rəvac verən səbəblərdir.

Ən dəhşətli məqam isə təhsil və səhiyyədə korrupsiyanın olmasıdır. Səhiyyədə korrupsiyanın olması əhalinin demək olar ki, daha çox ehtiyaclı təbəqəsinə - yaşlı, kasıb, sağlamlığı məhdud insanlara keyfiyyətli və ilkin tibbi xidmətin effektiv göstərilməsinə maneə olur. Təhsildə korrupsiya isə millətin gələcəyinə böyük zərbədir. Elmi dərəcələrin və diplomların pulla alınması elmin inkişafına ciddi əngəl törədir.

Korrupsiya iqtisadiyyata ciddi zərbə vurur. Qanunların, lisenziyanın, verginin, gömrük xidmətlərinin şəxsi maraqlara xidməti sərmayədarları uzaqlaşdırır, monopoliya güclənir. Banklarda rüşvət verilir, faizlər yüksək olur, kreditlər yüksək təbəqəyə verilir. Kənd təsərrüfatında əkinçilər, fermerlər fəaliyyət göstərə bilmir, torpaq sahələri vəzifəli və ya imkanlı adamların əlində cəmlənir. Korrupsiya digər sahələrdə olduğu kimi həm də milli təhlükəsizliyə zərbədir. Əgər sərhəd gözətçiləri və ya gömrük xidmətinin əməkdaşları insanların sərhəd yoxlamasından keçmələri üçün rüşvət alırlarsa, ölkənin təhlükəsizliyi risk altına düşür. Terrorçular və cinayətkarlar istifadə edirlər. Orduda korrupsiya dövlətin hərbi qüdrətini zəiflədir. Korrupsiya dövlət hakimiyyəti ilə sıx əlaqədə olanda cəmiyyətin hakimiyyətə etibarı azalır, dövlətlə cəmiyyət arasında uçurum yaranır.

Qeyri-rəsmi məlumatlara görə, hər il dünyada korrupsiyadan 600 milyard ABŞ dolları əldə edilir ki, bunun da qarşısını almaq qlobal xarakter daşıyır. Artıq bu rəqəm Avropa Şurası üzv dövlətlərini də narahat edir.

Xarici KİV müxtəlif ölkələrdə korrupsiyanın vəziyyətini araşdırır bizim ölkədə isə bununla məşğul olan çox az sayda KİV və KİV nümayəndələri var. Məşğul olanların aqibəti isə göz qarşısındadır. Məsələn BBC-nin 26 ölkədə keçirdiyi sorğuya əsasən məlum olub ki, dünyada insanları narahat edən qlobal problemlər sırasında ən çox korrupsiyadan danışılır. Bu, yoxsulluqdan sonra ikinci problem kimi qeyd edilib. Sorğunun nəticələrinə əsasən, Braziliya, Misir, Kolumbiya, Filippin və Keniyada respondentlər korrupsiyanı sayca birinci ciddi problem kimi görürlər.

KİV həmçinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq təcrübəni təbliğ edir. Buna misal olaraq hər il Beynəlxalq Şəffaflıq Təşkilatı dünyada korrupsiya ilə bağlı hesabatını dərc edir. Korrupsiya olmayan ölkələrin ilk onluğunda Danimarka, Yeni Zelandiya, Finlandiya, İsveç, Norveç, Sinqapur, İsveçrə, Hollandiya, Avstraliya və Kanada yer alır. Dünyanın ən korrupsioner 10 ölkəsi isə Somali, Şimali Koreya, Əfqanıstan, Sudan, Cənubi Sudan, Liviya, İraq, Özbəkistan, Türkmənistan, Suriya və təəssüflər olsun ki, Azərbaycanda bu siyahıda ön sıralardadır.

Ölkədə korrupsiyaya qarşı mübarizə istiqamətində mühüm qanunlar qəbul edilib, lakin həmin qanunların işlək mexanizmi yaradılmayıb. Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı hazırlanıb. 2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya yaradılıb. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı qəbul olunub, amma gəlin görək bu qanunlara və öhdəlik götürdüyümüz konvensiyalara necə riayət olunur. Qanunvericiliyə görə, vəzifəli şəxslər müəyyən edilmiş qaydada gəlirləri, əmanətləri, qiymətli kağızları, digər qiymətli maliyyə vəsaitləri, şirkətlərin, fondların və s. fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirakı, müəssisələrdə mülkiyyət payları, şərti maliyyə vahidinin 5 min qismindən çox olan borcları, maliyyə və əmlak xarakterli öhdəlikləri barədə məlumat verməlidirlər. Qanun həm də korrupsiya ilə əlaqədar olaraq yaxın qohumların eyni təşkilatda işləməsinə icazə vermir. Belə hal müəyyən edilərsə, 30 gün ərzində aradan qaldırılmalıdır.

Korrupsiya təzahürlərinin və korrupsiyaya qurşanmış vəzifəli şəxslərin ictimai qınaq obyektinə çevrilmələri, onların nüfuz və adlarının hörmətdən düşməsinə, karyeralarının sona çatmasına gətirib çıxarır. Məhz bu sahədə KİV-in fəaliyyəti, onların göstərdikləri dəstək əvəzolunmazdır.

# Ümid "28 aprel işğalı və onun nəticələri" mövzusunda dəyirmi masa keçirdi




**Ötən şənbə günü Ümid Partiyasının Mərkəzi Qərargahında "28 aprel işğalı və onun nəticələri" mövzusunda ənənəvi dəyirmi masa keçirildi. Mövzu ilə bağlı partiyanın analitik təhlil və siyasi proqnozlaşdırma şöbəsinin müdiri Fəxrəddin Abdullayev çıxış edib. O, həmin dövrdə Xalq Cümhuriyyətinin fəaliyyəti, ermənilərin Qarabağda törətdikləri iğtişaşlar və Bakıdakı bolşeviklərin inqilab komitəsinin fəaliyyəti haqqında ətraflı məlumat verib. 28 apreli doğuran səbəbləri sadalayıb. Tarixi unutmamağa, xüsusən tarixi səhvlərdən nəticə çıxarmağa və bu kimi hadisələrin bir daha təkrarlanmaması üçün hökumətin, siyasi partiyaların və bütövlükdə xalqın görə biləcəyi işlərdən danışıb.**

Xüsusən siyasi partiyaların üzərinə böyük vəzifə düşdüyünü, tarixi günlər haqqında konfranslar, dəyirmi masalar keçirilməsinin vacibliyini vurğulayıb: "Əslində bu faciəmiz olan tarix bir çoxlarının yaddaşında bayram kimi qalıb. Bu il Azərbaycanın ruslar tərəfindən işğal olunmasının 95-ci il dönümüdür".

**O çıxışında vurğulayıb ki, işğal özü ilə yeni faciəli günlər gətirdi:** "17 il ərzində repressiyalar törədildi. Xalqımızın mənəvi gücü davamlı olaraq sarsıdıldı. Xalqımızın ziyalılarını, düşünən beyinlərini məhv edib, Xalq Cümhuriyyətinin banilərini siyasi terrora qurban etdilər. Onların məhv edilməsi üçün bəşər tarixində misli görünməyən yırtıcı üsullara əl atıldı. Təəssüf ki, hələ də 28 Aprel fəlakətinin yaratdığı fəsadlar, təhlükələr bugünkü müstəqilliyimiz üçün də var. Sovet rejimi Azərbaycan Xalq Cümhuriyyətindən təhvil aldığı 114 min kv.km ölkənin böyük bir hissəsini Ermənistan başda olmaqla qonşu dövlətlərə güzəştə gedir. Nəticə əlimizdə 86.6 kv.km-lik torpaq qaldı. Leksikonumuzda Böyük Vətən müharibəsi adlanan dövrə kimi bolşevik tör-töküntüləri 50 mindən çox soydaşımızı qətlə yetirdilər. Azərbaycanda sovet hakimiyyətinin qurulmasına çalışanlar çox keçmədən anladılar ki, fəaliyyətlərində böyük bir yanlışlığa yol veriblər. N.Nərimanov ömrünün sonuna yaxın "Müstəqil Sovet Azərbaycanı" şüarının saxta olduğunu başa düşərək V.İ.Leninə məktubunda yazırdı: "Məgər "Müstəqil Azərbaycan "sizin dilinizdən çıxmamışdırmı?... İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır... Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir" . Heç nə unudulmur, heç kəs yaddan çıxmır. Yetər ki, həqiqətin gözünə dik baxaq. Biz xalq olaraq, siravi vətəndaşdan dövlət rəhbərinə kimi taleyin bizə yenidən bəxş etdiyi müstəqilliyimizi göz bəbəyimiz kimi qorumalıyıq".

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Qəzet oxuyan dəli

Zamin HACI
zaminhaci@gmail.com

**Fövqəladə xilasetmə idarəsinə zəng gəlib, durub gediblər Xaçmazda bir evə. Zəng edən qonşular-mış, deyiblər evdəki adam 2 gündür çölə çıxmır, qapanıb içəridə, bilmirik ölüdür, ya diridir.**

Bah-bah... Azərbaycanlıların belə sosiallaşmağı, qayğıkeşliyi məni lap kövrəltdi. Bu minvalla biz lap milli təəssübkeşlik-zad da çəkərik. Lətifədə deyilən kimi, "belə getsə sən siqaret də çəkərsən".

Uzun sözün qısası, Kamal müəllim "spayderman"ları divardan-bacadan sallaşıb, pəncərə-qapını qaynaq qurğusuyla kəsib-doğrayıb sonucda içəri girərkən nə görsələr yaxşıdır? Görüblər adam divanda oturub... qəzet oxuyur. Sən demə, bu, ruhi xəstə imiş, Rusiyadan təzə qayıdıbmış, 1982-ci ildə doğulubdur və sairə. Qəzet oxuduğunu artıq biz bilirik, o səbəbdən, həm də peşə etikasına görə *(Amaşov buna əməl elədiyim üçün gərək mənə taxta medal versin - hər quruma aid zarafat onun səviyyəsinə uyğun olmalıdır)* mən həmin şəxsin adını yazmıram.

Ey dadi-bidad... Ölkədə bircə nəfər qəzet oxuyan varmış, o da dəli çıxdı. Həm də yazığa imkan verməditlər xarabasında qapını bağlayıb qəzet oxusun. Azərbaycanda dərvişlik, tərkidünyalıq mümkün deyil, bu da sübut olundu. Çəkiləcəksən mağaraya, qohum-əqrəba bir sürü xilasedici ilə mağaranın içinə doluşacaq, tavandan sallaşan yarasaların gözü bərələ qalacaq. Hələ bəlkə tutub aparıb zorla evləndirdilər, qəzeti də cırıb başına keçirdilər. Adamı dəli eləməkdə ustayıq. Mən şübhə eləmirəm ki, o adam nəinki Xaçmaz, bütün Sumqayıt-Yalama arasında ən ağıllı adamlardan biri idi, sadəcə, millətə sərf eləmədiyi üçün dəli adı qoyublar.

Qəzetdən-zaddan söz düşmüşkən, bu yaxında bir sürü jurnalist təşkilatı rəhbərləri və qəzet redaktorları yığışmışdılar. Bu da qəribə bir şeydir, bizdə qəzetlərin sayı azaldıqca, düzgün söz yazan adamlar qeybə çəkildikcə jurnalist təşkilatlarının sayı artır. Savaşı uduzandan sonrakı illərdə öz millətinə güllə atan "Milli Qəhrəmanlarımızın" artması fason bir haldır. Uzun sözün qısası, bu yaltaq "zurnalistlər" yığışıb qərar vermişdilər ki, jurnalistlər orduya yardım əlini uzatmalıdır. Başlıq isə belə idi: "Mətbuat müharibə şəraitinin qanunlarına tabe olmalıdır".

Əlbəttə. Əsas məsələ elə bu tabeçilikdir. Mətbuatı bacardıqca hər şeyə və hər kəsə tabe eləməlisən. Söz azadlığı? Cəhənnəmə olsun. Quru sözdən kimə xeyir gəlib? Hətta cəbhə bölgəsində polkovniki, generalı qəzaya salıb öldürmək, bunun haqqında yalnız 20 il sonra danışmaq olar. Cəbhə nədir ki, Bakının mərkəzində 3-4 il qabaq generalı vurub öldürdülər, üstündən su içdilər. Mətbuatı tabe elə, danışanların ağzını yum, mümkün olmasa ağzından güllə at. Söhbət beləcə bağlansın.

Ümumən, mətbuat təkcə müharibə şəratinin qanunlarına *(nədənsə bu "qanunlar" Avropa Oyunlarına ermənləri dəvət eləməyə mane olmur)* tabe edilməməlidir. Bacardıqca, harda tutsan, hansı qanuna gəldi tabe elə getsin. Gəlir deklarasiyası verməyən adamlar həmin çirkli gəlirlərdən araşdırmalar yazan Xədicə İsmayılı tutublar. Siyasi rüşvətxorlar bunu davamlı tənqid edən jurnalist Seymur Həzini həbs ediblər. Seçkini saxtalaşdıranlar bunu ifşa edən Anar Məmmədlini zindana salıblar. Beləliklə, ölkədə tabeçilik yaranmışdır.

Seçki demişkən, məncə yapist yoldaşlar ətraf aləmdə baş verənlərə bir az diqqətlə yanaşmalıdır. 26 apreldə Qazaxıstanda prezident seçkisi qayırdılar və qazaxların "babası" Nursultan əkə 97,7 faiz səslə prezident qoyuldu. Bu sultan Çingizxanın vaxtından ərazini *(belə yerlərə də Fransa, Almaniya kimi respublika demək ayıbdır)* fırladır. Sözümüz bunda deyil, necə deyərlər, hər xalq öz sultanına layiqdir. Məni rəqəm narahat elədi. Bundan az öncə Özbəkistanda prezident seçkisi olmuşdu, Teymurləngin yaşıdı İslam Kərimov 91 faiz səslə təzədən ərazinin əkəsi elan olunmuşdu. Bizdə isə axırıncı prezident seçkisində - 2013-cü ildə Əliyevə cəmi 84,5 faiz səs yazıldı. Belə çıxır bizim xalq öz rəhbərini qazaxlar və özbəklərdən az sevir.

Üzərində düşünün. Tabe olmayanların faizi çoxdur deyəsən. Qazaxların acığına gələn prezident seçkisində 110 faiz qazanmaq lazımdır.

## YAP bəzi dairələrdə mandatını geri istəyir?

**Avropa Oyunları 2015-ci ilin əsas siyasi hadisəsini-parlament seçkilərini ikinci plana keçirsə də, hakimiyyət kuluarlarında bu prosesə hazırlıqla bağlı zaman-zaman çox ilginc xəbərlər yayılır.**

**Ən son aldığımız məlumatlara görə, indi əsas qızğın müzakirə YAP-ın Seçki Qərargahının qurulması və hakimiyyətin bu seçkilərdə hansı namizədlərlə iştirak edəcəyini müəyyənləşdirməsi ətrafında gedir.**




# Əli Əhmədova qarşı cəbhə yaranır

### Bəzi oliqarxlar parlament tribunasından məhrum ediləcəklər; kimlər YAP icraçı katibinin Seçki Qərargahına Nazirlər Kabinetindən nəzarət etmək istəyinə qarşı çıxır...

Məlumdur ki, prezident seçkilərindən sonra YAP-ın icraçı katibi Əli Əhmədov baş nazirin müavini postuna yüksəldilib, onun partiyadakı daha bir müavini Mübariz Qurbanlı isə Dini İşlər üzrə Dövlət Komitəsinə sədr təyin edilib. Partiyanın neçə illərdir seçki qərargahına rəhbərliyi məhz Əli Əhmədov edib. Məlumdur ki, Ə.Əhmədov YAP icra katibi kimi qalır və ara-sıra partiyanın mərkəzi ofisinə də gəlir.

Amma seçki ciddi və çox iş tələb edən proses olduğundan Ə.Əhmədovu hər cür bəhanə ilə bundan uzaqlaşdırmaq istəyirlər. İddialara görə, YAP daxilində də Ə.Əhmədovla münasibətləri gərgin olan bir qrup, eləcə də bəzi məmur-oliqarxlar icra katibinin bu dəfə seçkiyə nəzarət etməsini arzulamırlar. Onun Nazirlər Kabinetindəki otağından YAP-dakı seçkiyə tam nəzarət etmək istəyinə Prezident Administrasiyasından da isti baxmırlar.

Ə.Əhmədovun YAP-dakı mövqeləri hələ möhkəm olsa da, rəqibləri onu heç olmasa seçki qərargahına rəhbərlikdən uzaqlaşdırmaq niyyətindədir. Məlumdur ki, neçə illərdi Prezident Administrasiyası ilə YAP arasında gizli bir münaqişə var və bu, hər seçkidə özünü daha qabarıq göstərir. Xəbərlərə inansaq, Ə. Əhmədov baş nazir portfelinə də iddialıdır ki, noyabr seçkilərində "triumf" onu bu arzusuna da çatdıra bilər. Bu səbəbdən də Ə. Əhmədov da YAP-ın Seçki Qərargahından möhkəm yapışıb. Qeyd edək ki, Ə.Əhmədov bacarıqlı təşkilatçı kimi tanınır və inamlı olmaqda prezidentin də ona etimadını ciddi dəstək kimi istifadə edir.

Ə.Əhmədovun YAP-ı "uzaqdan idarə etməsinin" əleyhinə olan bəzi məmurlara gəlincə, bu da səbəbsiz deyil. Əvvəla, ona görə ki, onlar Etibar Məmmədovun düşərgəsindən gəldiyi üçün Ə. Əhmədovu hələ də "yad" hesab edirlər. Daha bir səbəb onun seçki siyahısının müəyyənləşməsində oliqarxlara qarşı ola biləcəyidir. Belə ki, ötən ay YAP bütün dairələrdə xüsusi araşdırma aparıb və araşdırma bəzi biabırçı nəticələr üzə çıxarıb. Məlum olub ki, bəzi dairələrdə seçicilər öz deputatlarının hətta adlarını belə bilmirlər. Onların bir çox isə oliqarxların parlamentdəki adamlarıdır. Qeyd edək ki, YAP icra katibinin müavini Siyavuş Novruzov da belə bir araşdırma aparıldığını təsdiqləmişdi.

YAP rəsmisi onu da əlavə etmişdi ki, bu təhlillər bitdikdən sonra hansı seçki dairəsindən hansı xarakterə malik namizəd irəli sürülə biləcəyi müəyyənləşdiriləcək.

Oliqarxların narahatçılığına səbəb olan başqa bir ciddi durum da var. Parlament seçkiləri ili bəzi oliqarxların gizli vurulması, onların hakimiyyət qollarındakı mövqelərinin zəiflədilməsi prosesi də gedir. Bu sırada ən çox nəqliyyat naziri Ziya Məmmədova baş qoruman Bəylər Əyyubovun adı çəkilir. Son seçkilərdə bu oliqarxlar parlamentdə bir neçə yer əldə edə biliblər. Gözlənilir ki, onlarla bərabər parlamentdə deputat lobbisi olan digər oliqarxlarda bu dəfə ciddi mövqe itkilərinə məruz qalacaqlar. Bu da aydındır ki, Ə. Əhmədovu aşan bir işdir...

Redaksiyamıza çatan bilgiyə görə, adətən 114 dairədən namizədi müəyyənləşdirən, digər dairələrdə isə hakimiyyətə yaxın şəxslərin namizədliyini dəstəkləyən YAP bu dəfə güzəştə getməyə o qədər də həvəsli deyil. Qeyd edək ki, neçə illərdir YAP Naxçıvanın bir neçə dairəsindən, o cümlədən Qobustan-Xızı-Quba seçki dairəsindən *(deputat Zeynəb Xanlarova)*, Salyan-Neftçala seçki dairəsindən *( deputat AVP sədri Fəzail Ağamalı)*, Biləsuvar seçki dairəsindən *(deputat Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı)* və daha bir neçə dairədən güzəştə getdiyi deputat mandatını "özününküləşdirmək" istəyir.

Belə görünür ki, müxalifətin yoxluğunun daha çox hiss ediləcəyi bu seçkidə YAP parlamenti nə müxalifətlə bölmək, nə də mandatını hakimi partiyanın deyil, bir qrupun mənafeyinə xidmət edənlərə güzəşt etmək fikrindədir.

Xəbərlər belə düşünməyə əsas verir ki, Avropa Oyunlarından sonra Azərbaycanın siyasi həyatı daha maraqlı olacaq...

❑ **Xəbər xidməti**

# Yadigar Sadıqov "çox kitab oxuduğu üçün" həbsdən buraxılmayıb

### Məhkəmə başqan müavininin müraciətinə niyə rədd cavabı verib?

**Xəbər verildiyi kimi, Müsavat başqanının həbsdəki müavinlərindən biri Yadigar Sadıqovun həbs cəzasının çəkilməmiş hissəsindən azad olunması ilə bağlı Qaradağ Rayon Məhkəməsinə etdiyi müraciət təmin edilməyib. Vicdan məhbusunun islah olunmaması əsas gətirilib.**



Yadigar Sadıqov may ayında gözlənilən əfvlə azadlığa çıxacağına inanmır. Bu barədə "Yeni Müsavat"a açıqlamasında Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri **Elman Fəttah** məlumat verib: "Hakimiyyətin ona qarşı mübarizə aparan, heç bir halda ondan əfv diləməyəcək müsavatçıları əfv siyahısına salacağına ümidimiz yoxdur. Bir həftə əvvəl Yadigar bəyin cəzasının yarısının tamam olması ilə bağlı hüququ müstəvidə məhkəməyə müraciət edilmişdi. Əsas gətirdilər ki, Yadigar bəy əməyə meylli deyil, səhərdən axşama qədər kitab oxuyur. Guya bu onu göstərir ki, o, islah olunmayıb".

**Qeyd edək ki, Avropa ölkələrində məhbusa cəmiyyətdən tam təcrid olunmaması üçün məzuniyyətlər verilir. Elman Fəttah bu məsələyə də münasibət bildirdi:** "Hakimiyyət qanunla müəyyən edilən hüquqlardan insanı məhrum edir. 2000-ci illərdən üzərlərinə götürdükləri öhdəliklərə əməl olunmur. Azərbaycan Avropa Şurasına üzv qəbul olunanda tələblərin biri bundan ibarət idi. Nəticədə islah əmək düşərgələri cəzaçəkmə müəssisələri ilə əvəz olundu. Amma məhbuslara qarşı münasibətdə köhnə qaydalar tətbiq olunur. Düşünmürəm ki, hakimiyyət məzuniyyət hüququnu məhbuslara tətbiq etsin. Hətta bu mümkün olsa belə, reallıqda olmayacaq. Gördüyümüz kimi, bəzi siyasi məhbusların yaxınlarının ölümü ilə bağlı ya məzuniyyət verilmir, ya da verilən məzuniyyətlər alçaldılmış şəkildə olur. Siyasi məhbuslara münasibətdə hakimiyyət çılpaq niyyətini hər şəkildə ortaya qoyur".

**Elman Fəttah Yadigar Sadıqovun müsavatçı gənc xanım Nərgiz Yaqublunun ölümündən şok içində olduğunu söylədi:** "O, dərin şok içindədir. Dəfn günü zəng etmişdi. Çox ağır vəziyyətdədir. Hamı kimi, Nərgizin ölümü Yadigar bəyə də ağır təsir bağışlayıb. Başsağlığını verdi. Tofiq bəyə əvvəlki kimi, mərd, möhkəm olmağını arzuladı".

❑ **Cavanşir ABBASLI**

# Təşəkkürlər, Amerika! Thank you, Obama!..

## Uzaq ABŞ qonşu və "tərəfdaş" Rusiya ilə müqayisədə Türkiyə və Azərbaycan üçün dar günün daha etibarlı müttəfiqi olduğunu təsdiqlədi...



**Biri qara, digəri isə işıqlı olmaqla 24 aprel yubileyləri arxada qaldı. Xüsusilə də son ay olduqca gərgin, əsəbi həftələr yaşadıq. İlk növbədə qardaş Türkiyənin siyasi-diplomatik, informasiya-təbliğat imkanları və bacarığı imtahana çəkildi. Bəzi uğursuzluqlar ciddiyə alınmazsa, Ankara bu imtahandan, hər halda, alnıaçıq çıxmağı bacardı.**

Ən azından dünyanın, beynəlxalq birliyin saxta erməni iddiasına münasibətdə əvvəl hansı mövqedə idisə, həmin mövqedə qalmasına nail olundu ki, bunu qardaş ölkənin real diplomatik-siyasi qələbəsi kimi qiymətləndirmək mümkündür.

Ermənilər əsas hədəflərinə çata bilmədilər. Əsas hədəf isə 100-cü ildönümə kimi dünya ölkələrinin əksəriyyətinin, ələlxüsus da Qərb dövlətlərinin, o sırada ABŞ-ın, İsrailin, habelə BMT-nin saxta soyqırımı tanımasına müyəssər olub Türkiyəyə qarşı maddi və torpaq təzminatı davası açmağa başlamaq idi.

Alınmadı, baş tutmadı. Roma papasının məlum bəyanatı da kara gəlmədi. Hətta həmin bəyanatdan sonra da aprelin 24-də İrəvana "genosid"i tanıyan 21 ölkədən vur-tut üç prezident yolladı *(Serbiya dövlət səviyyəsində iddianı tanımayıb)*.

Ən önəmlisi odur ki, ermənilərin arzusunu xeyli dərəcədə gözündə qoyan məhz ABŞ oldu. Ermənilər Amerikaya bağlı böyük ümidlər bəsləyir, Obama ilə ilgili müdhiş xəyallar, məkrli planlar qururdular. Türkiyəni ABŞ-ın köməyi ilə cəzalandırmaq xülyası ilə yaşayırdılar.

Ancaq nə saxta soyqırım sənədi Amerika Konqresinin gündəliyinə gətirildi, nə də Barak Obama "əzabkeş xalq"ın həsrətində olduğu "soyqırım" sözünü bircə dəfə işlətdi. Bununla da o, ermənilərin yubileyinin saxta olduğuna açıq işarə vurdu, Türkiyənin yanında yer aldı...

Türkiyənin yanında olmaq isə elə Azərbaycanın yanında olmaq deməkdir. Yeri gəlmişkən, Azərbaycanda faktiki, quruca səfirliyi qalmış ABŞ son vaxtlar mütəmadi şəkildə ölkənin rəsmi mediasında vurulur. Hədəf qismində də çox hallarda bilavasitə Amerika prezidenti Barak Obama götürülür.

Fəqət, Barak Hüseyn Obama saxta soyqırım məsələsində iqtidar mətbuatının adını belə çəkməyə qorxduğu, tərəfdaş adlandırılan Rusiyanın prezidenti Putinlə müqayisədə qat-qat kişiyana hərəkət elədi: Obama nəinki aprelin 24-də Putin kimi İrəvana yollanmadı, üstəlik, ora ən aşağı səviyyədə nümayəndə heyətini - maliyyə nazirini göndərdi, özü isə yenə Putindən fərqli olaraq "soyqırım" söyləmədi. Bu söz isə indi bir daha aydın olur ki, ermənilərə necə lazım imiş?

Obama onu ermənilərə çox gördü, 100 illikdə də onu dilinə gətirməməklə qardaş ölkəyə şəkk-şübhəsiz böyük, qiymətsiz yaxşılıq elədi. Öz sifətini saxladı. Axı ABŞ sıradan bir dövlət, Serbiya, yunan Kipri deyil. O, heç Rusiya da deyil. Qat-qat böyükdür, fövqəlgücdür, faktiki, dünyanın hakim-arbitridir. Bu üzdən onun, prezidentinin sözünün çəkisi də böyükdür, sanballıdır.

Amma bizdə hakimiyyət mediasından minnətdarlıq adına heç nə görmədik. Məlum, Türkiyə Amerika üçün bölgədə mühüm, vazkeçilməz ölkədir, İncirlikdə ABŞ hərbi bazası var, Türkiyə NATO-nun çox gərəkli üzvüdür. Amma məgər sanksiyalar məngənəsində sıxılan Rusiya üçün Türkiyənin önəmi azdı ki? Çoxmilyardlıq AES tikintisi, "Türk axını" qaz layihəsi, şimal qonşumuza hava-su kimi lazım olan iqtisadi-ticari əlaqələrin, turizmin inkişafı və s.

Di gəl, Rusiya son anda forpostu Ermənistanı seçdi, ABŞ isə - klassik müttəfiqi Türkiyəni.

Bununla bir daha bəlli oldu ki, Birləşmiş Ştatlar rəsmi Bakının, iqtidar KİV-lərinin hər addımda "tərəfdaş" saydığı Rusiya ilə müqayisədə Türkiyə üçün, Türkiyə timsalında isə Azərbaycan üçün dar günün daha etibarlı müttəfiqidir.

Doğru, dünyanın baş münsifi Amerika da qüsursuz deyil. Qarabağ məsələsində ondan gözləntilərimiz hələ ki qalır. Ancaq razılaşaq ki, konkret son məsələdə - mifik erməni məsələsində ABŞ özünü kifayət qədər ədalətli, ağayana apardı və qlobal arbitr roluna ən yaxşı iddiaçı olduğunu təsdiqlədi. Elə təkcə buna görə təşəkkürlər, ABŞ! Thank you, Obama!

❑ Z.SƏFƏROĞLU

# "Ana vətən - yavru vətən münasibətləri dəyişməlidir" - yeni prezidentin mövqeyi

## Quzey Kıbrıs Türk Cümhuriyyətinin yeni prezidenti Kıbrısı bütöv görmək istəyir

**Quzey Kıbrıs Türk Cümhuriyyətində keçirilən prezident seçkisinin ikinci turunu solçu Mustafa Akıncı qazanıb. Yüksək Seçki Qurumu Akıncının 60.17 səslə rəqibini geridə qoyaraq Quzey Kıbrısın prezidenti seçilməsini təsdiq edib. Onun rəqibi, sonuncu prezident Derviş Eroğlu isə səslərin 39.5 faizini toplaya bilib.**










Mustafa Akıncı seçki sonucları elan edildikdən sonrakı ilk açıqlamasında ölkədə yeni dönəmin başlandığını deyib: "Bu dönəmi vətəndaşlarla birlikdə başladırıq. Nə olursa-olsun, bir toplumda dəyişiklik zamanı gəldisə, onun qarşısını heç bir güc ala bilməz. Biz bu dəyişikliyi etməkdə qərarlıydıq və bu dəyişiklik oldu".

BBC yazır ki, "dəyişiklik və çözüm" şüarları ilə iqtidara gələn 68 yaşlı Mustafa Akıncı Türkiyə ilə münasibətlərə yenidən baxılmasının "ana vətən - yavru vətən" münasibətlərinin dəyişdirilməsinin tərəfdarıdır: "Kıbrıs türkləri öz ayaqları üzərində dayanmalıdırlar. Biz özümüz özümüzü idarə etməliyik".

Mustafa Akıncı Orta Doğu Texnik Universitetinin memarlıq fakültəsinin məzunudur. O, 1987-2001-ci illərdə Toplumçu Qurtuluş Partiyasına liderlik edib. 1993-2009-cu illərdə parlament üzvü olub. İndiyə qədər o, Quzey Kıbrıs Türk Cümhuriyyətinin paytaxtı Levkoşanın bələdiyyə başçısı, mədəniyyət naziri olub, baş nazirin müavini vəzifələrində çalışıb. Akıncı Quzey Kıbrısla yunanların tabeliyində olan Güney Kıbrısın birləşdirilməsinə yönəlik Annan planının aktiv dəstəkçilərindəndir.

O, 2000-ci ildə baş nazirin müavini olarkən koalisiya ortaqları ilə Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin Türkiyə Silahlı Qüvvələrinə bağlı Təhlükəsizlik Qüvvələrinin tabeliyindən alınması təşəbbüsü ilə çıxış edib.

O zaman Təhlükəsizlik Qüvvələrinin komandanı general Ali Nihat Özeyranlı bu təşəbbüsə qarşı çıxmışdı. Həmin günlərdə Akıncı general haqqında "komutan həddini aşdı. Kıbrıs türk xalqı özü özünü yönətmək iqtidarındadır, ən başda Türkiyə buna dəstək verməlidir" sözləri ilə gündəmə gəlmişdi.

Mustafa Akıncı prezident seçkisinə müstəqil namizəd kimi qatılıb. Ancaq birinci turda seçici yalnız 26,8 faiz səsini qazana bildiyi üçün ikinci tur keçirilməsi məcburiyyəti yaranıb.

❑ Aygün MURADXANLI

# Qazax elinin ömürlük sultanı



Xalid KAZIMLI

**Şərq incə məsələ-zad deyil, bunu kim deyibsə, düz deməyib. Şərq patavalı, zopalı, yoğun, qaba məsələdir. Dünyanın ən absurd işləri Asiyada, Şərqdə baş verir. Ən geridə qalmış adət-ənənələr, quruluşlar, rejimlər, müstəbidlər burdadır.**

Baxın, Finlandiya (eləcə də Hollandiya, Norveç, İsveç, Danimarka, Belçika, Avstriya və s.) Qərbdədir, son 25 ildə bu ölkədə azı 7 hakimiyyət dəyişib, Qazaxıstanın sultanı isə heç dəyişməyib - Nursultan.

Adam baş nazir kürsüsünə 31 il əvvəl, 1984-cü ildə oturub. Odu-budu, yeri başdadır. Arada o, Qazaxıstanın Ali Sovetinin 13-cü sədri, paralel olaraq Qazaxıstan Kommunist Partiyasının Mərkəzi Komitəsinin 13-cü birinci katibi olub. 25 ildir də prezidentdir.

Axırıncı dəfə o, srağagün yenidən seçilib. Seçicilərdən 97 faiz səs alıb. Deyilənə görə, ölkədəki seçicilərin 95 faizi seçkidə iştirak edibmiş.

Qərblə Şərqin bir fərqi də budur. Avropada nadir hallarda seçkilərdə 50 faizdən artıq seçici seçkilərə qatılar. Əslində isə seçki Avropada maraqlıdır, seçici bilir ki, səsverməyə gedib səs verəndə dəyişiklik görə bilər. Seçilənin öncədən bəlli olduğunu bilə-bilə millətin 95 faizi niyə məntəqələrə axışsın ki?

Avropada seçkidə iştirak edənlər isə heç vaxt bir siyasi liderə birinci turda 50 faizdən çox səs verməzlər. Məsələ adətən ikinci turda həll olunur. Səslər seçkiyə qatılan namizədlər (tutaq ki, 6-8 şəxs) arasında elə bölünür ki, ən çox səs alan iki namizəd seçkilərin ikinci turuna keçir və kimin xalqdan daha çox səs aldığı o zaman məlum olur. Şərqdə alternativ namizədlər adətən 1-2 faiz səs alırlar. Onu da onlara minnətlə yazırlar, bəzən birini aşağılayıb qəsdən açıq autsayderdən də aşağıya qoyurlar.

Daha bir məqam: iki müddət hakimiyyətdə olmuş qüvvə (lider) ağzıyla qış tutsa da, xalqdan səs alıb üçüncü müddətə seçilə bilməz. Bu, çox nadir, müstəsna haldır. Əksər hallarda hər partiya, hər lider cəmi bir dəfə hakimiyyət olimpinin zirvəsində olur.

Şərqdə isə hakim partiyaların hakimiyyət dövrü də ömürlükdür, hökmdarların hökmranlığı da. Burada hakimiyyətlər yalnız o vaxt dəyişir ki, inqilablar, çevrilişlər, sui-qəsdlər oldun və ya birinci şəxs öz əcəli ilə dünyasını dəyişsin.

Şərq ölkələrinin tam əksəriyyətində seçki-filan formal prosedurdur, dövlət büdcəsi üçün izafi xərcdən başqa bir şey deyil.

Bir halda ki, hakimiyyətdə olan qüvvə öz dövranını nəyin bahasına olursa-olsun, daha bir müddət uzadacaq və seçilənin kimliyi seçkilərdən çox-çox öncədən bəllidir, ona seçki demək olarmı?

Şərqdəki seçkilərdə hökmdarın qazanacağı səs faizi də öncədən bəlli olur. Rəsmi təbliğatçılar hətta bu rüsvayçı "öncəgörmə"ni seçkilərdən əvvəl qürur duyaduya bəyan edirlər.

Nazarbayevin qazandığı 97 faiz səs bu regionda heç kəsi təəccübləndirmir. Şərq belə göstəricilərə alışıqdır.

Deyilə bilər ki, Azərbaycanda elə deyil, burada artıq seçilənlər seçənlərdən 95-97 faiz səs almırlar. Düzdür. Amma 75-77 faiz səs "alırlar" və bunun hakim partiyanın və hökmdarın seçilməsinə istisi-soyuğu olmur.

Qərbdə belə rəqəmlər gülüş doğurur. Avropa dövlətlərinin siyasiləri də, siyasətşünasları və siyasətlə maraqlananları da Nazarbayev kimilərinin səs faizini istehzalı təbəssümlə qarşılayırlar. Onlar işin nə yerdə olduğunu, bu 97 faizin nə məna verdiyini ovuclarının içi kimi bilirlər. Ancaq heç vaxt 97 faiz səs qamarlayan hökmdara "sən diktatorsan, keçirdiyin seçki də başdan-başa saxtadır" demirlər, uzağı "seçkilər Avropa standartlarına uyğun olmayıb, ciddi pozuntular olub" deyirlər, seçilən şəxslərin legitimliyini müvəqqəti olaraq şübhə altına alırlar, daha sonra enerji layihələrində əməkdaşlıq edirlər.

Şərqdə hakimiyyətdən doymaq, vəzifədən könüllü əl çəkmək söhbəti yoxdur. 80 yaşlı Nazarbayev 2020-ci ildə də seçiləcək, 85 yaşı olanda (2025-də) da. Ömrü çatsa 2030-da da.

Dünya ölümlü dünyadır, bunu Nazarbayev də bilir, öləcəyini biləndə o, hakimiyyəti ən əziz adamına verəcək. Bu, onun bioloji varisi də ola bilər, siyasi varisi də.

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015




# Hadı Rəcəblidən Azərbaycan türklərinə həqarət

## Deputat vətən xaininə "talış deyil, Lerikin türklər yaşayan kəndindəndir" dedi və ...

**1993-cü ildə Azərbaycanın cənub zonasında "Talış-Muğan Respublikası" elan edən, bir müddət həbsdə qaldıqdan sonra vətəndaşlıqdan məhrum edilərək ölkədən deportasiya olunan Ələkrəm Hümmətov dünya ermənilərinin ünvanına müraciətlə çıxış edib. Özünü "Talış-Muğan Respublikası"nın prezidenti adlandıran separatçı Ələkrəm Hümmətov ermənilərə müraciətində qondarma "soyqırım" ilə əlaqədar başsağlığı verib: "Bu gün, erməni xalqı üçün belə bir gündə biz talışlar, sizinlə bərabər kədərlənirik. Qoy yaradan sizə daha belə ağır sınaqlar göndərməsin!"**

O, erməni - **talış dostluğundan da danışıb:** "Allah erməni xalqına səbir versin! Qoy bizim erməni-talış dostluğumuzun təntənəsini qeyd edəcəyimiz gün gəlib çatsın. Talış xalqı bu gün sizinlədir, bizim qardaş erməni xalqımız! Yaşasın erməni-talış dostluğu! Yaşasın erməni xalqı! Yaşasın Böyük Ermənistan!"

**O, həmçinin Azərbaycanın ünvanına da ittihamlar səsləndirib:** "Biz talışlar bu qəbildən olan vəhşiliklərdən xəbərdarıq. Biz onunla elə bu gündə qarşılaşırıq. Azərbaycan Respublikasında bizimlə də belə davranıblar! Bizim minlərlə sadiq oğullarımız Azərbaycan MTN-in divarları arasında işgəncələrlə məhv edilib! Talışlar elə indi də öz doğma torpaqlarında qul vəziyyətində yaşayırlar!".

Azərbaycanın cənub zonasının ziyalıları isə Ələkrəm Hümmətovun bu fikirlərinə sərt münasibət göstəriblər. Bu barədə saytımızda yazı gedib.

Cənub bölgəsindən olan, milliyyətcə talış olan deputat, parlamentin sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli isə mövzu ilə bağlı qalmaqallı açıqlama verib. O deyib ki, Ə.Hümmətovun talışların adından danışmağa haqqı yoxdur və "... o, ümumiyyətlə, milliyyətcə talış deyil, Lerikin türklər yaşayan kəndindəndir". H.Rəcəbli qeyd edib ki, bütün hallarda Azərbaycan xalqı, xüsusilə də cənub bölgəsi Ə.Hümmətovu qəbul etmir: "Bu gün Azərbaycanın Əkrəm Əylislisi də var, Ələkrəm Hümmətovu da var. Bu insanları ilk gündən Azərbaycan cəmiyyəti qəbul eləməyib. Bu adamlar bizim üçün xəyanətkardır. Ələkrəm Hümmətovdan hələ soruşmaq lazımdır ki, talışca bilir ya yox?.."

**Bizim şərh:** Hesab edirik ki, hörmətli Hadı müəllim bu mövqeyi ilə yenidən ciddi bir yanlışa imza atıb. Ə.Hümmətovu "türkləşdirmək", türk olduğu şübhə doğurmayan Əkrəm Əylislini də onunla eyniləşdirmək, onların xəyanətini "türklüyünə" bağlamaq qətiyyən doğru deyil və Azərbaycanın bütövlük konsepsiyasına ziddir. Ə. Hümmətov vətən xainidir, ermənidən də betərdir və belə birisinə götürüb "türk kəndindəndir" demək, Azərbaycanın türkəsilli əhalisinə həqarətdir. Ümid edirik ki, deputat H. Rəcəbli növbəti yanlış mövqeyini ən qısa zamanda düzəldəcək və Ə. Hümmətovun ünvanına onun layiq olduğu ifadələri səsləndirəcək.

Eyni zamanda bu məsələyə heç dəxli olmadan yazıçı Əkrəm Əylislini də əlavə etmək deputatın məkrli niyyətindən xəbər verir. Yəni Hadı Rəcəbli demək istəyir ki, xain də, xəyanətkar da türklərdən çıxıb, onların talışlara heç bir dəxli yoxdur.

Azərbaycanın çörəyini yeyən, burada yüksək vəzifələr tutan, deputat seçilən, oliqarx kimi böyük sərvətlərə malik olan birisinin bu mövqeyi yolverilməzdir və qətiyyən Ə. Hümmətovun yanaşmasından fərqlənmir. Sadəcə, ifadələr fərqlidir. (musavat.com).

**Ə.Hümbətovun fikirləri ilə bağlı cənub bölgəsindən olan ziyalılar və siyasətçilər hiddətlərini və etirazlarını bildiriblər. Müsavat Partiyasının Astara rayon təşkilatının sədri Tarif Əliyev məsələ ilə bağlı bildirib ki, Ələkrəm Hümbətovun fikirlərini talış xalqının fikri kimi önə çıxarmaq lazım deyil:** "Azərbaycanda talış-türk problemi yoxdur. Bizim bir problemimiz var, o da hakimiyyət problemidir. Kimsə bir fərd olaraq milli maraqlarımıza ziyan vurursa, milli maraqları aşağılayarsa, bunu həmin fərdin ayağına yazmaq lazımdır. Bir nəfərin fikri bir xalqın ayağına yazılmaz. Bunu düzgün hesab etmirəm. Bizdə yeganə problem hakimiyyət problemidir. Milli zəmində problemimiz yoxdur".

**Cənub bölgəsində Müsavat Partiyasının veteran qurucularından olan Asən Həşimli isə bildirib ki, Ə.Hümmətovun dedikləri növbəti uydurmadır:** "Onun özünü yenidən gündəmə saxlamaq üçün səsləndirdiyi yalanlardır. Bu mövqeyi, mesajı ilə yenidən Azərbaycanın siyasi gündəminə düşmək istəyir. Talışların ermənilərlə nə qardaşlığı, nə dostluğu, nə də ortaq mövqeyi ola bilər. Bütün bölgələr kimi, talış bölgəsi də eyni həyat tərzini yaşayır. Problemlərin həlli baxımından da eyni mövqedədir".

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin qardaşı, Azərbaycan Milli Məclisinin deputatı Cavanşir Paşazadə, Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzrə nümayəndəsi Hacı Qəni Axundzadə (Sədi), həmçinin Müsavat Partiyasının üzvü Əlövsət Talışxanlı, Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı da Ə.Hümmətovun dediklərinə münasibət bildirərək onun fikirlərinə etiraz ediblər.

❑ RÖYA

# "Şahin Sultanov cinayətləri Səfər Əbiyevin himayəsi altında həyata keçirib"







## Hüquq müdafiəçisi vitse-admiralın ekoloji cinayətini açıqladı; Bəxtiyar Məmmədov: "Onun razılığı ilə 1 ton 800 yüz kiloqram "ŞZ" markalı partlayıcı maddələr brakonyerlərə satılıb"

**"İnamla Hüquq" MMC-nin direktoru Bəxtiyar Məmmədov hazırda Bakı Hərbi Məhkəməsində məhkəməsi davam etdirilən Hərbi Dəniz Qüvvələrinin (HDQ) vitse-admiralı Şahin Sultanovun bəraət almaq istəyində olduğunu deyib. Bildirib ki, apardığı araşdırmalar zamanı Ş.Sultanov və digər vəzifəli şəxslərin törətdiyi - ictimaiyyətin, cəmiyyətin və hüquq-mühafizə orqanlarının bu günə qədər bilmədikləri cinayətlər üzə çıxıb.**

B.Məmmədov deyir ki, Telman Sultanov adlı zabit HDQ-nin "N" saylı silah anbarında vəzifəni təhvil verib, komandanının arxa cəbhə üzrə müavini vəzifəsini qəbul edərkən əvvəlki xidmət yerində 1 ton 800 yüz kiloqram "ŞZ" markalı partlayıcı maddənin çatışmazlığını aşkar edib. Ş.Sultanov vəzifə borcuna uyğun olaraq cinayət işi başlanması məqsədi ilə sənədləri təhqiqat orqanına və hərbi prokurorluğa göndərmək əvəzinə bu cinayət faktının ört-basdır edilməsi tapşırığını verib: "Bu ört-basdırdan sonra isə Şahin Sultanov adıçəkilən Telman Sultanovu özünə arxa cəbhə üzrə müavin təyin etdirib. Çatışmayan 1 ton 800 yüz kiloqram "ŞZ" markalı partlayıcı maddələr isə Şahin Sultanovun özünün razılığı və göstərişi əsasında müxtəlif vaxtlarda Abşeron yarımadasında qanunsuz fəaliyyət göstərən və balıq ovu ilə məşğul olan brakonyerlərə satılıb. Sonrakı müddətlərdə MN tərəfindən HDQ Silah Anbarında yoxlamalar aparılarkən çatışmazlığı gizlətmək məqsədilə HDQ-yə məxsus digər anbarlardan partlayıcı maddələr müvəqqəti olaraq daşınaraq komissiya göstərilərək, yeni cinayətlər törədilib. Şahin Sultanov cinayətləri Səfər Əbiyevin himayəsi altında həyata keçirib".



**B.Məmmədov deyir ki, brakonyerlər Ş.Sultanovun razılığı ilə satılan həmin partlayıcı maddələrdən istifadə etməklə Xəzər dənizində ekoloji cinayətlər törədiblər, kütləvi balıq qırğınına nail olublar:** "Heç kim də deyə bilməz ki, gələcəkdə həmin partlayıcı maddələr istənilən vaxt naşı əllərə düşməyəcək, yaxud da ölkəmizdə vətənimizi sevməyən qrupların əlinə keçməyəcək. Bir çox ölüm hadisələri baş verməyəcək və terror hadisələri törədilməyəcək. Bütün bunlardan sonra Şahin Sultanov bəraət almaq arzusu ilə yaşayır. O, HDQ-yə məxsus, Əhmədlidə yerləşən "N" saylı anbarın ərazisini tabeçiliyində xidmət edən onadək hərbi qulluqçu ailəsinə rüşvət almaqla satıb, həmin şəxslər də orada ev tikiblər. Onlardan misal olaraq HDQ avtomobil anbar rəisi Əşrəf adlı baş miçmanı, yanacaq anbarının rəisi Qulu Quliyevi və ehtiyat hissələr anbarının rəisi Amid Rzayevi göstərmək olar. Bu şəxslərə qanunsuz şəkildə MN-in balansında olan torpaq sahələrini rüşvət alaraq satmaqda Şahin Sultanov dövlət əmlakını talayıb. Şahin Sultanovun və digər şəxslərin yuxarıda sadaladığım və bu günə qədər ictimaiyyətin, hüquq-mühafizə orqanlarının məlumatsız olduğu bu cinayət əməlləri CM-in 309, 311,312, 313, 348 və 349-cu maddələrinin təsirinə düşür. Şübhəsiz ki, bütün bu cinayət əməllərini Şahin Sultanov hazırda adı bir çox cinayətlərdə, o cümlədən mərhum polkovnik C.Rüstəmovun qətlində sifarişçi kimi hallanan sabiq müdafiə naziri Səfər Əbiyevin himayəsi altında həyata keçirib. Bu gün Şahin Sultanov hər yerdə "məni Rusiya Prezidenti Vladimir Putin tapşırıb" kimi şayiələr yaymaqla istintaq orqanlarını və ictimaiyyəti çaşdırmaq məqsədini güdür".

**B.Məmmədov Ş.Sultanovun azad olunması ilə bağlı maraqlı fikirlər işlədib:** "Onu ev dustaqlığına buraxdılar və Fəxri Xiyabanı ziyarət edən zaman yanında Rusiyada vəkillik fəaliyyəti ilə məşğul olan, hazırda Rusiya Federasiyasının Ali Məhkəmə sədrinin tələbə yoldaşı Tatyana Sultanova vardı. Sultanovun azad edilməsində onun xüsusi rolu var. Putin barədə sızdırılan şayiələr isə Şahin Sultanov tərəfindən piar məqsədilə dövriyyəyə buraxılıb. Ş.Sultanov, onunla bərabər cinayətlər törətmiş HDQ-nin sabiq qərargah rəisi Y.Məmmədov, baza komandiri S.Hüseynov və digər təqsirləndirilən şəxslər bu gün Bakı şəhərinin mərkəzi küçələrində vurnuxurlar. Ev dustaqlığında olan Y.Məmmədov tez-tez Bayıl qəsəbəsində görünür, S.Hüseynov Kukla Teatrının ətrafında dolaşaraq dəniz havası udur. Ş.Sultanov isə ev dustaqlığında olan təqsirləndirilən şəxslərlə görüşərək onları dövlətdən oğurladığı pullarla ələ alır, təzyiqlər edir, "üzə durmayın, mən tezliklə bəraət alacam və hamınızı qurtaracam" tipli vədlər verir. İnzibati orqanların bu faktları araşdırmaq məqsədləri olsa, qeyd etdiyim ünvanlarda müşahidə kameralarını təftiş etmələri kifayətdir. Onda sual olunur? Belə olduğu halda Bakı Hərbi Məhkəməsində aparılan məhkəmə zamanı hansı real məhkəmə istintaqından söhbət gedə bilər?"

B.Məmmədov Hərbi Prokurorluğa müraciət edərək sadalanan cinayət faktlarının araşdırılmasını istəyib.

Qeyd edək ki, ötən ilin aprelində həbs olunan Ş.Sultanov və başqaları 2 ay sonra Bakı Hərbi Məhkəməsinin qərarı ilə ev dustaqlığına buraxılıblar.

Respublika Hərbi Prokurorluğunun yaydığı məlumata görə, HDQ-də aparılan yoxlamalar zamanı qanun pozuntuları aşkar edilib. Aşkarlanmış qanun pozuntuları ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Qanunazidd əməlləri törətməkdə təqsirli bilinən bir neçə nəfər, həmçinin HDQ-nin sabiq komandanı, vitse-admiral Şahin Sultanov təqsirləndirilən şəxs qismində cəlb edilməklə, Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında aprelin 23-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Ş.Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirli bilinir.

❑ E.HÜSEYNOV



# Qarabağ üçün yubiley dərsləri

## Türkiyə və Azərbaycan işğal və "soyqırım" məsələləri ətrafında yeni reallıqla üz-üzədir; Bakı və Ankara artıq daha çevik və sinxron siyasət yürütməli olacaq; ABŞ başda olmaqla, "genosid" sınağından uğurla çıxmış ölkələrə stavka arta bilər...

**ATƏT-in Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağa dair ədalətli sülhün əlçatmaz olduğu ötən həftə saxta erməni soyqırımı törənlərindən növbəti dəfə bəlli oldu. Minsk Qrupunun üç həmsədrindən ikisinin - Fransa və Rusiya prezidentlərinin aprelin 24-də İrəvana səfər edərək işğalçı ölkənin prezidentinin yanında durmaları, qardaş əsas strateji müttəfiqimiz Türkiyəni soyqırım kimi ağır bəşəri cinayətdə suçlamaları, həmçinin, prezident Fransua Ollandın nəticəsiz Bakı səfəri belə qənaət yaradır ki, danışıqlar prosesində durğunluq zolağı yaxın zamanlarda da davam edəcək.**

Şübhəsiz ki, Türkiyəyə qarşı yönələn ittihamlar həm də Azərbaycana ünvanlanıb. Eyni zamanda qardaş ölkənin Qarabağ probleminin həllində rolunun zəiflədilməsinə, sülh prosesindən uzaqlaşdırılmasına və bu fonda Bakını ərazilərimizin, Dağlıq Qarabağın itirilməsi ilə daha tez barışdırmağa hesablanıb.

Deyilə bilər ki, Rusiya konfliktin hətta Ermənistanın xeyrinə həllində də maraqlı deyil, çünki o halda da Azərbaycanla Ermənistan onun nəzarətindən çıxa bilər. İlk baxışda belədir. Ancaq Azərbaycan üçün nə fərqi: gerçək bundan ibarətdir ki, Moskva özünün yaratdığı və illərdir körüklədiyi bir münaqişəni çözməyə həvəsli deyil - hərgah buna imkanları həmişə olub, indi də qalır. Kreml münaqişənin tarixin arxivinə tezliklə verilməsini istəmir və bacardıqca ermənilərlə Azərbaycan və Türkiyə arasında düşmənçilik münasibətlərinin qalmasına səy edir. Putin və Ollandın İrəvan səfərinin fəlsəfəsi məhz bu idi - bölgədə barış atmosferinə, qarşılıqlı inteqrasiyaya, inkişafa mane olmaq.

***

**Əlbəttə ki, rəsmi Ankara da bunun fərqindədir. Təsadüfi deyil ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan hər iki prezidentin aprelin 24-dəki saxta soyqırımla bağlı İrəvan mərasimlərində iştirakına münasibət bildirərkən deyib:** "Putin və Olland Ermənistana səfər edərək düşmənçiliyin tərəfində yer aldılar. Biz istərdik ki, onlar Ermənistana getməsinlər. Biz Çanaqqalada Ermənistana qarşı hər hansı cavab vermədik, belə bir addım atmadıq. Ora 2 dövlət başçısı getdi, həmd olsun, bizə 20 prezident gəldi".

Prezident ardınca bəyan edib ki, Türkiyə dünyaya sülh mesajı vermək üçün mücadilə edərkən Rusiya, Fransa, Almaniya və Avstriya kimi ölkələr ermənilərin yalanları üzərində inşa edilmiş bir iddiaya dəstək verərək kinin, nifrətin, düşmənçiliyin tərəfində yer almış oldular.

24 aprel "genosid" törənlərinin Türkiyə və Azərbaycan üçün ən böyük ibrət dərsi əslində budur: dünyadakı, ətrafımızdakı bəzi qlobal güclər, antitürk mərkəzləri bundan sonra da "erməni" dəyənəyindən iki qardaş ölkəyə qarşı istifadə etmək, düşmənçiliyi saxlamaq fikrindədir - Türkiyə hər zaman öz arxivlərini açmağa hazır olduğunu bəyan edib, regionda ədalətli barış formulunun sadə yolunu göstərsə də.

**Bu xüsusda Türkiyənin baş naziri Əhməd Davudoğlunun bəyanatı da mühüm önəm daşıyır. Baş nazir deyib:** "Biz hər zaman arxivlərimizi açmağa hazır olduğumuzu söyləmişik. Kim bizimlə danışmaq istəyirsə, buyursun. Çanaqqalada olduğu kimi, biz başımızı verərik, amma baş əymərik..." Baş nazir həmçinin qardaş ölkə əleyhinə qərar verən ölkələri Srebrenitsada, Xocalıda törədilmiş soyqırım cinayətlərinə münasibət bildirməyə çağırıb: "Türkiyənin əleyhinə qərar verənlər Qafqazda soyqırıma məruz qalaraq Anadoluya köçmək məcburiyyətində qalan abxazlardan, çeçenlərdən, Ahıska türklərindən, gürcülərdən danışsınlar. Yaxın tarixdə Srebrenitsa və Xocalıda baş vermiş soyqırımların hesabını versinlər".

***

Çanaqqala və İrəvandakı 100 illik yubiley mərasimləri bir sərt həqiqəti çılpaq şəkildə ortaya qoydu: Türkiyə və Azərbaycan iki qardaş dövlət olaraq Dağlıq Qarabağ və "soyqırım" məsələləri ətrafında yeni reallıqlardan çıxış edib bundan sonra qat-qat çevik ortaq və sinxron siyasət qurmalı, bir-birinə daha sıx sarılmalıdır. Və nəcə ki, Ankara Ermənistanla əlaqələrin normallaşmasının əsas şərti kimi Azərbaycan ərazilərinin azad olunmasını qoyur, eləcə də rəsmi Bakı Dağlıq Qarabağ azad edilsə belə, İrəvanla qonşuluq münasibətlərinin bərqərar edilməsinin baş şərti olaraq Ermənistanın Türkiyəyə qarşı "soyqırım" iddialarından vaz keçməsi tələbini irəli sürməlidir.



Ayrı sözlə, "Türkiyənin dərdi Azərbaycanın, Azərbaycanın dərdi isə Türkiyənindir" kursunu hər addımda dünyaya çatdırmaq, Türkiyəni bölgədəki açar proseslərdən kənarda saxlamaq planlarını pozmaq lazımdır. Unutmayaq, bu planların əsas hədəfi şübhə yox ki, Azərbaycanı Türkiyədən aralayıb ona istənilən şərti, o cümlədən təslimçi sülhü qəbul etdirməkdir.

***

**Belə bir praqmatik yanaşmanı son olaraq Türkiyənin Avropa Birliyi üzrə naziri Volkan Bozkır bu cür dilə gətirib. Sitat:** "Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından çıxmalıdır. Yalnız bundan sonra Türkiyə ilə Ermənistan arasında münasibətlərin yaxşılaşmasından söhbət gedə bilər. Ermənistanla yaxınlaşma bu ölkənin 1915-ci hadisələrini beynəlxalq aləmdə "soyqırım" adlandırmaqdan çəkinməsindən və Dağlıq Qarabağdan və ətraf ərazilərdən qoşunları çıxarmasından sonra mümkündür. Yalnız bundan sonra iki ölkə arasında münasibətlərin normallaşmasından söhbət gedə bilər".

Yada salaq ki, az öncə prezident Rəcəb Tayyib Ərdoğan eyni çağırışda bulunmuş, Ermənistanla münasibətlərin normallaşması üçün "öncə Qarabağ azad edilməlidir" söyləmişdi.

***

Bakı və Ankara şübhə yox ki, yubileylər sınağından uğurla çıxmış ölkələrə yeni mərhələdə daha böyük önəm verəsi, stavka edəsi olacaq. Hər halda, dost-tərəfdaşlar və rəqib-düşmənlər bir daha dəqiqləşib, səf-nəzər olub. Antaqonist yubileylərin bir faydası bu oldu.

Söhbət ilk növbədə dünyanın münsifi rolunda olan ABŞ-dan, habelə, Böyük Britaniya, qonşu ölkələrdən İran və 24 apreldə İrəvana yalnız parlamentin vitse-spikerini yollayan Gürcüstandan gedir. Onlar Azərbaycan və Türkiyə qarşısında öz "sifətlərini" qoruya bildilər.

Bu sıraya prezidenti "soyqırım" desə də, parlamenti (Bundestaq) son anda saxta məsələnin müzakirəsindən vaz keçən, İrəvana nə prezidenti, nə də baş naziri ayaq basmayan Almaniyanı da əlavə eləmək mümkündür. Rəsmi Berlin, Almaniya hökuməti hər necə olmasa, Qarabağ məsələsində ədalətli mövqeyini qoruyub saxlayır və bu, ona Minsk Qrupu həmsədrliyində yeni "beşlik" formatında iştirak şansını təmin edə bilər.



# Serj Sərkisyana "Qarabağdan çıx!" tələbi

## Avropa Şurası: "Hərbi birləşmələr tezliklə zonadan çıxarılmalıdır..."

**Hazırda Dağlıq Qarabağ münaqişəsinin tərəfləri olan Ermənistana və Azərbaycana təmas xəttində toqquşmaları dayandırmaq və hərbi mövcudluğu geri çəkməklə bağlı tələb irəli sürülüb (anspress). Bu barədə hazırda Avropa Şurası Nazirlər Komitəsinə rəhbərlik edən Belçikanın xarici işlər naziri Didye Reynders erməni mətbuatının nümayəndələri ilə söhbəti zamanı bildirib.**

Didyenin "hərbi mövcudluğu geri çəkmək" ifadəsi məhz Ermənistana ünvanlanıb, çünki diplomatik dildə bu, işğalçı qoşunların hüquqi cəhətdən Azərbaycana aid olan zonanı tərk etməsi anlamındadır. "Sonra əhalinin qəbul edəcəyi qərara nail olmaq lazımdır", - deyə Belçika XİN başçısı bildirib.

Onun sözlərinə görə, Dağlıq Qarabağ konfliktinin nizamlanması missiyası ATƏT-in Minsk Qrupunun üzərinə düşür. Qrup çərçivəsində aparılan danışıqlar nəticəsində münaqişənin "Madrid prinsipləri" əsasında həlli nəzərdə tutulur. Bu prinsiplərə görə, ilk öncə Ermənistan işğalçı ordusunu Azərbaycan ərazilərindən çıxarmalıdır.

Daha sonra isə konflikt "Helsinki xartiyası" əsasında, yeni Azərbaycanın ərazi bütövlüyünün saxlanması və Dağlıq Qarabağ ermənilərinin öz taleyini təyin etmək hüququna riayət etməklə həll edilməlidir. Bu, Dağlıq Qarabağın Azərbaycan sərhədləri daxilində ən yüksək muxtariyyəti deməkdir ki, Ermənistan bununla razılaşmaq istəmir.

Xatırladaq ki, Avropa Şurası Parlament Assambleyası bir neçə il öncə Ermənistanı işğalçı kimi tanıyan və zəbt edilmiş Azərbaycan ərazilərindən onun çıxmasını tələb edən qətnamə qəbul edib. Təəssüf ki, BMT-nin Qarabağa dair qətnamələri kimi, bu sənədə də əməl edilmir.

# Vurğun Əyyub Müsavat rəhbərliyinə meydan oxudu

## Elman Fəttah: "O, heç bir əsas olmadan özündən xoflanır"

**Müsavat Partiyası Məclisinin sabiq üzvü, Azərbaycan Demokratiya və Rifah Hərəkatının sədr müavini Vurğun Əyyub "Reytinq" qəzetinə müsahibəsində üzvü olduğu Müsavat Partiyasının rəhbərliyinə meydan oxuyub. V.Əyyub bildirib ki, qurultaydan bəri onu partiyadan uzaqlaşdırmağa cəhd göstərilib, amma rayon təşkilatlarının üzvləri tərəfindən bu cəhdlərin qarşısı alınıb: "Hesab edirəm ki, məni partiyadan uzaqlaşdırmaq elə də asan məsələ deyil.**

Bu fikrə düşənlər unutmamalıdırlar ki, Vurğun Əyyub Müsavat Partiyasının bərpa mərkəzinin üzvlərindən biridir. Bir də mən hesab etmirəm ki, müsavatçılıq ancaq Müsavat adında partiyanın üzvü olmaqla ölçülür".

**V.Əyyub Müsavatın hazırkı rəhbərliyinin legitimliyini tanımadığını yenidən bəyan edib, eyni zamanda deyib ki, deputatlığa namizədlərin Müsavat Partiyası qarşısında öhdəlik götürməsinin tələb olunduğu təlimat mənasız sənəddir:** "Mən Müsavatın indiki rəhbərliyini legitim hesab etmirəm. Ona görə də onların verdiyi qərarlar məni maraqlandırmır. Hər bir partiya üzvü partiyaya qəbul olunarkən üzərinə öhdəlik götürmüş olur. Ona görə də mən həmin təlimatı mənasız bir sənəd hesab edirəm və ona əməl etmək niyyətim yoxdur".

**Müsavat başqanının müavini Elman Fəttah isə "Yeni Müsavat"a açıqlamasında Vurğun Əyyubun əsassız yerə xoflandığını bildirdi:** "Vurğun Əyyub heç bir əsas olmadan özündən xoflanır. Vurğun Əyyubun partiyadan çıxarılması kimi məsələ partiyada müzakirə mövzusu deyil. Vurğun Əyyub Müsavatın minlərlə sıravi üzvündən biridir. Onun özündən müştəbeh şəkildə partiyadakı nüfuzu ilə bağlı şişirtmələri də əsası olmayan müştəbehlikdən irəli gəlir. Müsavat Partiyası nizamnamə ilə



Elman Fəttah



Vurğun Əyyub

idarə olunur və nizamnamədə göstərilməyib ki, kimsə keçmişdə hansısa müsbət bir işin iştirakçısı olubsa sonradan nizamnaməni pozmasına göz yumulmalıdır. Nizamnamə pozuntusuna yol verən partiya üzvünün məsələsi partiyanın rayon təşkilatında müzakirə edilir, məsələ orada aydınlaşdırılır, uyğun olsa partiyanın mərkəzi orqanlarına şikayət ünvanlanır və məsələ orada araşdırılaraq müvafiq qərar verilir. Vurğun Əyyubun nizamnamə pozuntusu törədib-törətmədiyi nə vaxtsa partiyanın müvafiq rayon təşkilatında və partiyanın strukturlarının hər hansı birində müzakirəyə çıxarılacaqsa, nəticəsindən asılı olaraq biz buna münasibət bildirərik. Bu isə mən bilən yoxdur. Yəni Vurğun Əyyubun xoflanmasına əsas yoxdur".

**E.Fəttah onu da dedi ki, Vurğun Əyyub tək deyil, onun kimi bir neçə nəfər də var ki, Müsavatın Nizamnaməsinin və rəhbərliyinin demokratikliyindən sui-istifadə etməklə məşğuldurlar:** "Həmin şəxslər Müsavat üzvü olduqlarını iddia edərək bütün fəaliyyətlərini Müsavata qarşı yönəltməkdə davam edirlər. Bu mənəvi məsələdir. Müsavatın Nizamnaməsində var ki, üzvlər partiyanın strukturlarının qərarlarını tənqid edə bilərlər. Görünür, bu maddənin istisması ilə məşğul olan bir neçə nəfərdən biri də Vurğun bəydir. Uğurlar olsun".

❑ **Etibar SEYİDAĞA**



# Etibar Məmmədov Ukraynada olub

**AMİP lideri, Beynəlxalq Demokrat İttifaqının sədr müavini Etibar Məmmədov Kiyevdə səfərdə olub. Dünən Bakıya dönən Etibar Məmmədov Ukrayna Patriot Partiyasının qurultayında iştirak edib. AMİP-dən verilən xəbərə görə, qurultayda Etibar Məmmədov təbrik çıxışı edib.**

O bildirib ki, milli tarix və əxlaqi dəyərlərdən yayınmaq bir çox dövlətlərin, millətlərin zəifləməsinə, müstəqilliyinin itirilməsinə, qardaş qırğını ilə müşahidə olunan müharibələrə gətirib çıxarıb. Effektli dəyişikliklər etmək üçün partiyaların hər bir üzvünün patriot olması vacibdir. Yalnız Ukraynanın əsil patriotları hər bir əzaba dözüb ölkəni bugünkü çətin vəziyyətdən çıxarda bilərlər. O deyib ki, Patriot Partiyası həqiqətən də bu istiqamətdə doğru yol tutan partiyadır. E.Məmmədov qeyd edib ki, Ukrayna özünün tarixi kökləri, qədim adət-ənənələri olan bir Avropa dövlətidir: "Bu qurultayda iştirak edərək əmin oldum ki, bu zalda həm adına, həm də mahiyyətinə görə Ukraynanın əsil patriotları cəmləşiblər və icazə verin partiyanızın həyatında əlamətdar hadisə olan qurultayınızın keçirilməsi münasibətilə sizləri təbrik edim və partiyanın sədrinə, bütün üzvlərinə qarşılarına qoyduqları məqsədlərinə çatmaqda uğurlar arzulayıram".

Patriot Partiyasının sədri Mikola Yaroslavoviç Qolomşa təbrikə görə E. Məmmədova təşəkkür edərək bildirib ki, AMİP-lə Patriot Partiyasının arasında istər ikitərəfli, istərsə də gələcəkdə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq davam edəcək.

E.Məmmədovu Kiyev səfərində AMİP beynəlxalq əlaqələr katibi Elşən Mustafayev müşayiət edib.

❑ **E.SEYİDAĞA**

# Razi Nurullayev MŞ-dən çıxarıldı

## "Milli Şuranın dəfn prosesi gedir, Milli Şura artıq narazı kəsimin iradəsini təmsil edə bilməz"

**Aprelin 26-da Milli Şuranın sessiyası keçirilib. Sessiyada AXCP-dən edilən müraciət əsasında Razi Nurullayev Milli Şura üzvlüyündən xaric edilib. Milli Şuradan xaric edilməsinə Razi Nurullayevin münasibətini öyrəndik. O qeyd etdi ki, xaric ediləcəyi gözlənilən idi: "Bilirdim ki, oradan uzaqlaşdırılmağımla bağlı Azərbaycan Xalq Cəbhəsi Partiyasının təqdimatı olacaq, bunu gözləyirdim. Düşünürdüm ki, məni sessiyaya dəvət edərək bu addımı atacaqlar.**

Təbii ki, dəvət olunsaydım, iştirak edəcəkdim və sözümü də deyəcəkdim. Lakin bəlli oldu ki, mənim iştirakım olmadan barəmdə qərar veriblər və əslində belə bir qərar verilməsi qanunsuzdur. Bununla belə, hər hansı addım atmaq niyyətində deyiləm, yəni buna əhəmiyyət vermirəm. Fərqli düşünən insanın qurumdan uzaqlaşdırılması təəssüf doğurur. Ümumiyyətlə, fərqli düşünən insan orada qala bilməz. Mən özüm də istefa verə bilərdim, amma bu addımı atmadım. Yaxşı ki, belə bir addım atmadım, şərait yaratdım ki, Milli Şura bu cür qanunsuz qərar çıxarsın. Bilirsiniz ki, Milli Şuradan xeyli insan çıxıb. Yəni bundan sonra Milli Şuranın dəfn prosesi gedir. Milli Şura, artıq narazı kəsimin iradəsini təmsil edə bilməz. Orada təmsil olunan hər bir insanın şəxsiyyətinə hörmətim var. Hətta Əli Kərimli ilə də siyasi baxışlardan başqa heç bir problemim yoxdur. Əli Kərimlinin Milli Şurada apardığı siyasəti əvvəlcə də bəyənmirdim, indi də bəyənmirəm. Milli Şuranı dəfn etmək istəmirlərsə, ora yeni fikirli insanları cəlb etməlidirlər. Mənim Milli Şuradan xaric edilməyim bir daha göstərdi ki, Milli Şura AXCP-nin, konkret olaraq Əli Kərimlinin diktəsi ilə fəaliyyət göstərir".



Razi Nurullayev

**Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev isə APA-ya deyib ki, Razi Nurullayev Milli Şuranın sessiyalarına 3 dəfə qatılmadığına görə nizamnaməyə uyğun olaraq qurumdan çıxarılıb:** "Həm də AXCP-dən çıxarılandan sonra Razi Nurullayevin açıqlamaları ziyanlı, qeyri-səmimi və qeyri-demokratik oldu. Bütün bunlar nəzərə alınaraq, yekdilliklə onun qurumdan çıxarılması haqqında qərar qəbul edildi. Razi Nurullayevin qurumdan kənarlaşdırılması həm də onun bir ayağı iqtidarda, bir ayağı müxalifətdə olması ilə izah edilə bilər".

Xatırladaq ki, Razi Nurullayev təxminən iki ay öncə AXCP üzvlüyündən istefa verib. Buna qədər o, AXCP sədrinin müavini postunu tuturdu.

❑ **E.SEYİDAĞA**

# Riqa sammiti nə vəd edir?



**Azər RƏŞİDOĞLU**

**Riqada keçiriləcək "Şərq Tərəfdaşlığı" sammitində haradasa bölgənin taleyi həll edilə bilər. Mayın 21 və 22-də Avropa Birliyi "Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələrin Riqa sammiti keçiriləcək.**

Maraqlıdır ki, Belarus və Ermənistan sammitə qatılmaqdan imtina ediblər. Minsk və İrəvan Moskvanı qəzəbləndirməkdən ehtiyat edirlər.

Azərbaycana gəldikdə isə rəsmi Bakı "Şərq Tərəfdaşlığı" təşəbbüsünə dair əvvəldən öz mövqeyini formalaşdırıb.

Azərbaycan Avropa İttifaqı ilə Assosiasiya sazişində maraqlı deyil, ancaq ikitərəfli üstün tərəfdaşlıq modelini təklif edir. Bakının belə mövqe sərgiləməsi Rusiyanı narazı salır. Moskva Riqa sammitinə qatılacaq ölkələri təhdid edir. Hamı Bakının seçimini gözləyir. Azərbaycan sammitdə yüksək səviyyədə təmsil olunacaqmı?

Digər tərəfdən, Azərbaycanın Avropa İttifaqı ilə strateji enerji əməkdaşlığı var. Azərbaycan Avropa üçün hazırda yeganə alternativ qaz təchizatçısı statusundadır. Bu baxımdan, Azərbaycan rəhbərliyinin sammitə qatılması üçün xeyli səbəblər var. Lakin məlum olduğu kimi, Riqada saziş imzalanacaq. Bakı buna hazırdırmı?

Ehtimal etmək olar ki, Azərbaycan Riqa sammitində iştirak edəcək, lakin sazişə imza atmayacaq. Bakı Avropa ilə enerji əməkdaşlığını genişləndirir, paytaxtda cənub qaz dəhlizi ilə bağlı toplantı keçirilir, lakin Kremli də qıcıqlandırmaq istəmir.

Bakı öz diplomatiyasında "açıq qapı" siyasətinə üstünlük verir. Nə Riqa sammitində sazişə imza atmağı düşünür, nə də ki Gömrük İttifaqına da qoşulmağı planlaşdırır.

Azərbaycan Avropanın enerji təchizatını ödəməklə təhlükəsizliyini də təmin etmək istəyir, lakin Rusiyanı da narazı salmaq istəmir.

Xatırladaq ki, "Şərq tərəfdaşlığı" proqramına əsasən bu təşəbbüsə daxil olan keçmiş sovet respublikaları islahatlar aparmaqla Avropa İttifaqı ilə inteqrasiya əlaqələrini inkişaf etdirə biləcəklər. Moskva bu təşəbbüsə əvvəldən mənfi yanaşır, lakin reaksiyası heç vaxt indiki kimi sərt olmamışdı.

Hələlik Avropa Birliyi ilə Assosiasiya sazişini ancaq Gürcüstan və Moldova imzalayıb. Rusiya Moldovada Avropa tərəfdarlarının mövqelərini xeyli zəiflədib və bu kasıb ölkəyə qarşı hibrid müharibə taktikasının bir neçə elementindən istifadə edir.

Avropa, ABŞ, NATO-nun dəstəyi ilə Azərbaycan daha çox inkişaf edə bilər. Vurğulayaq ki, "Şərq tərəfdaşlığı" proqramına əsasən bu təşəbbüsə daxil olan keçmiş sovet respublikaları islahatlar aparmaqla Avropa İttifaqı ilə inteqrasiya əlaqələrini inkişaf etdirə biləcəklər.

"Şərq Tərəfdaşlığı" - Polşa və İsveçin Avropa Birliyinin qonşuluq siyasəti çərçivəsində postsovet ölkələri ilə münasibətlərinin yaxşılaşdırılmasına yönəldilmiş təşəbbüsüdür.

Viza rejiminin yumşaldılmasını, ticarət məhdudiyyətlərinin aradan qaldırılmasını və enerji əməkdaşlığını genişləndirməyi nəzərdə tutan bu proqram Avropa Birliyinin altı qonşu ölkəsini, Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukraynanı əhatə edir.

"Şərq Tərəfdaşlığı" Azərbaycanın Avropaya inteqrasiyasına geniş imkanlar açsa da, rəsmi Bakı demokratiya, bazar islahatları və üzərinə götürdüyü digər öhdəliklərlə bağlı önəmli bir addım atmayıb.

Azərbaycanın Avropa perspektivinə uyğun ola biləcək dəyişikliklərin böyük bir qismi siyasi və iqtisadi azadlıqlarla bağlıdır. Bu niyyətə doğru hərəkət

Azərbaycanın özündən asılı olsa da, hərəkətlilik hiss olunmur. Rəsmi Bakı demokratiya və insan haqları ilə bağlı bir çox öhdəlikləri yerinə yetirməkdən yayınır.

Bu isə Avropanı narazı salır. Odur ki, Bakı Rusiya ilə də münasibətlərini korlamaq istəmir...

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015





# İsveçrədəki Laçın qaçqınlarının heyrətamiz hekayələri - reportaj

İsveçrədə oturum izni almağa hazırlaşan azərbaycanlıların yaşadıqları, qayğıları, gözləntiləri ; "BİZ İKİNCİ DƏFƏDİR Kİ, QAÇQIN DÜŞÜRÜK"; "Yeni Müsavat" qaçqın yataqxanalarında qalan, oturum izni gözləyən həmyerlilərimizin ilginc hekayəsindən yazır

**"Bir az asta ol e, arxadakı televizor hökumətindir. Dəyərsən, yerə düşüb qırılar, evimiz yıxılar..." Yarızarafat deyilən bu irada gülüşsək də, az keçmədən izahatını verir ev yiyəsi. Məlum olur ki, qonaqların qabağına qoyulan çəngəl-bıçaqdan tutmuş, stol-stula qədər, hər şey İsveçrə hökumətinindir, əmanətdir, ehtiyatlı olmaq lazımdır...**

"Yeni Müsavat"ın mühacir azərbaycanlılarla bağlı layihəsinin növbəti qəhrəmanları hələ oturum izni almamış, müraciətlərinə cavab gözləyən həmvətənlərimizdir. Yəni mühacirlik yolunda əmin addımlarla irəliləyən, İsveçrə hökumətinin sorğu-sualları, sınaqları ilə üzbəüz qalan, bu çətin mərhələni keçəcəklərinə ümidli olan 4 azərbaycanlı. Qayğıları, həyəcanları ortaqdır. "Səni axırıncı dəfə nə zaman çağırdılar?", "Nə sual vermişdilər sənə?", "Son sözləri nə oldu?" suallar, suallar... və axırda "Allaha pənah, inşallah verərlər oturum. Verməmək üçün bir səbəb yoxdu axı..." ümidləri. Aralarında ailələri ilə bura pənah gətirənlər də var, özü oturum izni alan kimi onları yanına alacaq olanlar da...

Söhbət zamanı fikir verdim, durumları bir-birindən xeyli fərqlənir. Bu isə qaldıqları kantonun qaydaları ilə bağlıdır. "Bizim kanton, sizin kanton" deyə-deyə apardıqları müqayisələr zamanı oturum izni almaqda olan mühacirlərə göstərilən münasibətin necə fərqli olduğu üzə çıxır. "A bəy, bizim kantonda elə döyül axı..." Nə qədər ilginc səsləndiyini təsəvvür edə bilməzsiz...

Görüşün fotolarını isə "Yeni Müsavat"ın İsveçrədəki foto-reportyoru Abbas Atilay tarixə həkk edir. Oturum izni almış A.Atilay zaman-zaman bu mərhələni keçmiş birisi olaraq həmvətənlərinə müəyyən məsləhətlər, ümidlər də verir. Hər pozitiv, ümid dolu sözdən sonra həmvətənlərimizin gözündəki o sevinci bir görsəz...

Qonağı olduğumuz evin sahibi Sarvan Abdulazimovdur. Əslində ona ev yiyəsi də demək olmaz. Çünki üçmərtəbəli blokda onlarla yanaşı, daha iki ailə yaşayır. Biri Suriyadan, digəri Elitriyadan gələn ailədir. Yəni bura mühacir ailəyə verilən mənzil yox, müvəqqəti məskunlaşma məkanıdır. Sarvan bəy deyir ki, qonşuluq çətindir, çünki danışa biləcəkləri ortaq dili - alman dilini bilmirlər.

## "Hələlik hamımız ikinci sort adamıq burda"

Keçək digər müsahiblərə: Xəyyam Qəhrəmanov, İsa Səməd, Hüseyn Tağıyev... Sarvan da daxil, hər dörd müsahibim Müsavat Partiyasının üzvləridir. Aşağı-yuxarı, hamısı eyni ərəfədə İsveçrəyə gəliblər. 2014-cü ilin sonlarına yaxın. Hamısı müraciətlərinə cavab gözləyir, ortaq problemləri, qayğıları, gözləntiləri var. Elə bizə də ondan danışdılar. Təbii ki, öncə mühacirlik üçün İsveçrəni seçmə səbəblərindən başlamaq şərtilə.

**İ.Səməd:** "Biz Andreas Qrossun timsalında İsveçrəni Avropada demokratiyanın beşiyi bilirdik. Ona görə də bu ölkədə yaşamaq istədim".

**X.Qəhrəmanov:** "Əskidən tanıdığımız Hacı Hacılı, Elbəyi Həsənli, Kamil Tağısoy İsveçrədə idi. Hüseyn bəydən başqa qalan hamımız Müsavatın Laçın rayon təşkilatının üzvüyük. Yəni ortaq yolumuz var".

**İ.Səməd:** "Hələ də düşərgədəyik. Kampda həyat daha sərtdir. Xüsusən karantin rejimdir. Mən Haymdayam. Yataqxana şəraitində yaşayırıq. Orda dəyişik millətlərdən olanlar var. Suriya, Eritiriyadan olanlar isə çoxluq təşkil edir".





**X.Qəhrəmanov:** "Mən Luzern kantonunda yaşayıram, Haymda. İndi ən çətin mərhələdir. Bakıdan tək, ailəsiz gəlmişəm. Hələ ki müraciətimə cavab yoxdur. Aramızda təkcə Sarvan bəyə ev şəraitində qalmağa icazə verilib. O da bir şans məsələsidir. Amma biz hamımız eyni vəziyyətdəyilk. Hələlik ikinci sort adamıq. Tibbi sığortamız yoxdur. Adi xəstəlik olanda - başımız, dişimiz ağrıyanda həkim çağıra bilmirik. Təcili Tibbi Yardımda ödəniş edirik. Təsəvvür edin, 900 frank... Mənə deyiblər ki, "oturum almayana qədər ancaq ən ağır halda həkimə müraciət edə bilərsən. Çalış, xəstələnmə, müraciət etmə". Başqa kantonda ağrım oldu, həkimə getdim, pul cəriməsi ödədim. Daha bir çətinliyimiz isə adaptasiya və dil problemi ilə bağlıdır. Avropa Bakıdan elə də asan deyil. Status vermirlər. Mən 2003-cü ilin 15-16 oktyabrda həbs olunmuşam. Hələ bilmirik nəticə necə olacaq".

## "Buranın təbiəti Laçını xatırladır"

**S.Abduləzimov:** "Dillə bağlı problem çətindir, insanlarla danışa bilmirsən. Amma deməliyəm ki, pis qarşılamırlar. Çalışırlar gedəndə səni dinləsinlər. Sıxıntılar, darıxmalar çox olur. Biz ikinci dəfədir ki, qaçqın düşürük. Bir dəfə 1992-ci ildə, sonra da 2014-cü ildə. İlk dəfə qaçqın düşəndə öz dilimizdə danışırdıq deyə asan idi. İndi başqa dildir. Bakıda Laçının, o yerin-yurdun həsrətini çəkirdik. İndi də bu mənzərəni görürük, ikiqat özləyirik. Buranın təbiəti Laçını xatırladır, yadımıza düşəndə ürəyimizin başı göynəyir. İnsan doğmaları üçün darıxır. Məsələn, bu gün sizin gəlişiniz münasibətilə yığışmışıq. Deyirik ki, ayda bir dəfə yığışaq, heç olmasa bir araya gəlib, danışaq".

**H.Tağıyev:** "Mən də Bazel kantonunda qalıram. Elə bir problem yoxdur. Xəstəxanaya getdin, sığorta kartın var. Bizdə Təcili Yardım çağırmaqda heç bir problem və məhdudiyyət yoxdur. Bazeldə idarəçilər sosialistlərdir. Xaricilər üçün ən əlverişli yer Bazel sayılır. Oturum alandan sonra pul verirlər ki, get evinə əşya al. Bütün bunlar rahatlıq üçün nəzərdə tutulub. 2012-də ailəmlə gəldim. Sonra geri qayıtdı ailəm. Oturum almam üçün heç bir problem yox idi. Orda təzyiq oldu, məcbur qalıb təkrar gəlmişəm. Gəldiyimiz ilk iki ayı çətinlik çəkmişik. 300 nəfər bir arada yaşayırsan. Bir otaq verirlər. Bəzən bir otağa başqa bir ailə də salırlar. Yemək saatları, çölə çıxmaq saatları konkret qrafik üzrə olur".

**"Uşaqların müəllimləri dedi ki, əsas odu, ana dilini uşaq unutmasın. Ana dilini unudan uşaqdan cəmiyyətə insan olmaz"**



## "Uşaqların beyni yüklü deyil, hər şeyi daha tez qavrayırlar"

*- Hansınızın uşaqları burdadır?*

**İ.Səməd:** "Mənimkilər burdadır. Uşaqlarda çətinlik yoxdur. Gələn gündən məktəblə təmin olunublar. Uşaqların beyni yüklü deyil, hər şeyi bizdən daha tez götürürlər. Almanca sərbəst danışa bilirlər. Getdikləri məktəb mühacir məktəbidir. Orda da əsas üstünlüyü dilə verirlər, digər fənlər də keçilir. Uşaqların adaptasiyası lap tez olur".

**S.Abdulazimov:** "Biri məktəbə gedir, o biri də sentyabrda gedəcək. Uşaq tez adaptasiya olunur. Dil tapır. Yerli məktəbə gedirlər".

H.Tağıyev və X.Qəhrəmanovun ailəsi isə hələ ki Bakıdadır. Onlar oturum izni alandan sonra ailələrini də yanlarına gətirəcəklər.

## "Bura gəlmişiksə niyə Azərbaycan haqda danışmayaq? Ürəyimiz yanır axı..."

***- Mühacirlərə, onların sosial şəbəkələrdəki müzakirələrdə tutduqları mövqeyə Azərbaycanda zaman-zaman qıcıqla yanaşıblar. "Siz rahat oturumsuz orda, bizə ağıl verə bilməzsiz..." yanaşması... Bunu özünüzə qarşı da hiss edirsizmi?***

**İ. Səməd:** "Təbii, bura gələndən sonra orda qalanlara ağıl verməyimiz düz çıxmazdı. Bizim üzərimizə düşən verilən qərarları dəstəkləməkdir. Çünki rejimin qabağında onlar dayanır. Amma biz də yanırıq axı... Son vaxtlar partiyaya (Müsavata) basqılar var. Partiyaya dəstək verə bilmirik, burdayıq, gücümüz çatmır. Amma ona baxmayaraq, rəhbərliyin bütün qərarlarını dəstəkləyirik. Rayon təşkilatı ilə mütəmadi olaraq əlaqələrimiz var. Rəhbərliklə danışırıq".

## "Bazar günü paltaryuyan və tozsoran işlədə bilməzsən"

***- İsveçrə qanunlarından, həyat tərzindən danışaq. Nə olar, nə olmaz... Sizə ilginc görünən nələr var burda?***

**İ.Səməd:** "Burda bazar günü paltaryuyan və tozsoran işlədə bilməzsən. İnsanların istirahətinə mane ola bilər deyə. Həftə içi günorta saat 12-1 arası heç kim işləyə bilməz. Nahar zamanı olduğu üçün uşaqların həmin saatda səs salması yasaqdır. Qonşuluğu belə qanunlar tənzimləyir".

**S.Abdulazimov:** "Nəqliyyatda əsasən sürət qatarından istifadə edirik. Küçədə siqnal səsi eşitmirsən. Qatar səni göstərdiyi dəqiqədə, saniyədə çatdırır mənzil başına. Tutaq ki, 20 Yanvardan Xırdalana gedirsən, amma səni heç kim zorla Saraya aparmır. Heyif deyil bu?" *(bu mənzərəni xatırlayıb, hamısı gülür).*

**A.Atilay:** "Bir müddət sonra bu sakitlik bizə pis təsir edəcək. Adrenalin olmayacaq. Biz onunla yaşamağa öyrəşmişik. Məsələn, Norveç də sakit ölkədir. Dəlilik, intihar halları orda daha çox olur".

***- İlkin müşahidələrimə görə, azərbaycanlı mühacirlər arasında əlaqələr bir qədər zəifdir...***

**A.Atilay:** "Burda nəqliyyat xərcləri xeyli yüksəkdir. Verilən pul nəqliyyat xərclərinə görə azdır. Əlaqələr də ona görə zəifdir. Hamı eyni yerdə yaşamır axı. Hərə bir kantondadır".

**X.Qəhrəmanov:** "Məsələn, mən bura yarım biletlə gəlmişəm. Bizim pulla həmin biletin qiyməti 25 manatdır. Ayda isə mənə 325 manat verirlər. Bu pulla mən necə tez-tez özümüzünküləri görməyə gedib-gələ bilərəm? Həqiqətən bura bahalı ölkədir. Təsəvvür edin ki, bir "paçka" siqaret 8.50 manatdır. Özü də ən ucuzu..."

**H.Tağıyev:** "Azərbaycan mətbəxindən ötrü darıxanda Sarvangilə yığışırıq. Gedəndə də sağ olsunlar, bizi bir neçə gün isidib yeyə biləcəyimiz yeməklə yola salırlar".

Yeməkdən söz düşən kimi, mühacirlərin dərdi açılır. Burada Azərbaycan mətbəxinə aid heç bir restoranın olmaması, bəzi dadlara öyrəşə bilməmələrindən danışırlar. "Oturum alan kimi qonaqlıq təşkil edərik" deyir biri. Daha sonra o biri arzusunu daha yüksək tutur: "Oturum alandan sonra bəlkə birləşib bir Azərbaycan mətbəxi açaq?" A.Atilay zarafata salır: "Elə olsun ki, heç olmasa restoran 1 ay işləsin də".

## "Uşaqların müəllimləri tapşırır ki, qoymayın ana dilini unutsunlar"

**Söhbətə diqqətlə qulaq asan, ara-sıra diktafona, fotoaparata nəzər yetirən balacaların da danışacaqları var.**

**İsa Səmədin oğlu Musa 7-ci sinifdə oxuyur. Artıq alman dilini öyrənib və dostları ilə ünsiyyətdə çətinlik çəkmir:** "Buranın dağlarını bəyənirəm, hər tərəf yaşıllıqdır. Amma Bakıdakı məktəbdən, dostlarımdan ötrü darıxıram. Qohumlarımız, nənələrim yadıma düşür tez-tez".

**Bacısı Nərgiz isə 2-ci sinifdə oxuyur. Alman dilini öyrənir və bu dildə də kitab oxuyur:** "Burda məktəb iki hissədən ibarətdir. Birinci məktəb 4 saat olur. Bakıdakı kimi. 8-də başlayıb, 12-də qurtarır. İkinci məktəb isə 2-yə qalmış 15 dəqiqə başlanır, 4-də qurtarır. Birinci adi məktəbdir, ikincidə isə dərsləri oxutdururlar".

**Ataları söhbətə müdaxilə edir:** "Uşaqların müəllimləri dedi ki, əsas odu, ana dilini uşaq unutmasın. Ana dilini unudan uşaqdan cəmiyyətə insan olmaz. Kimin ki, evində ana dilindən az istifadə olunur, onlar da unudur və unudacaq. Biz çalışırıq ki, uşaqlarımız danışsın və dilimizi unutmasın".

**Həmsöhbətlərim müsahibənin bir neçə yerində gənc müsavatçı Nərgiz Yaqublunun vaxtsız ölümünün onları necə sarsıtmasına toxundular. S.Abdulazimov:** "İsa bəy hönkürüb ağlayırdı ki, mən Nərgizin dəfnində olmalıydım"...

**İsa Səməd:** "Qolumuz-qanadımız sındı o xəbəri eşidəndə elə bil. Neçə gündü sarsıntı içindəyik. Qürbətdə belə faciənin ağırlığı on qat artıq olur, çəkmək mümkün olmur. Elə qəzet vasitəsilə ailəyə dərin başsağlığı veririk"...

Söhbət bitir, ev sahibinin xanımı masaya milli yeməkləri düzür -dolma, aş, ev turşusu...Müsahiblərim deyir ki, burda hər şey orqanik, təbiidir və bu, özünü yeməklərin dadında da göstərir. Ev yiyəsinin qonağa "bax, yeməsən inciyərəm" , "bunun da dadına bax, zəif yemə"...israrı... Mili qonaqpərvərlik, qonağa aşırı xidmət, qulluq...evdə tam azərbaycançılıq əhvalı var, dəyişməyib.

Yeməkdən sonra Sarvan bəy evin qarşısındakı bostanı göstərir bizlərə. Nələr əkib, hansı toxumu hardan alıb... Hamısını bir-bir danışır. Dostları zarafata salıb gülüşürlər: "Sarvan, AzTV-yə müsahibə verən keçmiş sağıcılara oxşadın: hər inəkdən bir bala...".

**Onları bura gətirən qayğıları çox olsa da, hələ də səksəkə ilə burdakı yerli qurumlardan oturum cavabı gözləsələr də, əhvalları yerindədir:** "Bir-birimizi görəndə pis şeyləri unuduruq, əhvalımız ona görə yaxşıdır indi"...

❑ **Sevinc TELMANQIZI**
**Fotolar Abbas ATİLAY**

# Bərdə sakini bələdiyyə sədrini məhkəməyə verib



**Bərdənin Mirzalıbəyli kəndində yaşayan Telman Əliyev "Yeni Müsavat"a müraciət edib. Şikayətçi deyir ki, bələdiyyə sədri İldırım Məlikov onun pay torpağını zəbt edib. Buna görə də o, sədri məhkəməyə verib. Ancaq hüquqlarını bərpa edə bilməyib. T.Əliyev deyir ki, məhkəmələr heç bir əsas göstərmədən bələdiyyəni müdafiə edir:**

"Bərdə Rayon Məhkəməsinin 27 noyabr 2013-cü il tarixli qətnaməsi var. Mirzalıbəyli bələdiyyəsinə, Bərdə rayon 1 və 2 saylı dövlət notariat kontorlarına qarşı iddia qaldırmışdıq. Amma zəbt edilən 0,43 hektar torpaq sahəsindən həmin şəxsin çıxarılması, torpaq sahəsinin qaytarılması və alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsi tələbinə dair iddiamız rədd edilib. Cavabdeh Məlikov İldırımdır. Birinci instansiya məhkəməsinin ədalətsiz qətnaməsindən Gəncə Apelyasiya Məhkəməsinin Mülki Kollegiyasının 18 avqust 2014-cü il tarixli qətnaməsi ilə qismən təmin edilib".

T.Əliyev bildirir: "Apelyasiya şikayətində bildirmişik ki, İldırım Məlikov 2006-cı ilin aprelində pay torpağının 0,44 ha hissəsinin satılmasına dair notariusda imza atıb, cavabdehdən 4 min manat pul alıb, lakin bizə heç bir sənəd verilməyib. Bələdiyyə sədri sahəmizə gedən yolu daraldıb, texnikanın sahəyə aparılması mümkün olmayıb. Yolun genişləndirilməsini ondan xahiş etmişik. Lakin 2013-cü ilin mart ayından bu günə kimi düzəltməyib. 2013-cü ilin mart ayında sənədləri gətirib yoxlatdırandan sonra 0,44 ha əvəzinə, 0,89 ha satıldığını bilmişik. 0,24 ha torpaq sahənin satılması ilə bağlı 2 saylı notariusda notarius Tamaşa Atakişiyeva tərəfindən saxta sənədləşmə aparılıb. Tərəfimizdən apelyasiya şikayətimizin təmin olunması barədə qətnamə çıxarılmasını xahiş etmişik. Apelyasiya Məhkəməsi qanuni tələbimizi təmin etməyib".

Kənd sakini söyləyir ki, onu aldadıblar: "Biz aldatma yolu ilə əqdi bağlamış cavabdehin hərəkətlərini qanunsuz hesab edirik. Qanunvericiliyə görə əhəmiyyətsiz əqd bağlandığı andan etibarsızdır və o heç bir hüquqi nəticəyə səbəb olmur. Məhkəmə ədalətli araşdırma aparmayıb. Bu sənədləşmələr notarius tərəfindən qeyri-qanuni əsaslarla iradəmizin əleyhinə olaraq aparılıb. Nəticədə mənim aldadılmağım əsassız olaraq notariat sənədlərdə təsdiqlənməklə mülkiyyətim mənimsənilib. Mən bu fakt və halları məhkəmələrdə mübahisələndirmişəm. Mülkiyyətimdə olan torpaq sahəsinin aldadılma yolu ilə əldə edilməsini bildirsək də, ədalətli məhkəmə araşdırılması aparılmayıb". T.Əliyev ölkə rəhbərliyindən kömək gözləyir.

❑ E.HÜSEYNOV

# Ağcabədidə pivə əvəzinə benzin içən kişi öldü

**Ağcabədi sakini zəhərlənərək ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə aprelin 26-da Ağcabədi rayonunun Hindarx qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini Cəsarət Cəfərov səhvən pivə şüşəsində saxlanılan benzini içib. O, xəstəxanaya aparılarkən yolda ölüb. Faktla bağlı araşdırma aparılır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# İki uşaq anası olan əlil qadın işdən çıxarıldı



**İki uşaq anası, II qrup əlil olan Sədaqət Dadaşova qanunsuz olaraq işdən çıxarılmasından şikayətçidir. Ailənin yeganə gəlir gətirəni olan bu qadın "Yeni Müsavat"ın redaksiyasına müraciət edərək bildirib ki, 8 aydır işsizdir, hüquqlarını isə heç cür bərpa edə bilmir.**

Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsindəki yataqxanada yaşayan Sədaqət Dadaşovanın himayəsində iki azyaşlı uşaq var. Vəziyyətini gözü yaşlarıyla danışan qadın deyir ki, işsizdir, heç bir yerdən gəliri olmadığı üçün uşaqlarına baxmaqda çətinlik çəkir: "Məni heç bir səbəb olmadan işdən çıxarıblar. Uşaqlarıma gündəlik çörək belə ala bilmirəm. Əlil olduğum halda çətinliklə işləyib ailəmi dolandırırdım. Vətənə iki əsgər böyüdürəm. Ancaq bir işi də mənə çox gördülər".

9 il müəllimlik təcrübəsi olan S. Dadaşova səhhəti ilə bağlı olaraq işindən ayrılmalı olub. Bir müddət sonra isə Nizami rayonu 210 saylı məktəbdə texniki işçi kimi çalışmağa başlayıb və uşaqlarını çətinliklə də olsa dolandırıb. Ancaq məktəb direktoru Razim Rəsulovun ona bəslədiyi qərəzli münasibət nəticəsində qanunsuz olaraq işdən çıxarılıb.

Bununla bağlı Bakı Şəhər Təhsil İdarəsinə müraciət edən şikayətçi bildirir ki, məktəb direktoru intizam məsuliyyətinə cəlb olunub. Bir müddət sonra isə başqa bir səbəblə vəzifəsindən uzaqladırılıb.

Bakı Şəhər Təhsil İdarəsi tərəfindən şikayətinə baxılan Sədaqət Dadaşova 36 nömrəli texniki yaradıcılıq məktəbinə "Bacarıqlı əllər" dərnəyinin rəhbəri təyin edilib. Bu ilin mart ayının 1-dən etibarən dərslərə başlayan həmsöhbətim bayram tətilindən sonra məktəbə buraxılmayıb.

**36 nömrəli texniki yaradıcılıq məktəbinin rəhbəri Təranə Aslanova Bakı Şəhər Təhsil İdarəsindən verilən əmri imzalamadığı üçün Sədaqət Dadaşova yeni işinə davam edə bilməyib:** "Mən əmrin niyə imzalanmadığını soruşduqda Təranə Aslanova bildirdi ki, burada işləmək hər adamın işi deyil, burada yalnız imkanlılar çalışır".

**Sədaqət Dadaşova deyir ki, Bakı Şəhər Təhsil İdarəsinin fevralın 18-də verdiyi əmr iki aydan artıqdır ki, imzalanmır:** "Bununla bağlı ombudsmana da şikayət etmişəm. Oradan da cavab gəlib ki, işlə təmin olunsun. Ancaq 8 aydır ki, mən balalarıma bir tikə çörək qazana bilmirəm". II qrup əlil olan Sədaqət Dadaşova problemini məhkəmə yolu ilə həll edəcəyinə ümid edir.

❑ Nərgiz LİFTİYEVA
Fotolar müəllifindir

# Dələduzluqda təqsirləndirilən hüquq müdafiəçisi saxlanılıb

**Azərbaycanda dələduzluqda təqsirləndirilən hüquq müdafiəçisi saxlanılıb və barəsində həbs-qətimkan tədbiri seçilib. Şirvan Şəhər-Rayon Polis Şöbəsinin müstəntiqi Anar Bayramovun APA-nın Mil-Muğan bürosuna verdiyi məlumata görə, Şirvan şəhərində fəaliyyət göstərən "Regional İnsan Hüquqları və Ekologiya Müdafiə Mərkəzi" İctimai Birliyinin sədri, 1970-ci il təvəllüdlü İskəndərli Azad Vəlyəddin oğlu Cinayət Məcəlləsinin 178.2.2 178.2.4 (dələduzluq), 182.2.2-ci (hədə-qorxu ilə tələb etmə) maddələri təqsirləndirilir.**

Daha əvvəl Cinayət Məcəlləsinin 182.1, 228.1, 228.4, 66.3-cü maddələri ilə təqsirləndirilərək 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilmiş Azad İskəndərli özünü hüquq müdafiəçisi kimi təqdim edərək, hüquq təhsili olmadığı halda qanunsuz vəkil xidmətləri göstərməklə vətəndaşları aldatmaqda ittiham edilir. İstintaqla müəyyən edilib ki, o, etibardan sui-istifadə etmə, aldatma və şantaj yolu ilə özgənin xeyli miqdarda əmlakını ələ keçirməklə təkrar dələduzluq və özgənin əmlakını hədə-qorxu ilə tələb etmə cinayətlərini törədib. A. İskəndərli 2008-ci ilin oktyabr ayında Şirvan şəhərində fəaliyyət göstərən "Sərvət" şadlıq sarayının sahibi Qasımov İbrahim Əli oğlundan 2500 manat borc pul alıb və qaytarmayıb. O, sahibkarı şantaj edərək hər ay 300 manat ödəməsini tələb edib. Ə.Məmmədov isə bununla razılaşmayıb.

Bundan başqa, o, Salyan rayon Bəşirbəyli kənd sakini Həşimov Seymur Çingiz oğlundan 1200 (min iki yüz) manat, Bakı şəhəri, Suraxanı rayon sakini Dəmirova Nazilə İskəndər qızından, onun övladları Simrand və İlkin Dəmirovlardan 4350 manat məbləğində pulu aldatma yolu ilə alıb.




# «Azercell»in yeni Mobil Müştəri Xidmətləri ölkəni qarış-qarış gəzəcək!

**1996-cı ildə, yarandığı gündən etibarən ölkəmizdə innovativ müştəri xidmətləri modelini quran və həyata keçirməkdə davam edən, daim yenilikləriylə abunəçilərini sevindirən «Azercell» daha bir ilkə imza atır. Belə ki, abunəçilərinə daha rahat və keyfiyyətli xidmət təqdim etmək niyyətiylə şirkət tərəfindən yeni Mobil Müştəri Xidmətləri yaradılıb.**

**Mobil Müştəri Xidmətləri qrupunun əsas məqsədi abunəçilərə daha yaxın olmaq, Azərbaycanın rayon və şəhərlərinə səfər edərək vətəndaşların istək və gözləntilərni rahat və operativ şəkildə həyata keçirməkdir. Yenicə yaradılan bu xidmətin ilkin mərhələsində Müştəri Xidmətinin əməkdaşları «Azercell» Ekspres ofislərinin hələ fəaliyyət göstərmədiyi rayonlara və cəbhəyani bölgələrə səfər edəcək. Səfərlər zamanı abunəçilərə Müştəri Xidmətləri və «AzEx» ofislərində «Azercell» tərəfindən təqdim olunan bütün xidmətlər göstəriləcək. Mobil Müştəri Xidmətinin əməkdaşları 27 aprel tarixində səhər bu məqsəd üçün təşkil olunmuş xüsusi nəqliyyatla ilk olaraq «Azercell»in Bəsti Bağırova küçəsi, 2 ünvanında yerləşən Müştəri Xidmətləri mərkəzindən yola düşərək Saatlı-İmişli, aprelin 28-də İmişli və Füzuli, aprelin 29-da Ağcabədi və Ağdamın Quzanlı qəsəbəsinə, aprelin 30-da isə Ağcabədi və Tərtərə səfər edəcəklər. Beləcə, «Azercell»in Mobil Müştəri Xidmətləri ölkə boyu səfər edərək ən ucqar ərazilərdə belə abunəçilərinin istəklərini həll edəcək.**

**Qeyd edək ki, müştərilərə xidmət sahəsində bu konsepsiyaya ölkədə ilk dəfə məhz «Azercell» tərəfindən tətbiq olunur. Məlumat üçün bildirək ki, «Azercell» Müştəri Xidmətləri sahəsində innovativ yenilikləri ilə hər zaman seçilib. Şirkət 1998-ci ildə ölkədə ilk dəfə olaraq 24/7 rejimində fəaliyyət göstərən Telefon Mərkəzi, 2009-cu ildə isə Gəncədə ilk Regional Telefon Mərkəzini yaradıb. Öz müştərilərinə yalnız üz-üzə deyil, həm də virtual, "online" şəkildə xidmət göstərən «Azercell» sosial şəbəkələrdə də bu xidmətin keyfiyyətini yüksəldir. Müştəri məmnuniyyəti sahəsində göstərdiyi uğurlu xidmətlərinə görə, «Azercell» müxtəlif mükafatlara layiq görülüb. «Azercell» Azərbaycanda ən böyük müştəri xidmətləri şəbəkəsinə - 58 Ön Masa və «Azercell» Ekspress ofisləri və 425 rəsmi satış məntəqəsi ilə ən geniş satış şəbəkəsinə malikdir. Bu məntəqələr yüksək keyfiyyətli servis göstərmək üçün bütün ölkə boyu müştərilərin xidmətindədir.**

**Müştəri xidmətləri mərkəzinə hər-hansı səbəbdən gələ bilməyən abonentlərə isə «Azercell»in Mobil Ofisi dəstək olur. Xidmət əməkdaşı bu məqsəd üçün ayrılan və lazımi texniki avadanlıqla təchiz olunmuş xüsusi avtomobildə müştərilərin yanına gedərək, onlara yerində xidmət göstərir.**

## Elan

**Qasımov Seyfulla Səttar oğlunun Əfqanıstan veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 90 (6118) 28 aprel 2015

# Əmanətlərin sığortalanması üçün təklif verildi...

## Samir Əliyev: "Mərkəzi Bank əmanətlərin sığortalanması mexanizminin səmərəliliyini artırmaq barədə addımlar atmalıdır"

**Əmanətlərin sığortalanması ilə bağlı məsələ yenidən gündəmdədir. Bəzi ekspertlər bildirirlər ki, Mərkəzi Bank əmanətlərin sığortalanması mexanizminin səmərəliliyini artırmaq barədə addımlar atmalıdır.**

**Ekspert Samir Əliyev** məsələ ilə bağlı bir neçə təklif üzərində dayanıb. "Uzun müddət manatın sabit qalması, bank sektorunun müflisləşmə hallarının olmaması və ən nəhayət, əmanətlərin dövlət tərəfindən sığortalanması əhalinin vəsaitlərini banklara etibar etməsinə gətirib çıxardı. Hətta bir neçə bankın bazarı tərk etməsi də əmanət bazarında gərginlik yaratmadı. Əsas səbəb əmanətlərin sığortalanması idi. Ölkədə əmanət cəlb edən bütün banklar Əmanətlərin Sığortalanması Fondunun üzvüdür və valyuta növündən asılı olmayaraq 12 faizə qədər illik faiz dərəcəsi ilə yatırılan bütün əmanətlər sığortalanır, yəni dövlət tərəfindən zəmanət verilir",- deyə o, qeyd edib.

**Ekspertin sözlərinə görə, dünyanın yüzdən çox ölkəsində tətbiq edilən əmanətlərin sığortalanması mexanizmi əhalinin bank sektoruna inamını artırmaq, bank sektorunda dayanıqlığı təmin etmək məqsədi daşıyır:** "Mərkəzi Bank əmanətlərin sığortalanması mexanizminin səmərəliliyini artırmaq barədə addımlar atmalıdır. Sığortalanan əmanətlər üzrə kompensasiya məbləği 30 min manatdan 50 min manata qaldırılmalıdır. Bu addım daha çox əmanətin sığorta sisteminə düşməsinə imkan verər. 2014-cü ilin məlumatların istinad etsək, görərik ki, əmanətlərin təxminən 30 faizi kompensasiya olunur".




S.Əliyevin ikinci təklifi əmanətin sığorta haqlarının əmanətin faiz dərəcəsinə uyğun artırılmasıdır: "Sığortanın tətbiq edildiyi faiz limitinin, 12 faizin aradan qaldırılması düzgün olardı. Onsuz da banklar, xüsusən də kiçik banklar yüksək faiz təklif edir və əhali bu təklifdən yararlanır. Əmanətin sığorta haqlarının əmanətin faiz dərəcəsi arasında asılılıq yaradılmalıdır. Bank nə qədər yüksək faizlə əmanət cəlb etsə, fonda bir o qədər də yüksək sığorta haqqı ödəyər. Bu, bankları daha məsuliyyətli olmağa sövq edə bilər".

**Onun sözlərinə görə, əgər fond faiz limitini aradan qaldırmaq istəmirsə, bu halda limit valyuta növündən asılı olaraq differensiallaşdırıla bilər:** "Əhalinin dollar əmanətinə axının qarşısını almaq üçün xarici valyutada, o cümlədən dollar əmanətləri üzrə sığortalanma faizini 12 faizdən 6 faizə endirilməsi məqsədəuyğun olardı. Bu addım əhalinin manatla əmanət qoymasını stimullaşdıra bilər".

**Həmçinin əmanətlərin sığortalanmasını yoxlayan elektron bazasının yaradılması da təklif edilir.** "Müşahidələr göstərir ki, bəzi banklarda uçot sistemi hələ ki mükəmməllikdən uzaqdır. Bu isə əmanətçilərdə vəsaitlərinin sığortalanmasına şübhə yaradır. Əmanətlərin Sığortalanması Fondunda sığortalanan əmanətlərin elektron bazasını yaratmaqla əmanətçiyə öz vəsaitinin sığortalanmasını yoxlamaq imkanı vermiş olar. Əmanətçi fondun saytına daxil olmaqla bankla bağladığı əmanət müqaviləsinin nömrəsini, adını və soyadını daxil etməklə əmanətinin sığortalanmasını yoxlaya bilər. Bank sirrinin yayılmaması üçün ancaq bir cavab- "Sizin əmanət qorunur" və ya "Sizin əmanət qorunmur" kimi cavabın yazılması məsləhət olardı. Bununla da bankın mümkün məsuliyyətsizliyinin qurbanı olmaz",- deyə ekspert vurğulayıb.

❑ **RÖYA**



# "Əli və Nino" filminin çəkilişləri dayandırılmayıb

## Hazırda çəkilişlər Türkiyədə davam etdirilir və ayın sonuna yekunlaşacaq...

**Aylardır ölkəmizdə çəkilişləri gedən "Əli və Nino" filminin ətrafında gedən söz-söhbətlər səngimək bilmir. Ötən həftə filmin aktyoru, daha çox kaskadyor kimi çəkilişlərdə iştirak edən İran vətəndaşı Hüseyni Heyrəbadinin Bakıda döyülməsi, daha sonra sponsorlardan birinin filmin çəkilişlərinə verdiyi maliyyəni dayandırması üzündən ingilis rejissor Asif Kapadiyanın filmin çəkilişlərini yarımçıq saxlaması barədə yaranan şayiələr adıçəkilən filmi yenidən diqqət mərkəzinə gətirdi.**

Şayiələrin yaranmasına təkan verən əsas amillərdən biri də Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri olmuş Fətəli Xan Xoyski rolunu canlandıran türkiyəli aktyor Halit Ergençin İstanbula geri qayıtması oldu. Aktyorun açıqlamasından belə məlum oldu ki, o, rejissor Uluç Bayrakdarın doğum günündə iştirak etmək üçün Bakıdan ayrılıb.

Tezliklə çəkiliş heyətindən də yaranan şayiələrə aydınlıq gətirildi. Mətbuata verilən açıqlamada bildirildi ki, filmin maddi problemlər səbəbindən dayandırılması ilə bağlı yayılan xəbərlər yalnız şayiədir və həqiqəti əks etdirmir. Məlumata görə, hazırda filmin çəkilişləri Türkiyə ərazisində davam edir. Azərbaycanda baş tutan çəkilişlər isə Bakı və Bakıətrafı rayonlarda - Qobustan, Bibiheybət, İçərişəhərdə həyata keçirilib.

Çəkilişlər həmçinin Azərbaycanın bölgələrində - Xınalıqda və Gədəbəydə aparılıb. Hazırda Azərbaycanda çəkilişləri yekunlaşan film Türkiyədə davam etdirilir. Məlumata görə, filmin çəkilişi ayın sonuna yekunlaşacaq və daha sonra istehsal prosesi davam edəcək.

Qeyd edək ki, filmdə dünya şöhrətli aktyorlarla yanaşı, azərbaycanlı aktyorlar, o cümlədən xalq artisti Fəxrəddin Manafov, əməkdar artistlər Pərviz Bağırov, Mehriban Zəki, Qurban İsmayılov, Pərviz Məmmədrzayev, aktyorlardan Rasim Cəfər, Dəniz Tacəddin, Xumar Səlimova, Cümşüd Zeynalov, Küşvər Şərifova, Aydın Əliyev, Nigar Güləhmədova, Bəhruz Vaqifoğlu, Kamran Ağabalayev, Tural Əhməd, Cəmilə Tağızadə və Cövdət Şükürov da rol alıblar.

Xatırladaq ki, film Qurban Səidin "Əli və Nino" romanı əsasında ekranlaşdırılıb, müsəlman Əli ilə xristian Ninonun sevgi hekayəsindən bəhs edir. Filmin icraçı prodüseri Leyla Əliyeva, prodüseri Kris Tikyer, rejissoru "Bafta" mükafatı sahibi Asif Kapadiya, ssenari müəllifi isə "Academy Award" mükafatı laureatı Kristofer Hemptondur.

❑ **Xalidə GƏRAY**

# "İsti havalarda insanlar daha aqressiv və cinayətə meylli olurlar"

## Psixoloq: "İnsan haqlarının tapdanmasına, qadın zorakılıqlarına daha çox isti ölkələrdə rast gəlinir..."

**İnsan psixoloji varlıqdır və məkan onu motivasiya edir. Artıq yaz fəslinin bir ayını geridə qoysaq da, havalar gah soyuq, gah da isti keçir. Bu cür dəyişkən hava şəraiti isə insanların sağlamlığına və ən əsası psixologiyasına təsirsiz ötüşmür.**

Ümumiyyətlə, insan psixologiyasına sarayların, abidələrin, şəhər həyatının, təbiətin, ümumilikdə isə ətraf mühitin özünəməxsus təsir qabiliyyəti var. Bir çox insanlar var ki, soyuq, boz havada özlərini əzgin, kefsiz, yorğun, işə həvəssiz hiss etdiklərini, günəşli havada isə yüksək əhval ruhiyyədə olduğunu desələr də, elə insanlar var ki, əksinə, soyuq havalarda yüksək əhvalda olur, günəşli havada isə özlərini pis hiss etdiklərini deyirlər.

Mütəxəssislərə görə, şəhər həyatı insanlara mənfi təsir göstərir, onları depressiyaya salır. Dünya Xoşbəxtlik Məlumat Bankı 90 ölkədə aparılan araşdırmaların nəticəsi olaraq müəyyən edib ki, insanlar kənd həyatında daha xoşbəxt yaşayırlar. İnformasiya çoxluğu, rəqabət, xəyal qırıqlığı, səs-küylə dolu şəhər mühiti insan ömrünü azaltmaqla yanaşı, insanı depressiyaya, stressə salır.

ABŞ-da aparılan araşdırma zamanı məlum olub ki, kənd insanı şəhər insanından 20 il çox yaşayır və daha sağlam olurlar. Bunun bir səbəbi də şəhər mühiti, ucalan göydələnlər, avtomobillərin tüstüsü ilə çirklənən havadır.

**Bu mövzuda söhbət etdiyimiz psixoloq Dəyanət Rzayev havanın insan psixologiyasında böyük rol oynadığını bildirdi:** "İnsan psixologiyasının insan fiziologiyası ilə bağlıdır. Hansısa fizioloji dəyişikliklər psixoloji dəyişikliklərə səbəb olur və orqanizm böyük stress keçirir. Məsələn, hava birdən-birə dəyişibsə, bu, insan fiziologiyasına təsir edir. Əgər dünən insan bir qərar veribsə, havaya uyğun olaraq ertəsi gün həmin qərarını dəyişə də bilər. Bu cür havalar əsasən də siyasətçilərin, iqtisadçıların qərarlarına təsir edir. Həmçinin əhval-ruhiyyədən də çox şey asılıdır. Amma isti-soyuq havanın təsiri daha böyükdür. Məsələn, birdən-birə qar-yağış yağanda hansısa xatirələr, ölkələr yada düşür. Buna uyğun olaraq da insanın qərarı dəyişə bilər. Amma qərarının birdən-birə dəyişməsinin səbəbini heç kim hava ilə əlaqələndirmir. Ümumiyyətlə, şəxsiyyətin özündən də çox şey asılıdır".



**Psixoloq isti havalarda insanların daha çox aqressiv və cinayətə meylli olduğunu bildirdi:** "İnsanlar iki qrupa bölünür - şimal və cənub insanlar. Bunlar çox fərqlənirlər. Diqqət etsəniz görərsiniz ki, qarayanız, saçı, gözləri qara olan insanlar daha aqressiv olur. Çünki gün beynin bir hissəsini qızdırır və beyindəki mülayimlik hormonunu məhv edir. Amma şimal insanı daha sakit olur. Əgər insanın psixikası zəifdirsə, o təbii ki, hansısa problemlər yaşayır. Diqqət etsəniz görərsiniz ki, isti ölkələrdə insanlar fəhlə olmaq istəmir, istəyirlər ki, həmişə idarə edən olsunlar. İnsanların aqressiv olması birbaşa hava ilə, xüsusən də istilərlə bağlıdır. Məsələn, daha çox insanların hüquqları tapdalanan, qadın zorakılığı isti ölkələrdə baş verir. Azərbaycanda da qadın zorlamalarının sayı artıb. Bu kimi hadisələrin və qətllərin çox olması bizim isti ölkələr sırasında olmağımıza görədir. Şimal tərəfə getsəniz görərsiniz ki, insanlar necə sakit və təmkinlidirlər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 90 (6118) 28 aprel 2015

# 1 il də yaşasa 1 milyonu olacaq



Vyetnamın ən böyük şəhəri olan Ho Chi Mintdə yaşayan Nguyen Tu Tu adlı qadının tam 122 yaşı var. Dünya Rekordlarının Birliyi Nguyenin dünyanın ən yaşlı qadını olduğu faktını təsdiqləyib. Əgər yaşlı qadın bir il daha yaşayıb 123 yaşına çatarsa, moldovalı iş adamı Dmitri Kaminskiyin vəd etdiyi 1 milyon dolların sahibi olacaq. XIX, XX və XXI əsrləri görən qadın 123 il yaşaya bilsə, dünyanın ən uzun müddət yaşaya bilən insanı kimi tarixə düşəcək. Nguyen 11 uşaq dünyaya gətirib. Hazırla onların yalnız ikisi yaşayır. O ən çox sevdiyi yeməyin plov olduğunu deyir, südlü şirniyyatlar isə həyatında önəmli yerə sahibdir. Ailəsi və onun haqqında araşdırma aparan həkimlər Nguyenın bu günə qədər xəstəxanada yatmadığını, heç bir ciddi xəstəliyi olmadığını deyiblər.

"Ginnesin Rekordlar kitabı"na görə bu günə qədər ən uzun müddət yaşayan şəxs Yaponiyada olub və 114 yaşında həyata gözlərini yumub.



## Lobyanın faydaları

Çeşidindən asılı olmayaraq, lobya çox faydalı və dadlıdır. Lobya tərkibinin zənginliyi ilə əti əvəz edir. Baxmayaraq ki, ət heyvan, lobya isə bitki mənşəli ərzaqdır. Zülal, vitamin və mikroelementlər tərkibinə görə bir-iki ərzaq növü çox oxşardır. Tez doyma hissi lobyanın tərkibindəki çoxlu miqdarda olan zülal sayəsində əmələ gəlir. Bundan başqa, onun tərkibində karbohidrat, amin turşuları, B qrup vitaminləri və C vitamini, mineral maddələr; natrium, kalium, kalsium mövcuddur. Alimlər təsdiqləyir ki, müntəzəm olaraq lobyalı yeməklər yeyən insanlar həmişə mülayim xasiyyət və sakitdir-axı lobya sinir sisteminə faydalı təsir göstərir. Bundan başqa, o, orqanizmdə maddələr mübadiləsini yaxşılaşdırır. Termiki emal və konservləşdirmə zamanı lobya öz faydalı keyfiyyətlərini itirmir. Konservləşdirmə zamanı onun tərkibində 70%-ə qədər vitamin və 80%-ə qədər mineral maddə qalır. Düzdür, lobya mədədə çətin mənimsənilir və bağırsaqda köp əmələ gətirir. Bunun qarşısını almaq üçün ona göyərti və ədviyyat əlavə edin, yeməkdən sonra isə bir fincan nanəli çay için.

# Ən bahalı kompüterlər

**10.** "Lenovo - ThinkPad W540" - 2.300 $ - modelin ekran ölçüsü 15.5 düyümdür, barmaq izi tanıma funksiyası və əfsanəvi erqonomik klaviaturaya sahibdir.

**9.** "Acer - Ferrari 1100" - 3.000 $ - məşhur "Ferrari" brendinin elementləri üzərində hazırlanan bu model kifayət qədər xoş görünüşə malikdir.

**8.** "Alienvare - 18" - 3.600 $ - Ölkəmizdə məşhur olmayan bu brend əsl oyun həvəskarlarının bütün istəklərinə cavab verməyə qadirdir.

**7.** "Dell - Mobile Precesion M6800" - 3.800 $ - yüksək keyfiyyətli səs və qrafik görüntülərə sahibdir.

**6.** "Stealth MacBook - Pro ColorVare" - 6.000 $ - bir çox müasir tələblərə cavab verən "MacBook" məhdud sayda buraxılıb.

**5.** "Voodoo - Envy 171" - 6.500 $ - adi portativ kompüterdən daha çox iş qabiliyyətinə malikdir.

**4.** "Ego For Bentley" - 20.000 $ - "Bentli" avtomobilinin interyerinə uyğun tikişlərlə dizayn edilən noutbuk cəmi 250 ədəd istehsal edilib.

**3.** "MacBook Pro" - 30.000 $ - üzəri qızılla örtülən noutbuk məhdud sayda istehsal edilib.

**2.** "Tulip E-Go Diamond" - 350.000 $ - Üzərində zanbaq loqosu ilə istehsal edilən çanta görünüşlü bu noutbuk dünyanın ən bahalı portativ kompüterləri sırasında ikinci yerdə qərarlaşıb.

**1.** "Luvaglio" - 1.000.000 $ - modelin ərsəyə gəlməsində almaz, ağ qızıl və dəridən istifadə olunub.





## "Ağıllı" plastır müalicəni asanlaşdıracaq

Cənubi Koreya alimləri tərəfindən hazırlanmış plastır yalnız xəstənin cari vəziyyətinə nəzarət deyil, həmçinin ehtiyac olduqda onun orqanizminə lazımi miqdarda dərman yeridə bilir. Xəstə dərmanın qəbulunu unuda bilər, dərmana qarşı əlavə təsir özünü göstərə bilər. Milli.az istnews-a istinadən bildirir ki, məhz xəstələrin təhlükəsizliyi üçün bu "ağıllı" plastır hazırlanıb. Plastır insan orqanizminə müəyyən miqdarda dərman daxil edə bilir və insan orqanizmində dərmanın konsentrasiyası optimal səviyyəyə çatdıqda təchizatını dayandırır. Plastır uzadıla bilən materialdan hazırlanmış dördbucaq formasındadır.

Hər şeydən əvvəl, bu plastır parkinson xəstəliyindən əziyyət çəkən insanlar üçün mükəmməldir. Qıcolma zamanı plastır xəstənin bədəninə az miqdarda dərman yerləşdirir, qıcolma dayanan kimi dərmanın təchizatı dayandırılır.

## Qoroskop




**QOÇ** - Səhhətinizin qayğısına qala bilsəniz, gün ərzində başqa narahatçılığınız olmayacaq. Nahardan sonra sevindirici xəbərlər və ya ürəyinizcə olan təkliflər alacağınıza şübhə etməyin.

**BUĞA** - Maliyyə problemləriniz olsa da, bu, işgüzarlığınızı azaltmayacaq. Hətta ola bilsin ki, saat 15-18 arası maraqlı və perspektivli təklif də alasınız. Özünüzü buna hazırlayın.

**ƏKİZLƏR** - Ulduzlar kənar təsirlərdən uzaq olmağı, yalnız öz qərarınızla addım atmağı tövsiyə edir. Bu gün spirtli içki içmək, qarğış və qeybət etmək, o cümlədən yalan vədlər vermək yolverilməzdir.

**XƏRÇƏNG** - Hər mənada düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizdən xəbər verəcək. Əlbəttə ki, bunun üçün özünüz də canfəşanlıq göstərməlisiniz. Sövdələşmələrdə aktiv olun.

**ŞİR** - Bu təqvimi təsadüflərlə başa vuracaqsınız. Gözləmədiyiniz adamlarla, ağlınıza gətirmədiyiniz xəbərlərlə rastlaşacaqsınız. Axşama doğru sürprizlər də mümkündür. Şəxsi büdcənizlə bağlı narahat olmayın.

**QIZ** - Ulduzlar xəbər verir ki, bu təqvim şəxsi işlərinizdə yeni mərhələnin baş qaldırmasına səbəb ola bilər. Bunun üçün müsahiblərinizə diqqətlə qulaq asmalı, düz seçim etməlisiniz.

**TƏRƏZİ** - O qədər də ürəkaçan ərəfə deyil. İlk növbədə səhhətinizə diqqət yetirin. Çünki ulduzlar sağlıq durumunuzun aşağı səviyyəyə düşəcəyini bəyan edir. Riskdən də uzaq olun.

**ƏQRƏB** - Saat 16-ya qədər bütün vacib işlərinizi yekunlaşdırmağa çalışın. Həmin ərəfədə şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Sonrakı müddəti isə daha çox istirahətə həsr edin.

**OXATAN** - Sizin üçün müəyyən mənada mistik gündür. Daxili sıxıntılarınızı və ruhi zəifliyinizi aradan qaldırmaq üçün müqəddəs ziyarətgahlarımıza üz tutun. Dini qaydaları pozmayın.

**OĞLAQ** - Neçə vaxtdan bəri daxilinizdə mövcud olan gərginlik səngiməditindən naharaqədərki ovqatınız aşağı səviyyədə ola bilər. Sonrakı saatlarda isə sürprizlər gözlənilir.

**SUTÖKƏN** - Astroloji göstəricilər yalnız səfər və qonaqlıqlar üçün səmərəli vaxt olduğunu bəyan edir. Digər məsələlərdə, xüsusən də fəaliyyət zəminində isə proseslər o qədər də uğurlu olmayacaq.

**BALIQLAR** - Kifayət qədər xoş məqamlar yaşayacaqsınız. Bir tərəfdən yeni işgüzar əlaqələr, digər tərəfdənsə ətrafınızdakıların sizə bəraət qazandırması ovqatınızı yüksəldəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Super ana" marafon qaçdı



İngiltərədə yaşayan və bir ildir xərçəngə qarşı mübarizə aparan Angela Field adlı qadın marafon yarışında iştirak edib. Gənc qadın üzv olduğu xərçənglə mübarizə qurumuna maddi yardım göstərmək üçün bu addımı atıb. Heç vaxt siqaret çəkməyən və səhhətinə olduqca diqqət edən qadının bu xəstəliyə tutulması onu tanıyanları dərindən yaralayıb. "Super ana" ləqəbi ilə tanınan Fieldanın vəziyyəti yaxşı olmadığı üçün onu əməliyyat etmək mümkün deyil. Buna baxmayaraq, ümidini itirmir və övladları ilə daha yaxşı vaxt keçirmək üçün əlindən gələni edir.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300